ABŞ DÖVLƏTİ

Ümumi cizgilər



ABŞ DÖVLƏTİ

Ümumi cizgilər

ABŞ Dövlət Departamenti
Beynəlxalq İnformasiya Proqramları İdarəsi

Redaktor: Rozaliya Tarqonski
Dizayner: Çloy D. Ellis
Foto redaktoru: Meqqi Conson Sliker
Yardımçı redaktorlar: Ketlin E. Huq, Kerol Norton
Kitab «İnam» Plüralizm Mərkəzində tərcümə olunub
(www.inamcfp.org)
Tərcüməçi: Tehran Vəliyev
Redaktor: Vahid Qazi
Operator: Səbinə Bayramova
Korrektor: Kəmalə Cəfərova

İlk nəşrin müəllifi: Riçard C. Şroder. 1989-cu ildə Natan Qlik tərəfindən genişləndirilmiş və yenidən işlənmişdir, o, həmçinin 2-ci fəslin – «Konstitusiyanın şərhi: Federalist məqalələr»in müəllifidir. 2000-ci ildə Rozaliya Tarqonski tərəfindən genişləndirilmiş və yenidən işlənmişdir. O, həmçinin 6-cı fəslin – «Ali Məhkəmənin istinad qərarları»nın müəllifidir. 8-ci fəsli – «Xalq dövləti: Vətəndaşların rolu» bu nəşr üçün Robert L. Teylor tərəfindən yazılmışdır.

Şəkilaltı yazılar: Bu yazılar soldan-sağa yarımsütunlarla, yuxarıdan-aşağıya düz xətlərlə ayrılmışdır.

Şəkillərin mənbələri:
Front Cover: © Brian Lawrence/Pictor.
4–5: © Bettmann/CORBIS. 6, 11, 13, 14: North Wind Picture Archives. 16: Fine Photo.
26: AP/Wide World Photos. 32–33, 35: North Wind Picture Archives. 40–41: © Robert Trippett/Sipa Press. 45: © Martin Simon/SABA. 46: AP/Wide World Photos. 47: © Mark Reinstein/IPOL-Mary Anne Fackelman/The White House. 52: U.S. Department of Agriculture. 53, 54: AP/Wide World Photos. 55 © Jonathan Elderfield/Liaison Agency. 56: © David Butow/SABA. 58: AP/WideWorld Photos. 59: © Matthew McVay/SABA. 60: © Nina Bermann/Sipa Press. 62–63: AP/Wide World Photos (3). 65: © Kim Kulish/SABA-AP/Wide World Photos. 68–69: © James Colburn/IPOL. 71: © Christy Bowe/IPOL. 74: AP/Wide World Photos. 82-83: © Robert Trippett/Sipa Press. 86–87, 88: AP/Wide World Photos. 90–91: Lisa Biganzoli, National Geographic Society. 93, 94: North Wind Picture Archives. 95, 96: © Bettmann/CORBIS. 97: File Photo. 98: AP/Wide World Photos. 100-101: ©Robert Daemmrich/Tony Stone Images. 103: AP/Wide World Photos. 105: © Cathlyn Melloan/Tony Stone Images. 106: © George Bellerose/Stock Boston, Inc. 107: AP/Wide World Photos. 108-109: © David Butow/SABA. 111: Hulton Getty Picture Library/Liaison Agency. 114: North Wind Picture Archives. 117: © Greg Smith/SABA. 188: © 1991–1999 The EnviroLink Network – Courtesy libertynet.org. 120: Archive Photos.

ABŞ DÖVLƏTİ

Ümumi cizgilər

MÜNDƏRICAT

Fəsil 1
Konstitusiya: qüvvədən düşməyən sənəd 4

Fəsil 2
Konstitusiyanın şərhi: Federalist məqalələr 30

Fəsil 3
İcra qanadı: Prezidentin səlahiyyətləri 38

Fəsil 4
Qanunverici qanad: Konqresin təsir dairəsi 64

Fəsil 5
Məhkəmə qanadı: Konstitusiyanın şərh olunması 78

Fəsil 6
Ali Məhkəmənin nümunə xarakterli qərarları 86

Fəsil 7
Çoxlu dövlətlər ölkəsi 96

Fəsil 8
Xalq dövləti: Vətəndaşların rolu 104

ABŞ dövləti haqqında əlavə ədəbiyyat 119



«Amerika dövlətinin əsasının qoyulması» adlı bu tabloda Corc Vaşinqton qabağa əyilərək növbəti nümayəndənin ABŞ Konstitusiyasını imzalamasına tamaşa edir. Konstitusiya konventinin digər nümayəndələri isə ona baxır.

FƏSİL
1

KONSTİTUSİYA

QÜVVƏDƏN DÜŞMƏYƏN SƏNƏD

«...Konstitusiyada yazılan bu müddəalar gələcəkdə əsrlər boyu qüvvədə qalmaq və bu minvalla insani məsələlərlə bağlı cürbəcür çağırışlara uyğunlaşdırıla bilmək üçün nəzərdə tutulmuşdur».
– Con Marşall,
Ali Məhkəmənin sədri,
MakKulloq kəndi,
Merilend, 1819

18-ci əsrə aid bu qravürdə 1787-ci ildə ABŞ Konstitusiyasının qəbul olunduğu İstiqlaliyyət salonunun önünə yığılmış Filadelfiya sakinləri əks olunmuşdur.

ABŞ Konstitusiyası Amerika dövlətinin mərkəzi aləti və ölkənin ali qanunudur. 200 ildən çoxdur ki, o, dövlət institutlarının inkişafını yönləndirir, siyasi sabitlik, fərdi azadlıq, iqtisadi yüksəliş və sosial tərəqqinin əsaslarını təmin edir.

Amerika Konstitusiyası dünyanın bu gün də qüvvədə olan ən yaşlı yazılı konstitusiyasıdır və o, dünyanın bir çox digər konstitusiyaları üçün model rolunu oynamışdır. ABŞ Konstitusiyası bu qədər uzunömürlü olmasına görə öz sadəliyinə və çevikliyinə borcludur. İlk dəfə 18-ci əsrin sonlarında, Amerika qitəsinin Atlantik sahili boyu birbirindən çox fərqli olan 13 müxtəlif ştatındakı 4 milyon adamın idarə olunması üçün hüquqi çərçivə təmin etmək məqsədilə tərtib edilən bu konstitusiyanın əsas müddəaları o qədər yaşarı olmuşdur ki, sonrakı bütün dövrlər ərzində yalnız 27 əlavə və dəyişiklik edilməklə indi o, Atlantik okeanından Sakit okeanadək uzanan birbirindən daha fərqli 50 ştatda 260 milyondan çox amerikalının ehtiyaclarının ödənilməsinə xidmət edir.

Konstitusiyanın yaranmasına aparan yol nə dümdüz, nə də hamar olmuşdur. Sənədin ilk variantı 1787-ci ildə, uzun sürən intensiv mübahisələrdən və əvvəlki federal birliyin altıillik həyat təcrübəsindən sonra meydana çıxmışdır. Amerikadakı 13 Britaniya koloniyası 1776-cı ildə doğma vətənləri İngiltərədən ayrılaraq öz müstəqilliklərini elan etmişdi. Bir il əvvəl koloniyalarla Britaniya arasında başlayan müharibə – müstəqillik uğrunda müharibə tam altı il sürmüşdü. Hələ müharibə gedəgedə artıq özlərini Amerika Birləşmiş Ştatları adlandıran koloniyalar onları bir ölkə tərkibində birləşdirən müqavilə yazıb hazırlamışdılar. «Konfederasiya və əbədi ittifaq maddələri» kimi tərtib edilən bu müqavilə 1777-ci ildə ştatların konqresi tərəfindən qəbul edilmiş və 1778-ci ilin iyulunda rəsmən imzalanmışdır. «Maddələr» 1781-ci ilin martında 13-cü ştat – Merilend tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə minmişdir.

«Konfederasiya maddələri»nin ştatlar arasında nəzərdə tutduğu əlaqələr xeyli zəif, həmin maddələrə əsasən yaradılan federal hökumətin səlahiyyətləri isə çox məhdud idi. Müdafiə, ictimai maliyyə və ticarət kimi mühüm məsələlərdə federal hökumətin fəaliyyəti ştatların qanunverici orqanlarının istəyindən asılı idi. Bu saziş ölkənin stabilliyi və güclənməsi baxımından o qədər də yararlı deyildi. Qısa bir müddətdə konfederasiyanın zəifliyi bütün çılpaqlığı ilə üzə çıxdı. Yenicə yaradılan ölkə siyasi və iqtisadi cəhətdən xaos vəziyyətinə düşmək həddinə gəldi. Sonralar, 1789-cu ildə Birləşmiş Ştatların ilk prezidentinə çevriləcək Corc Vaşinqtonun sözləri ilə desək, 13 ştat yalnız «qum kəndiriylə» bir-birinə birləşdirilmişdi.

Birləşmiş Ştatların Konstitusiyası məhz bu cür ağır şərtlər altında hazırlanmışdı. 1787-ci ilin fevralında Kontinental Konqres – respublikanın qanunverici orqanı ştatlara müraciət qəbul edərək onlardan «maddələr»i yenidən nəzərdən keçirmək üçün öz nümayəndələrini Filadelfiyaya, Pensilvaniya ştatına göndərmələrini xahiş etdi. Konstitusiya Konventi (qurultayı – *red.*) on bir il əvvəl – 1776-cı il iyulun 4-də İstiqlal Bəyannaməsinin qəbul edildiyi İstiqlaliyyət salonunda 1787-ci il mayın 25-də toplaşdı. Nümayəndələrə yalnız «Konfederasiya maddələri»ni təkmilləşdirmək səlahiyyəti verilsə də, onlar «maddələr»i bir kənara qoyub tamamilə yeni, daha çox mərkəzləşdirilmiş dövlət quruluşunu nəzərdə tutan əsasnamə hazırlamağa başladılar. Yeni sənəd – Konstitusiya 1787-ci il sentyabrın 17-də tamamlandı və 1789-cu il martın 4-də qəbul olundu.

O dövrün məşhur liderlərinin, yeni dövlətin Qurucu Atalarının əksəriyyəti konstitusiyanı hazırlayan 55 nümayəndə sırasına daxil idi. Onlar geniş səpkidə müxtəlif maraq, mühit və həyat mövqelərini təmsil etmələrinə baxmayaraq, konstitusiyanın preambulasında ifadə olunan əsas məqsədlər barəsində razılığa gəldilər: «Biz, Birləşmiş Ştatlar əhalisi daha mükəmməl ittifaq qurmaq, ədaləti bərqərar etmək, daxili asayişi qorumaq, birgə müdafiəni təşkil etmək, ümumi rifaha rəvac vermək, özümüzü və gələcək nəsillərimizi azadlığın nemətlərilə təmin etmək məqsədilə Amerika Birləşmiş Ştatları üçün bu Konstitusiyanı təsis və qəbul etdik».

FƏRQLİ İNSANLARIN BİRLƏŞDİRİLMƏSİ

Konstitusiyanın ən başlıca məqsədi bilavasitə xalqın iradəsini həyata keçirən möhkəm, seçkili idarəçilik sistemi yaratmaq olmuşdur. Özünüidarə konsepsiyası ilk dəfə amerikalılar tərəfindən irəli sürülməyib; belə ki, özünüidarəetmənin bəzi xüsusiyyətləri artıq həmin dövrdə mövcud idi. Lakin Birləşmiş Ştatların xalq tərəfindən idarə olunması ilə bağlı bu Konstitusiyanın təsbit etdiyi dərəcə dünyadakı digər

dövlətlərlə müqayisədə çox unikal, hətta inqilabi xarakter daşıyırdı. Konstitusiyanın qəbul edildiyi vaxtadək amerikalılar özünüidarə sahəsində xeyli təcrübə toplamışdılar. Müstəqillik elan edilməzdən çox-çox əvvəl koloniyalar xalq tərəfindən nəzarət edilən idarəçilik qurumları kimi fəaliyyət göstərirdi. İnqilab başlandıqdan sonra isə – 1776-cı il yanvarın 1-dən 1777-ci il aprelin 20-dək – 13 ştatdan 10-nu artıq öz konstitusiyasını qəbul etmişdi. Ştatların əksəriyyəti qanunvericilik orqanları tərəfindən seçilən qubernatorlara malik idi. Qanunvericilik orqanları isə xalq tərəfindən seçilirdi.

«Konfederasiya maddələr»i məhz bu müstəqil idarə olunan ştatları bir qurumda birləşdirməyə çalışırdı. Konstitusiya isə əksinə, möhkəm mərkəzi və yaxud federal hökumət yaratmış, ona ştatlar arasındakı münasibətləri tənzimləmək üçün geniş səlahiyyətlər vermiş, xarici işlər və müdafiə sahələri ilə bağlı bütün məsuliyyətləri şəriksiz ona həvalə etmişdi.

İnsanların çoxu üçün mərkəzləşidirlmiş dövlət sistemini qəbul etmək çox çətin idi. Amerikada məskunlaşanların əksəriyyətini dini və siyasi təzyiqlərdən, eləcə də köhnə dünyanın fərdi qabiliyyət və işgüzarlığı lazımınca diqqətə almayan ağır iqtisadi şərtlərindən yaxa qurtarmaq üçün öz vətənlərini tərk etmiş avropalılar təşkil edirdi. Bu insanlar fərdi azadlığa xüsusi önəm verir və həmin azadlıqları məhdudlaşdıra biləcək hər cür şeyə, xüsusilə də dövlət hakimiyyətinə şübhə ilə yanaşırdılar.

Yeni yaranan xalqın tərkibcə müxtəlifliyi də birləşmə üçün ciddi əngəl törədirdi. 18-ci əsrdə Konstitusiyanın öz mərkəzi hökumətini seçmək və ona nəzarət etmək səlahiyyəti verdiyi insanlar mənşəcə müxtəlif olduqları qədər həm də müxtəlif inancları və maraqları təmsil edirdilər. Onların çoxu İngiltərədən gəlmiş olsa da, burada İsveç, Norvec, Fransa, Hollandiya, Prussiya, Polşa və bir çox digər ölkələrdən çıxmış mühacirlər də vardı. Bu adamların dini inancları da müxtəlif idi və bir çox hallarda onlar bu inanclarına ciddi riayət edirdilər. Onların arasında anqlikanlar, Roma katolikləri, kalvinistlər, quqenotlar, lüteranlar, kvakerlər və yəhudilər vardı. İqtisadi və sosial baxımdan amerikalılar iri torpaq sahibləri olan aristokratlardan tutmuş Afrikadan gətirilən kölələrə və borc əvəzinə işləyən müqaviləli xidmətçilərə qədər sıralanırdı. Amma ölkənin özəyini orta təbəqə – fermerlər, ticarətçilər, mexaniklər, dənizçilər, gəmiqayıranlar, toxucular, dülgərlər və bir çox digər peşə sahibləri təşkil edirdi.

Amerikalılar Britaniya taxt-tacından azad olmaq düşüncəsi də daxil olmaqla, bütün məsələlərdə o zaman da, indiki kimi, çox geniş spektrdə fərqli baxışlara malik idilər. Amerika inqilabı dövründə torilər kimi tanınan çox sayda britaniyalı loyalist ölkədən qaçaraq Kanadanın şərqində məskunlaşmışdı. İnqilaba qoşulmayanlar möhkəm blok yaratmışdılar; ancaq onlar başqa-başqa səbəblərə görə inqilaba qarşı çıxırdılar və yeni respublika ilə nə cür saziş bağlamaq barədə xeyli fərqli mövqelərə malik idilər.

Ötən iki əsr ərzində Amerika əhalisinin tərkibcə rəngarəngliyi xeyli artsa da, ölkənin birliyi mahiyyət etibarı ilə daha da möhkəmlənmişdir. 19-cu əsr boyu və 20-ci əsrin əvvəllərində saysız-hesabsız mühacir axınları baş vermiş və bu insanlar öz bacarıq və qabiliyyətləri, habelə mədəni irsləriylə böyüməkdə olan xalqın daha da zənginləşməsinə xidmət etmişlər. İlk mühacirlər şərqdə Appalaçi dağlarını keçərək Missisipi vadisində və qitənin mərkəzində yerləşən Böyük düzənliklərdə məskunlaşmış, sonra isə Qayalı dağları aşaraq Sakit okean sahillərinə çatmışdılar; beləliklə, ilk kolonistlər tərəfindən Atlantik okeanının sahilyanı ərazilərinin qərbində 4500 kilometrlik bir sahə məskunlaşdırılmışdı. Məskunlaşmış ərazilər genişləndikcə bu torpağın nə qədər böyük təbii ehtiyatlara malik olduğu daha aydın üzə çıxırdı: ağac materialları ilə dolu olan əl dəyilməmiş meşələr, zəngin kömür, mis, dəmir filizi və neft yataqları, bol su ehtiyatları və münbit torpaqlar.

Yeni ölkənin zənginlikləri özünəməxsus fərqlilik növü doğurmuşdu. Xüsusi regional və kommersiya maraqlarına malik qruplar meydana çıxmışdı. Şərq sahilindəki gəmi sahibləri azad ticarəti müdafiə edirdilər. Orta qərb manufakturaçıları böyüməkdə olan ABŞ bazarında öz mövqelərini qoruyub saxlamaq üçün ixrac rüsumları qoyulmasının tərəfdarı idilər. Fermerlər yükdaşıma qiymətlərinin aşağı, çoxişlənən malların qiymətlərinin isə yüksək olmasını istəyirdilər; dəyirmançılar və çörəkbişirənlər taxıl məhsullarının qiymətlərinin aşağı salınmasına çalışır, dəmiryolçular isə yükdaşıma qiymətlərinin mümkün qədər yüksək olmasına can atırdılar. Nyu-York bankirləri, cənubun pambıq becərənləri, Texas heyvandarları və Oreqonun meşə sənayeçiləri – bütün bunların hamısı iqtisadi məsələlər və iqtisadiyyatın tənzimlənməsində dövlətin rolu barədə çox fərqli görüşlərə malik idilər.

Bu bir-birindən tamamilə fərqli maraqları bir araya gətirmək, onlar üçün ümumi zəmin yaratmaq və eyni zamanda bütün insanların fundamental hüquqlarını müdafiə etmək Konstitusiyanın və onun əsasında yaradılan dövlətin daimi işinə çevrildi.

Xeyli zəif inkişaf etmiş iqtisadi şərtlər daxilində 4 milyon insanın idarə olunması ilə bağlı problemlər bugünkü dövlət sisteminin mürəkkəbliyi ilə müqayisədə bəlkə də çox asan görünə bilər. Lakin Konstitusiyanın müəllifləri onu tərtib edərkən, o dövrün tələbləri ilə yanaşı, gələcəyi də düşünmüşdülər. Onlar yalnız öz dövrlərinin insanları üçün deyil, həm də gələcək nəsillər üçün işlək ola biləcək dövlət strukturu yaratmalı olduqlarının fərqində idilər. Buna görə də Konstitusiyaya sosial, iqtisadi və siyasi şərtlərin tələb etdiyi vaxtlarda bu sənədi daha da təkmilləşdirmək barədə müddəa daxil etmişdilər. Ratifikasiya edildiyi vaxtdan bugünə kimi Konstitusiyaya edilən iyirmi yeddi əlavə və dəyişiklik bu sənədin özünəməxsus çevikliyinin onun ən güclü cəhətlərindən biri olduğunu sübuta yetirmişdir. Bu çeviklik olmasaydı, 200 il bundan əvvəl tərtib edilmiş bir sənəd bu gün 260 milyonluq əhalinin və Birləşmiş Ştatların bütün səviyyələrdən olan minlərlə idarəetmə orqanının ehtiyaclarını bu qədər effektiv ödəyə bilməzdi. Həmçinin, həm kiçik qəsəbələrin, həm də böyük şəhərlərin problemlərinə eyni cür və eyni dəqiqliklə tətbiq oluna bilməzdi.

Konstitusiya və federal hökumət yerli və ştat yurisdiksiyasının da daxil olduğu idarəetmə piramidasının zirvəsində dayanır. Birləşmiş Ştatlar sistemində hər bir hökumət səviyyəsi müəyyən səlahiyyətləri

Şeys üsyanının təsvir edildiyi bu rəssam işində əsgərlər üsyançıların üstünə hücum edir. Massaçusets ştatının kənd yerlərində baş qaldıran bu üsyanlar «Konfederasiya maddələri»nə əsasən fəaliyyət göstərən federal hökumətin zəifliyini üzə çıxardı və yeni konstitusiya yaradılması hərəkatının başlanmasına rəvac verdi.

xüsusi qaydada özündə saxlamaqla geniş müstəqilliyə malikdir. Müxtəlif yurisdiksiyalar arasındakı mübahisələr məhkəmələr tərəfindən həll edilir. Ancaq ölkənin milli maraqları ilə bağlı elə məsələlər də vardır ki, bütün idarəçilik səviyyələrinin eyni vaxtda əməkdaşlığını tələb edir və Konstitusiyada bu məqsəd üçün də müvafiq maddə mövcuddur. Məsələn, Amerikanın ictimai (dövlət – *red.*) məktəbləri ştatmiqyaslı standartlara tabe tutularaq əsasən yerli yurisdiksiyalar tərəfindən idarə olunur. Ancaq federal hökumət də məktəblərə yardım göstərir, çünki savad və təhsilə yiyələnmə çox mühüm ümummilli məsələlər hesab olunur və buna görə də federal hökumət, bərabər təhsil imkanları təmin etmək məqsədilə tərtiblənmiş ümumi normaların həyata keçirilməsinə nəzarət edir. Mənzil, sağlamlıq və ictimai rifah kimi digər sahələrdə də müxtəlif hökumət səviyyələri arasında oxşar əməkdaşlıq mövcuddur.

İnsan cəmiyyətinin heç bir məhsulu kamil deyildir. Ona edilən əlavələrə baxmayaraq, ABŞ Konstitusiyasında, yəqin ki, hələ də gələcək dövrlərdə üzə çıxa biləcək müəyyən qüsurlar vardır. Ancaq ölkənin iki əsrlik inkişafı və əldə etdiyi misli görünməmiş nailiyyətlər Amerika dövlətinin əsasını qoymaq üçün 1787-ci ilin bütün yayını yorulmaq bilmədən çalışan 55 insanın nə qədər uzaqgörən olduğunu bir daha sübut edir. Birləşmiş Ştatların keçmiş baş prokuroru Arçibalt Koksun sözləri ilə desək, «amerikan həyatının hər bir aspektində baş vermiş nəhəng dəyişikliklərə baxmayaraq, ilkin Konstitusiya hələ də bizə xidmət etməkdə davam edir, çünki onu yaradanlar çox şeyləri deyil, lazımlı şeyləri deyəcək qədər dahiyanə adamlar olublar... Konstitusiya Konventində ümumi konturlarc çızılan plan uğur qazandıqca, ölkə böyüdükcə və həm maddi cəhətdən, həm də öz ideallarını gerçəkləşdirmək baxımından böyük nailiyyətlər əldə etdikcə konstitusiya hər bir fərdin və ya insan qrupunun nail ola biləcəyindən qat-qat artıq böyüklük və nüfuz qazanır».

KONSTİTUSİYANIN TƏRTİB OLUNMASI

«Konfederasiya maddələri»nin qəbul olunduğu 1781-ci illə Konstitusiyanın tərtib edildiyi 1787-ci il arasında ötən dövr ən zəif, ən çaxnaşmalı və ən iğtişaşlı dövrlərdən biri olmuşdur. «Konfederasiya maddələri»ndə hakimiyyətin icra qanadının qanunları tətbiq edə bilməsi və ya onları şərh edə bilən milli məhkəmə sistemi haqqında heç bir müddəa nəzərdə tutulmamışdı. Qanunverici Konqres yeganə mərkəzi hökumət orqanı idi, ancaq ştatları istəmədikləri şeyləri yerinə yetirməyə məcbur edə bilmək üçün onun heç bir səlahiyyəti yox idi. Konqres nəzəri cəhətdən müharibə elan edə və ordunu gücləndirə bilərdi, ancaq o, ştatları müəyyən edilmiş kvotada əsgər və yaxud bu əsgərləri təmin etmək üçün silah – sursat verməyə məcbur edə bilmirdi. Konqres ştatlara öz fəaliyyətini maliyyələşdirmək üçün lazım olan gəlir mənbəyi kimi baxırdı, amma hər hansı bir ştat öz federal büdcə payını ödəməyəndə onu cəzalandıra bilmirdi. Vergilərə və tariflərə nəzarət ştatların ixtiyarına verilmişdi və hər bir ştat öz pulunu buraxırdı. Ştatlar arasındakı mübahisələrdə – onların sərhədlərinin dəqiqləşdirilməsi ilə bağlı toqquşmaların çoxu hələ həll edilməmiş qalırdı – Konqres vasitəçi və yaxud məhkəmə rolunu oynasa da, çıxardığı qərarların yerinə yetirilməsini ştatlardan tələb edə bilmirdi.

Bu hal faktiki olaraq xaosla nəticələnmişdi. Vergiləri toplamaq səlahiyyətinə malik olmadığından federal hökumət borc içində boğulurdu. 13 ştatdan yeddisi İnqilab müharibəsi veteranlarına və müxtəlif kreditorlara ödəmək və kiçik fermerlərlə iri plantasiya sahibləri arasındakı borcları qaydaya salmaq üçün dəyəri çox yüksək, amma real alıcılıq qabiliyyəti xeyli aşağı olan külli miqdarda kağız pul buraxmışdı.

Bunun əksinə olaraq Massaçusets qanunvericiləri pul buraxılışını ciddi şəkildə məhdudlaşdırmış və vergiləri xeyli yüksəltmişdilər. Bu isə İnqilab müharibəsinin iştirakçısı, keçmiş ordu kapitanı Daniel Şeysin rəhbərliyi altında fermerlərdən ibarət kiçik bir silahlı dəstənin meydana çıxmasına səbəb olmuşdu. Massaçusetsin hökumət binasını ələ keçirəcəklərini bildirən Şeys və digərləri bu məhdudiyyətlərin və ədalətsiz vergi normalarının aradan qaldırılmasını tələb edirdilər. Ordu birlikləri bu üsyanı yatırsalar da, federal hökumət bu hadisəyə biganə qalmadı.

Ümumi, stabil pul vahidinin olmaması da ştatlar arasında və digər ölkələrlə ticarətə ciddi ziyan vururdu. Təkcə kağız pulların dəyəri ştatdan-ştata dəyişməklə qalmırdı, bəzi ştatlar (Nyu York və Virciniya kimi) başqa ştatlardan onların limanlarına daxil olan məhsullara gömrük rüsumu qoymaqla digərlərini də bu cür cavab tədbirləri görməyə təhrik edirdilər. Ştatlar da, federal maliyyə naziri kimi, «bizim ictimai kreditimiz tükənib» deyə bilərdilər. İngiltərədən zor gücünə ayrılan bu yeni müstəqil ştatlar öz problemlərini birgə həll edə bilmək üçün artıq Britaniya limanları ilə əlverişli münasibət yarada bilmirdilər. ABŞ səfiri Con Adams 1785-ci ildə ticarət barədə saziş imzalamaq üçün danışıqlar aparmaq istəyəndə Britaniya tərəfi ayrı-ayrı ştatların bu müqavilənin şərtlərinə tabe olmayacağına əsaslanaraq həmin təklifi rədd etmişdi.

Öz siyasətlərini hərbi güclə müdafiə etmək iqtidarında olmayan zəif mərkəzi hökumətin xarici siyasət məsələlərində də bir çox əngəllərlə üzləşməsi qaçılmaz idi. Britaniyalılar inqilabi müharibənin sona çatdığını bildirən 1783-cü il müqaviləsində razılaşdıqlarına baxmayaraq, öz qoşunlarını yeni ölkənin şimal-qərb ərazisindəki fortlardan və ticarət məntəqələrindən çıxarmaqdan imtina edirdilər. Hadisələri daha da gərginləşdirmək üçün Britaniya zabitləri şimal sərhədlərində, ispan zabitləri isə cənubda müxtəlif hindu tayfalarını silahla təchiz edərək onları amerikalı məskunlar üzərinə hücuma təhrik edirdilər. Florida və Luizianaya, eləcə də Missisipi çayından qərbdəki bütün ərazilərə nəzarət edən ispanlar da qərb fermerlərinə öz məhsullarını gəmilərə yükləmək üçün Nyu Orlean limanından istifadə etməyə icazə vermirdilər.

Yenicə ayaq açmağa başlayan ölkənin bəzi ərazilərində həyat normallaşmağa başlasa da, daxili və xarici problemlər artmaqda davam edirdi. Getdikcə daha aydın şəkildə məlum olurdu ki, konfederasiya mərkəzi hökuməti möhkəm maliyyə sistemi yarada, ticarəti tənzimləyə, əks tərəfləri bağlanmış müqavilələrin şərtlərini yerinə yetirməyə məcbur edə və ya lazım gəldikdə xarici rəqiblərə qarşı hərbi qüvvədən istifadə edə biləcək qədər möhkəm deyil. Fermerlərlə tacirlər, debitorlarla kreditorlar, həmçinin ştatların özləri arasında daxili ziddiyyətlər getdikcə daha kəskin şəkil alırdı. Ümidsizliyə qapılmış fermerlərin 1786-cı il Şeys qiyamını nəzərdə tutaraq Corc Vaşinqton xəbərdarlıq edirdi: «Hər bir ştatda elə təhlükəli şeylər var ki, adi bir qığılcımdan od tutub alışa bilər».

Bu ağır siyasi gərginlik və köklü dəyişikliklərə duyulan ehtiyac 1787-ci il mayın 25-də öz müzakirələrinə başlayan Konstitusiya Konventinə ciddi təsir göstərdi.

Amerikalı rəssam Henri Bekonun çəkdiyi bu rəsmdə Benjamin Franklin (oturmuş, üzü bəri baxan) özünün Filadelfiyadakı evində Aleksandr Hamilton və digərləri ilə ABŞ Konstitusiyasının necə tərtib olunmasını müzakirə edir.

Bütün Konvent nümayəndələri qəti əmin idilər ki, «Konfederasiya maddələri» əsasında yaradılan «qısır» Konqres geniş icra səlahiyyətləri olan effektiv mərkəzi hökumətlə əvəz edilməlidir. Müzakirələrin lap əvvəlində nümayəndələr belə razılığa gəldilər ki, yeni dövlət quruluşu biri digər ikisini balanslaşdıran üç müstəqil qanaddan – qanunverici, məhkəmə və icraedici qanadlardan ibarət olmalıdır. Onlar, həmçinin, bu barədə də razılaşdılar ki, qanunverici qanad Britaniya parlamenti kimi ikipalatalı olacaqdır.

Ancaq bu iki nöqtədən başqa, qalan diqər məsələlər barəsində nümayəndələr arasında o qədər dərin fikir ayrılığı mövcuq idi ki, bəzən hətta Konventin dağılması, Konstitusiyanın ilkin variantı hazırlanmamış onun yarımçıq başa çatması təhlükəsi yaranırdı. İri ştatlar qanunverici orqanda proporsional təmsilçiliyə – hər bir ştatın öz əhalisinin sayına uyğun olaraq səsvermə səlahiyyətinə malik olmasına üstünlük verilməsini istəyirdilər. Kiçik ştatlar isə belə bir vəziyyətin daha böyük ştatların hökmranlığına aparıb çıxaracağından ehtiyatlanaraq, bütün ştatların bu orqanda bərabər təmsil olunmasında israr edirdilər. Bu məsələ Konqresin bir palatasında hər bir ştat üçün bərabər təmsilçiliyi, digərində isə proporsional təmsilçiliyi təmin edən «Böyük kompromis» yolu ilə həll edildi. Senatda hər bir ştat iki nümayəndə ilə təmsil olunacaqdı. Nümayəndələr Palatasında isə hər ştat üçün yerlərin sayı əhali-

Pensilvaniyalı Qouverner Morris Konstitusiyanın son variantını hazırlayan komitəyə başçılıq etmişdir.

qorxaraq federal məmurların birbaşa deyil, dolayı yolla seçilməsini təklif edirdilər; digərləri isə seçici bazasının mümkün qədər geniş olmasını istəyirdi. Bəziləri qərb ərazilərinin dövlətin hüdudları daxilinə salınmasının əleyhinə çıxır, digərləri isə ölkənin gələcəkdə daha da möhkəmlənməsini Appalaçi dağlarının o tayındakı toxunulmamış, bakirə torpaqlarda görürdü. Bir çox yerli maraqları tarazlaşdırmaq lazım gəlirdi; ölkə prezidentinin seçilmə müddəti, onun səlahiyyətləri və prezident seçkilərinin metodu barədə bir-birindən fərqli fikirlər və federal məhkəmənin rolu ilə bağlı ziddiyyətli təkliflər ortaq məxrəcə gətirilməliydi.

Konvent nümayəndələrinin yüksək səriştəliliyi bu kompromislərin əldə olunmasını xeyli asanlaşdırdı. Amerika inqilabının böyük liderlərindən yalnız bir neçəsi bu Konventdə iştirak etmirdi: hər ikisi sonralar ABŞ prezidenti olmuş Tomas Cefferson və Con Adams müvafiq olaraq Fransa və İngiltərədə Amerikanın elçisi kimi çalışırdılar; konfederasiyanın xarici işlər katibi (naziri – *red.*) kimi Con Ceyin başı çox qarışıq idi. Samuel Adams və Patrik Henri kimi bir neçə lider isə mövcud dövlət strukturunun möhkəmliyinə əmin olduqları üçün Konventdə iştirak etməmək qərarına gəlmişdilər. İştirak edənlər arasında isə, heç şübhəsiz, ən məşhur adam

nin sayına görə müəyyən ediləcəkdi. Nümayəndələr Palatası çoxluğun fikrini daha həssas şəkildə əks etdirmək üçün nəzərdə tutulduğundan, federal büdcə və gəlirlərlə bağlı qanunları yaratmaq səlahiyyəti ona verildi.

Böyük kompromis iri və kiçik ştatlar arasındakı ixtilaflara son qoysa da, Konvent nümayəndələri bir çox digər məsələlər barədə də kompromisə gələ bilmək üçün uzun yay günləri boyu xeyli gərgin çalışmalı oldular. Bəzi nümayəndələr xalqa həddən artıq səlahiyyət verilməsindən

Amerika ordularının komandanı və inqilab qəhrəmanı Corc Vaşinqton idi və o, Konventə axıracan sədrlik etdi. Böyük zəkaya malik, həm təbiət, həm də humanitar sahədə tanınmış qoca alim Bencamin Franklin də buradaydı. Virciniyalı Ceyms Medison, pensilvaniyalı Qouverner Morris, nyuyorklu gənc və bacarıqlı hüquqşünas Aleksandr Hamilton kimi bir çox tanınmış şəxsiyyətlər də bu Konventdə iştirak edirdi.

Hətta hələ iyirmi və otuz yaşlarında olan gənc nümayəndələr də bu Konventdə heyrətamiz siyasi və intellektual qabiliyyətlər nümayiş etdirirdilər. Tomas Ceffersonun Parisdən Londona Con Adamsa yazdığı kimi, «bu, həqiqətən də yarımallahlar yığıncağı» olmuşdur.

Konstitusiyada öz təcəssümünü tapan bəzi ideyalar yeni olsa da, onların çoxu Britaniyanın idarəçilik ənənəsindən və 13 ştatın praktik özünüidarə təcrübəsindən əxz edilmişdir. İstiqlal Bəyannaməsi vacib bir mayak kimi nümayəndələrin düşüncələrini özünüidarə ideyalarına və fundamental insan hüquqlarının təsbit edilməsinə yönləndirmişdi. Monteskyö və Con Lokk kimi avropalı siyasi filosofların əsərlərinin də onlara kifayət qədər təsiri olmuşdur.

İyulun sonunda Konvent əldə edilən razılaşmalar əsasında müəyyən bir sənəd hazırlayacaq komitə təyin etdi. Daha bir ay sürən müzakirələrdən və dəqiqləşdirmələrdən sonra Qouverner Morris tərəfindən başçılıq edilən ikinci komitə Konstitusiyanın son versiyasını hazırladı və o, sentyabrın 17-də imzalanmaq üçün nümayəndələrə təqdim olundu. Nümayəndələrin heç də hamısı nəticələrdən razı deyildi; bəziləri imzalama mərasimindən əvvəl Konventi tərk etdi, qalanlardan isə üç nəfər onu imzalamaqdan boyun qaçırdı – virciniyalı Edmund Randolf və Corc Meyson, massaçusetsli Elbric Gerri. Sənədi imzalayan 39 nəfərdən isə, demək olar ki, heç biri onun bütün müddəalarından eyni dərəcədə razı qalmamışdı. Bencamin Franklin onların görüşlərini daha dəqiq yekunlaşdırmışdı: «Bu Konstitusiyanın elə müddəaları var ki, mən indi onları bəyənmirəm, ancaq onları gələcəkdə də heç vaxt bəyənməyəcəyimə tam əmin deyiləm». Buna baxmayaraq, o bu Konstitusiyanı qəbul edir, «çünki bundan yaxşısını gözləmirdi, çünki bunun ən yaxşısı olmadığına əmin deyildi».

RATİFİKASİYA: YENİ BAŞLANĞIC

Ağır, çətin ratifikasiya prosesi üçün artıq yol açılmışdı, yəni Konstitusiyanın qüvvəyə minməsi üçün onu, ən azı, doqquz ştat qəbul etməliydi. Bu aktı ilk olaraq Delavar ştatı həyata keçirdi, onun ardınca dərhal Nyu Cersi və Corciya ştatları bu addımı atdı. Pensilvaniya və Konnektikut ştatlarında da cüzi fərqlə də olsa, çoxluq Konstitusiyanın təsdiq edilməsinə səs verdi. Ən gərgin müzakirələr Massaçusetsdə keçdi. Bu ştat son nəticədə dini, söz, mətbuat və yığıncaq (bir yerə toplaşmaq) azadlığı, məhkəmədə mühakimə olunmaq hüququ, mənasız axtarışların və həbslərin qadağan olunması da daxil olmaqla, fundamental insan hüquqlarına zəmanət verən 10 əlavənin Konstitusiyaya daxil edilməsi şərtilə onu təsdiq etdi. Bir sıra digər ştatlar da buna bənzər şərtlər irəli sürdülər və Hüquqlar haqqında Bill kimi tanınan əlavələr 1791-ci ildə Konstitusiyaya daxil edildi.

1788-ci il iyulun sonlarına yaxın Merilend, Cənubi Karolina və Nyu Hempşir

davamı səhifə 17

VAŞİNQTON VƏ KONSTİTUSİYA KONVENTİ



Corc Vaşinqton Kontinental ordunun baş komandanı kimi.

Konstitusiya Konventinin işə başlaması üçün kvorumu təmin edəcək sayda nümayəndə Filadelfiyaya toplaşdıqdan sonra Corc Vaşinqton yekdilliklə onun sədri seçildi. C. Vaşinqton bu sahədə səriştəsi olmadığını bildirərək bu şərəfli vəzifəni könülsüz qəbul etdi. Onun açılış çıxışı Konvent iştirakçılarının qürur və idealizminə ünvanlanmışdı: «Gəlin biz əqlin və vicdanın yüksələ biləcəyi səviyyəyə qalxaq».

Konventin sədri kimi Vaşinqton möhkəm, nəzakətli, eyni zamanda tərəfsiz, onun son gününədək müzakirələrə qatılmayan və öz münasibətini sezdirməyən bir adam idi. Bütün müzakirələr boyu o, həm fiziki, həm də mənəvi cəhətdən o qədər güclü təsir bağışlayan bir adam kimi qalmışdı ki, nümayəndələrdən biri demişdi: «Vaşinqton yeganə adamdır ki, onun yanında heç bir qorxu hiss etmirəm».

Vaşinqtonun möhkəm ittifaq dövlətini müdafiə etməsi Amerika inqilabı dövründə Kontinental ordunun baş komandanı kimi qazandığı təcrübədən qidalanırdı. O, Nyu-Cersidən olan qoşunlarını Birləşmiş Ştatlara sədaqət andı içməyə inandırmağa çalışdığı anları yaxşı xatırlayırdı. O vaxt əsgərlər bu andı içməkdən imtina etmiş «Bizim ölkəmiz Nyu Cersidir!» demişdilər. Konventdəki fasilə zamanı Vaşinqton Pensilvaniya ştatına, Forc vadisi yaxınlığındakı inqilabi döyüş meydanına qayıtmışdı, ştatlar əsas məsələyə könülsüz yardım göstərdiyi üçün o və əsgərləri burada qışı çox pis vəziyyətdə keçirmişdilər.

Konvent başa çatdıqdan sonra ratifikasiya prosesi başlayarkən Vaşinqton sükutu pozdu və Konstitusiyanın xeyrinə gərgin iş apardı, doğma ştatı Virciniyadan olan bəzi oppenentlərə öz mövqelərini dəyişdirmək lazım gəldiyinə inanmalarında köməklik göstərdi. O, Hüquqlar haqqında Billin (sonralar bu, ilk 10 əlavəyə çevrildi) seçicilərin müzakirəsinə verilməsiylə bağlı tənqidlərin effektivliyini qəbul etdi. Eyni zamanda, «Federalist məqalələr»də Konstitusiyanı müdafiə etdiklərinə görə Ceyms Medison və Aleksandr Hamiltona öz təşəkkürünü bildirdi. O yazırdı ki, onlar «dövlətçilik elmi üzərinə yeni işıq saldılar, insan hüquqlarını tam və ədalətli şəkildə müzakirə etdilər və onları o qədər aydın və inandırıcı bir üslubda izah etdilər ki, heç kəs uzun müddət bu izahların təsiri altında qalmaya bilməz».

ştatları da öz razılıqlarını verdikdən sonra Konstitusiyanın doqquz ştat tərəfindən ratifikasiya edilməsi tələbi yerinə yetirildi və o, qüvvəyə minmiş hesab olundu. Ancaq Nyu York və Virciniya kimi iki ən güclü və ən əsas ştat hələ öz qərarını verməmişdi, ən kiçik ştatlar olan Şimali Karolina və Rod Aylend də bu qəbildən idi. Hamıya məlum idi ki, Nyu York və Virciniya ştatlarının razılığı olmadan Konstitusiyanın varlığı həmişə təhdid altında qalacaqdır.

Virciniyada səslər kəskin şəkildə bölünmüşdü, ancaq ratifikasiya tərəfdarı olan Corc Vaşinqtonun nüfuzu sayəsində 1788-ci il iyulun 26-da ştat qanunvericiləri az bir fərqlə Konstitusiyanı təsdiq etdilər. Nyu Yorkda Aleksandr Hamilton, Ceyms Medison və Con Cey «Federalist məqalələr»də Konstitusiya lehinə seriya yazılar dərc etdirməklə iyulun 26-da bu ştatda da onun cüzi səs çoxluğu ilə təsdiq edilməsinə nail oldular. Noyabrda Şimali Karolina Konstitusiyanı ratifikasiya etdi. Rod Aylend isə onu 1790-cı ildə – kiçik və zəif bir ştat kimi öz mövqeyinin daha böyük və daha qüdrətli bir respublika qarşısında xeyli zəif olduğunu dərk edəndən sonra təsdiq etməyə məcbur oldu.

Dövlətin təşkili prosesinə Virciniya və Nyu York ştatları Konstitusiyanı ratifikasiya etdikdən dərhal sonra başlanıldı. 1788-ci il sentyabrın 13-də Konqres Nyu Yorku yeni hökumətin yerləşəcəyi məkan elan etdi (Paytaxt 1790-cı ildə Filadelfiyaya, 1800-cü ildə Vaşinqton şəhərinə köçürüldü). Yeni hökumət 1789-cu il yanvar ayının ilk çərşənbə gününü prezident seçicilərinin seçilməsi, fevral ayının ilk çərşənbə gününü prezidenti seçmək üçün seçicilərin toplaşması günü, mart ayının ilk çərşənbə gününü isə yeni Konqresin sessiyasının açılış günü kimi müəyyənləşdirdi.

Konstitusiyaya görə, hər bir ştat Nümayəndələr Palatasına və Senata prezident seçicilərini necə seçəcəyini özü müəyyənləşdirmək səlahiyyətinə malik idi. Bəzi ştatlar bu şəxslərin birbaşa əhali tərəfindən seçilməsinə, bəziləri onların qanunvericilər tərəfindən müəyyən edilməsinə, digərləri isə bu iki üsulun kombinasiyasına üstünlük verirdi. Seçkilərdə rəqabət xeyli güclü idi; bu səbəbdən yeni Konstitusiya çərçivəsində ilk dəfə keçirilən seçkilərin təşkilində gecikmələr qaçılmaz oldu. Məsələn, Nyu Cersi birbaşa seçkilər formasını seçməsinə baxmayaraq, səsvermə müddətini dəqiq müəyyənləşdirmədiyinə görə seçki məntəqələri üç həftə açıq qalmışdı.

Konstitusiya tələbinin tam və qəti şəkildə həyata keçirilməsi 1789-cu il martın 4-nə planlaşdırılmışdı. Ancaq həmin vaxtadək 59 nümayəndədən yalnız 13-ü, 22 senatordan isə yalnız 8-i Nyu York şəhərinə gəlib çıxa bilmişdi (Şimali Karolina və Rod Aylendə ayrılan yerlər həmin ştatlar Konstitusiyanı ratifikasiya edənə qədər boş qalmışdı). Nəhayət, aprelin 1-də Nümayəndələr Palatasında, 6-da isə Senatda kvorum təmin edildi. Hər iki palata bir yerə toplaşaraq seçicilərin səslərini saymağa başladılar.

Hamının gözlədiyi kimi, Corc Vaşinqton yekdilliklə ölkənin ilk prezidenti, massaçusetsli Con Adams isə vitse-prezident seçildi. Adams aprelin 21-də, Vaşinqton isə aprelin 23-də Nyu Yorka gəldi. Onlar

1789-cu il aprelin 30-da prezident və vitse-prezident kimi and içdilər. Yeni dövlətin təşkil olunması işi başa çatdı və dünyanın ilk respublikası öz fəaliyyətinə başladı.

KONSTİTUSİYA ƏN ALİ QANUN KİMİ

ABŞ Konstitusiyası özünü «ölkənin ən ali qanunu» adlandırır. Məhkəmələr həmin müddəanı bu mənada şərh edirlər ki, ştat konstitusiyaları və ya ştat qanunvericiləri, yaxud ölkə Konqresi tərəfindən qəbul edilən qanunlar federal Konstitusiya müddəaları ilə ziddiyyət təşkil etdikləri halda heç bir qüvvəyə malik olmurlar. Ali Məhkəmənin iki əsrlik fəaliyyəti dövründə çıxardığı qərarlar Konstitusiyanın aliliyilə bağlı bu doktrinanı daha da dəqiqləşdirmiş və möhkəmləndirmişdir.

Mütləq səlahiyyət Amerika xalqına məxsusdur, yalnız o, istədiyi təqdirdə Konstitusiyanı yaxşılaşdırmaq və yaxud yenisini tərtib etmək məqsədilə – bu isə, ən azı, nəzəri cəhətdən mümkündür – ölkənin əsas qanununu dəyişdirə bilər. Ancaq xalq öz səlahiyyətini birbaşa həyata keçirmir. O, gündəlik idarəçilik işlərini həm seçilən, həm də təyin edilən dövlət məmurlarına həvalə edir.

Dövlət məmurlarının səlahiyyətləri isə Konstitusiya çərçivəsində məhdudlaşdırılmışdır. Onların ictimai fəaliyyətləri Konstitusiyaya və ona müvafiq şəkildə yaradılan qanunlara uyğun olmalıdır. Seçkili dövlət rəsmiləri bir vəzifəyə müəyyən müddətdən sonra təkrar seçilə bilməlidirlər; bu zaman onların fəaliyyəti ictimaiyyətin ciddi nəzarət obyektinə çevrilir. Təyin olunan məmurlar onları təyin edən şəxsin və ya səlahiyyətli orqanın istədiyi vaxta qədər vəzifələrini icra edir və istənilən vaxt azad edilə bilərlər. Bu praktikada yalnız Ali Məhkəmənin prezident tərəfindən ömürlük təyin edilən hakimləri və digər federal hakimlər istisna təşkil edir, çünki onlar hər cür siyasi öhdəliklərdən və təsirdən azad olmalıdırlar.

Amerika xalqı öz iradəsini adətən seçki qutuları vasitəsilə ifadə edir. Ancaq Konstitusiyada öz vəzifəsini son dərəcə yarıtmaz yerinə yetirdiyi və yaxud vəzifə cinayətkarlığına yol verdiyi hallarda dövlət rəsmisinin impiçment proseduru vasitəsilə vəzifədən uzaqlaşdırılmasını nəzərdə tutan müddəa da mövcuddur. I maddənin 4-cü bölməsində deyilir: «Birləşmiş Ştatların prezidenti, vitse-prezidenti və digər bütün mülki məmurları impiçment qaydasında mühakimə edilərkən vətənə xəyanətdə, rüşvətxorluqda və yaxud digər ağır cinayət və əməllərdə təqsirkar bilindikləri təqdirdə öz vəzifələrindən kənarlaşdırılmalıdırlar».

İmpiçment qanunverici orqan tərəfindən dövlət rəsmisinə qarşı irəli sürülən vəzifə cinayəti ittihamıdır: ancaq həmin orqan, adətən düşünüldüyü kimi, bu cür ittihamları hökmə bağlaya bilmir. Konstitusiyada müəyyən edildiyi kimi, Nümayəndələr Palatası vəzifə cinayəti ilə bağlı ittihamları impiçment qaydasında səsvermə yolu ilə irəli sürməlidir. Təqsirkar bilinən rəsmi şəxs sonra Senatda mühakimə edilir; bu zaman həmin araşdırmalara Ali Məhkəmənin sədri başçılıq edir.

İmpiçment çox ağır və qəti tədbir hesab olunur, Birləşmiş Ştatların tarixində ondan yalnız çox nadir hallarda istifadə olunmuşdur. 1797-ci ildən bu yana Nümayəndələr Palatası impiçment maddələrinə əsasən 16 federal səviyyəli rəsmi şəxsə – iki prezidentə, bir kabinet üzvünə, bir senatora, bir Ali Məhkəmə üzvünə və 11 federal hakimə qarşı impiçment qaydasında səsvermə keçirmişdir. İmpiçmentə məruz qalan bu rəsmilər arasında hamısı hakimlər olmaqla, yalnız yeddi nəfər Senat tərəfindən təqsirkar bilinmişdir.

1868-ci ildə prezident Endrü Conson Vətəndaş müharibəsindən sonra məğlub olmuş konfederat ştatlarla onların xeyrinə olan şərtlərlə müqavilə bağlaması iddiası ilə impiçmentə məruz qalmışdır. Ancaq Senat onun təqsirkar hesab edilməsi üçün lazım olan üçdə iki səs çoxluğunu bir səs fərqlə toplaya bilmədiyindən Conson öz prezidentlik müddətini tam şəkildə başa çatdırmışdır. 1974-cü ildə prezident Riçard Nikson Uotergeyt məsələsi ilə əlaqədar Nümayəndələr Palatasının Məhkəmə İşləri Komitəsi ona qarşı impiçment keçirilməsini tövsiyə etdikdən sonra, amma həmin palata impiçment qaydasına əsasən tam şəkildə səsvermə keçirməzdən əvvəl öz vəzifəsindən istefa vermişdir. Lap bu yaxınlarda, 1998-ci ildə prezident Bill Klinton andı pozmaq (yanlış ifadə vermək) və ədaləti əngəlləmək ittihamları əsasında Nümayəndələr Palatası tərəfindən impiçmentə məruz qaldı. Dinləmələrdən sonra Senat hər iki iddia üzrə prezidentə bəraət verdi: senatorlar 45 səsə qarşı 55 səslə prezidentin andı pozma iddiası üzrə günahsız olduğuna səs verdilər; ədaləti əngəlləmə iddiası üzrə isə səslər 50–50-yə olmaqla tam yarı bölündü. Prezidentin vəzifədən uzaqlaşdırılması üçün senatorların üçdə ikisinin – 67 senatorun hər iki iddia üzrə onun günahkar olduğuna səs verməsi tələb edilirdi.

Dövlətin prinsipləri

Qəbul olunduğu vaxtdan bəri Konstitusiyaya bir sıra əlavələr və dəyişikliklər edilsə də, onun əsas prinsipləri bu gün də 1789-cu ildə olduğu kimi qalır:

■ Dövlətin üç əsas qanadı – icraedici, qanunverici və məhkəmə qanadı bir-birindən asılı olmadan fəaliyyət göstərir və bir-birindən fərqlənir. Onların hər birinə verilən səlahiyyətlər digər ikisinin səlahiyyətləri ilə incə bir tərzdə tarazlaşdırılır. Hər bir qanad digər iki qanadın öz həddini aşma potensialına nəzarət vasitəsi kimi çıxış edir.

■ Konstitusiya onun müddəalarına uyğun olaraq qəbul edilən qanunlar, prezident tərəfindən qüvvəyə mindirilən və Senat tərəfindən təsdiq edilən beynəlxalq müqavilələrlə birlikdə bütün qanunlardan, icra və tənzimləmə aktlarından yüksəkdə dayanır.

■ Bütün şəxslər qanun qarşısında bərabərdir və onun müdafiəsindən bərabər şəkildə faydalanmaq hüququna malikdirlər. Bütün ştatlar bərabərhüquqludur və federal hökumət heç bir ştata xüsusi münasibət bəsləyə bilməz. Konstitusiyanın təsbit etdiyi limitlər daxilində hər bir ştat digər ştatların qanunlarını tanımalı və onlara hörmət etməlidir. Ştat hökumətləri federal hökumət kimi formaca demokratik olmalı, mütləq səlahiyyəti xalqın ixtiyarında saxlamalıdır.

■ Xalqın öz milli dövlət formasını Konstitusiyanın özündə müəyyən edilən qanuni vasitələrlə dəyişdirmək hüququ vardır.

Əlavələr üçün müddəalar

Konstitusiya müəllifləri yaxşı anlayırdılar ki, uzun müddət yaşaması və ölkənin yüksəlişi ilə ayaqlaşa bilməsi üçün ona zaman-zaman müəyyən dəyişikliklər edilməsi lazım gələcək. Onlar bunu da dərk edirdilər ki, dəyişiklik prosesi pis ifadə olunmuş və tələm-tələsik əlavələrin qəbul edilməsinə imkan verəcək qədər asan olmamalıdır. Elə bu səbəbdən də onlar xalqın çoxu tərəfindən arzu edilən hərəkətləri azlığın əngəlləməyəcəyinə bəri başdan əmin olmaq istəyirdilər. Nəhayət, onlar Konstitusiyaya əlavələr və dəyişikliklər edilə bilməsi üçün ikili prosedur fikirləşib tapdılar.

Konqres hər iki palatada üçdə iki səs çoxluğu ilə Konstitusiyaya dəyişiklik və ya əlavələr edilməsi barədə təklif irəli sürə bilər. Alternativ olaraq ştatların üçdə ikisinin qanunverici orqanları Konqresdən əlavə və dəyişiklikləri müzakirə və tərtib etmək üçün milli qurultay çağırmasını xahiş edə bilər. Hər iki halda əlavə və dəyişikliklərin qüvvəyə minməsi üçün ştatların üçdə ikisi tərəfindən onların təsdiq edilməsi tələb olunur.

Konstitusiyaya bilavasitə dəyişikliklər edilməsi prosesindən fərqli olaraq, onun müddəalarının məna tutumu hüquqi şərh vasitəsilə dəyişdirilə bilər. Respublika tarixinin ilk çağlarında, 1803-cü ildə «Merburi Medisona qarşı» məhkəmə işində Ali Məhkəmə hüquqi şərh doktrinası müəyyən etdi; həmin doktrinaya görə, Ali Məhkəmənin, Konqresin aktlarını interpretasiya etmək və onların Konstitusiyaya uyğun olub-olmaması barədə qərar çıxarmaq səlahiyyəti vardır. Doktrina, həmçinin, Ali Məhkəməyə Konstitusiyanın müxtəlif bölmələri daim dəyişməkdə olan qanuni, siyasi, iqtisadi və sosial şəraitlərə tətbiq edilərkən onların mənasını şərh etmək səlahiyyəti vermişdir. Bu illər uzunu radio və televiziyanın dövlət tənzimlənməsindən tutmuş cinayət əməllərində günahlandırılanların hüquqlarına qədər bir çox məsələylə bağlı Ali Məhkəmənin çıxardığı qərarlar Konstitusiyaya heç bir dəyişiklik etmədən onun müddəalarının məzmununu xeyli müasirləşdirmişdir.

Əsas qanunun müddəalarının tətbiqini həyata keçirən və yaxud onu dəyişən şərtlərə uyğunlaşdıran Konqres qanunvericiləri də Konstitusiya müddəalarının mənasını çox incə, hiss edilməyəcək tərzdə genişləndirir və yaxud dəyişdirirlər. Bundan əlavə, bir çox federal dövlət agentliklərinin çıxardığı qanunlar və tənzimləmə aktları da eyni effektə malikdir. Məhkəmələrin fikrincə, bu cür qanunvericilik aktları və qanunlar Konstitusiyanın məzmunu ilə uyğunluq təşkil edir.

Hüquqlar haqqında Bill

1789-cu ildən bu yana Konstitusiyaya 27 dəyişiklik edilib və çox güman ki, gələcəkdə də ona əlavələr ediləcəkdir. Ən ciddi dəyişikliklər onun qəbulundan sonrakı iki il ərzində baş verib. Həmin dövrdə, hamısı bir yerdə Hüquqlar haqqında Bill kimi tanınan 10 ilk əlavə Konstitusiyaya daxil edilib. Konqres bu əlavələri 1789-cu ilin sentyabrında blok halında bəyəndikdən sonra, 1791-ci ilin sonunadək 11 ştat onları ratifikasiya edib.

Konstitusiyaya qarşı müqavimət təşəbbüsləri federal birliyin möhkəmlənməsinə qarşı çıxanlardan deyil, fərdlərin hüquqlarının onda xüsusi şəkildə ifadə olunmasını hiss edən dövlət xadimlərindən gəlmişdir. Onlardan biri – Virciniyanın Hüquqlar haqqında Bəyannaməsinin müəllifi Corc Meyson Hüquqlar haqqında Billin ilk təşəbbüsçüsü olmuşdur. Konstitusiya Konventinin nümayəndəsi kimi o, yekun sənədinin fərdi hüquqları kifayət qədər qorumadığını hiss edərək onu imzalamaqdan imtina etmişdir. Meysonun bu etirazı əslində Virciniyanın Konstitusiyanı ratifikasiya etməsini, demək olar ki, əngəlləmişdir. Massaçusetslilər də eyni hissləri keçirdikləri üçün bu ştat da Konstitusiyanı fərdi hüquqlara xüsusi təminat verən əlavələrin ona daxil edilməsi şərti ilə ratifikasiya etmişdi. Konqres ilk sessiyasına toplaşanadək bu əlavələrin qəbul edilməsiylə bağlı əhval-ruhiyyə, demək olar ki, yekdil xarakter aldığından, o, həmin əlavələrin hazırlanıb qəbul edilməsinə çox az vaxt sərf etdi.

Bu əlavələr iki əsr bundan əvvəl necə yazılıbsa, indi də o cür toxunulmamış qalır. Birinci Əlavə dini etiqad, söz və mətbuat azadlığına, dinc məqsədlə bir yerə toplaşmaq hüququna və səhvlərini düzəltməsi üçün hökumətə kollektiv şəkildə müraciət hüququna zəmanət verir. İkinci Əlavə vətəndaşların silah gəzdirməsi hüququnu təsbit edir. Üçüncü Əlavəyə görə, sahibinin razılığı olmadan ordu birlikləri xüsusi evlərdə yerləşdirilə bilməz. Dördüncüsü əsassız axtarışlar aparılmasına, insanların həbs edilməsinə və onların əmlaklarının müsadirə olunmasına qarşı çıxır.

Növbəti dörd əlavə ədalət sistemi ilə əlaqədardır. Beşinci Əlavə məhkəmənin qərarı olmadan ağır cinayətə görə cinayət məsuliyyətinə cəlb olunmanı qadağan edir. O, həmçinin, eyni cinayət əməlinə görə təkrar mühakimə olunmanın əleyhinə çıxır. Qanuni yolla mühakimə olunmadan cəzalandırmanı qadağan edir və ittiham edilən şəxsin öz əleyhinə ifadə verməyə məcbur edilməməsinə təminat verir. Altıncı Əlavə cinayət əməllərinə görə təcili və açıq şəkildə mühakimə olunma hüququna zəmanət verir. O, qərəzsiz məhkəmə tərəfindən mühakimə olunmanı tələb edir, müttəhimin hüquqi məsləhət alması hüququna zəmanət verir və şahidlərin hökmən məhkəməyə gətirilməsini və müttəhimin önündə ifadə verməsini təmin edir. Yeddinci Əlavə dəyəri 20 ABŞ dollarından çox olan hər hansı bir şeylə bağlı mülki işlərdə məhkəmə tərəfindən araşdırılma aparılmasını tələb edir. Səkkizinci Əlavə hədsiz dərəcədə böyük həcmdə girov məbləği müəyyən edilməsini və həddən artıq ağır və yaxud qeyri-adi cəzalar verilməsini qadağan edir.

Son iki əlavə Konstitusiya səlahiyyətlərinə dair daha geniş bəyanatlarla bağlıdır. Doqquzuncu Əlavə bəyan edir ki, fərdi hüquqlar burada sadalananlarla məhdudlaşdırılmış hesab edilməməlidir; insanların Konstitusiyada xüsusi qaydada təsbit olunmamış digər hüquqları da var. Onuncu Əlavəyə görə, Konstitusiya ilə federal dövlətə həvalə edilməyən və yaxud ştatlara verilməsi qadağan olunmayan səlahiyyətlər ştatların və yaxud xalqın ixtiyarında qalır.

Fərdi azadlıqlar üçün həyati müdafiə

Federal dövlətin təşkil olunmasında Konstitusiyanın dahiyanə müddəaları Birləşmiş Ştatlara iki əsr ərzində qeyri-adi stabillik bəxş etmişdir. Hüquqlar haqqında

Bill və onun ardınca gələn digər əlavələr fundamental insan hüquqlarını Birləşmiş Ştatların hüquqi sisteminin onurğa sütununa çevirmişdir.

Milli böhran anlarında adətən dövlətlər ölkənin təhlükəsizliyi naminə bu hüquqların fəaliyyətini, müvəqqəti də olsa, dayandırmağa həvəs göstərirlər. Ancaq Birləşmiş Ştatlarda bu cür addımlar həmişə çox ehtiyatla və çox ciddi qoruyucu tədbirlərin nəzarəti altında atılmışdır. Məsələn, müharibə dövründə hərbi dövlət orqanları Birləşmiş Ştatlarla xarici ölkələr arasında məktublaşmalara, xüsusən də cəbhədən evə göndərilən məktublara senzura qoymuşdu. Ancaq hətta müharibə dövründə belə konstitusion ədalətli mühakimə hüququ ləğv edilməmişdi. Cinayətdə ittiham olunan şəxslərə – buraya casusluqda, təxribatçılıqda və digər təhdidedici fəaliyyətlərdə günahlandırılan düşmən ölkələrin vətəndaşları da daxil idi – Amerika sistemi daxilində özlərini müdafiə etmək və günahları sübut edilməyənədək günahsız sayılmaq hüququ verilmişdi.

Hüquqlar haqqında Billin ardınca Konstitusiyaya olunan əlavələr geniş predmetlər sırasını əhatə edir. Onlardan biri, 1868-ci ildə ratifikasiya edilən On dördüncü Əlavə nəticə etibarı ilə daha uzaqgörən olmuşdur; həmin əlavə vətəndaşlığın aydın və dəqiq tərifini verir və qanun qarşısında hamıya bərabər münasibət təmin edir. Mahiyyət etibarı ilə On dördüncü Əlavə ştatlardan Hüquqlar haqqında Billin müddəalarının nəzərdə tutduğu müdafiə növlərinə riayət olunmasını tələb edir. Digər əlavələr federal dövlətin məhkəmə səlahiyyətlərini məhdudlaşdırır, prezidentin seçilməsi üsulunu dəyişdirir, köləliyi qadağan edir, irqindən, rəngindən, cinsindən və yaxud əvvəlki kölə vəziyyətindən asılı olmadan bütün vətəndaşların səsvermə hüququnu müdafiə edir, fərdi gəlirlərə vergi qoyulmasında Konqresin səlahiyyətlərini genişləndirir və ABŞ senatorlarının xalq tərəfindən səsvermə yolu ilə seçilməsini təsis edir.

Ən yaxın dövrlərdə daxil edilən əlavələrdən biri olan İyirmi ikinci Əlavə ölkə prezidentinin bu vəzifədə qalmasını iki müddətlə məhdudlaşdırır; İyirmi üçüncü Əlavə Kolumbiya Dairəsi (District of Columbia) sakinlərinə səsvermə hüququ verir; İyirmi dördüncü Əlavə adambaşına tutulan vergini ödəyə bilməmələrindən asılı olmayaraq, vətəndaşların səsvermə hüququnu təmin edir; İyirmi beşinci Əlavə vitse-prezident öz vəzifəsini vaxtından əvvəl tərk etdiyi hallarda onun yerinin tutulması qaydasını təmin edir; İyirmi altıncı Əlavə səsvermə yaşını 18-ə salır; İyirmi yeddinci Əlavə isə ABŞ senatorları və konqresmenlərinin kompensasiyası ilə bağlıdır.

Ən əhəmiyyətlisi budur ki, 27 əlavənin əksəriyyəti fərdi mülki və siyasi azadlıqların genişləndirilməsi səylərinin davam etdirilməsi arzusundan doğmuşdur. Onların yalnız bir neçəsi 1787-ci ildə Filadelfiyada tərtib edilmiş olan əsas dövlət strukturunun təkmilləşdirilməsi ilə bağlıdır.

FEDERAL SİSTEM

Konstitusiyanın müəllifləri öz şüurlarında bir neçə aydın məqsədə malik idilər. Bu məqsədlər çox səlis və aydın bir dillə əsas sənədin 52 sözdən və altı tərkibdən ibarət preambulasında öz ifadəsini tapmışdı.

«Daha mükəmməl ittifaq» yaradılması problemi 1787-ci ildə 13 ştatın üzləşdiyi ən başlıca məsələ idi. Hamıya aydın idi ki, istənilən ittifaq «Konfederasiya maddələri»nə əsasən mövcud olan ittifaqdan hökmən, ən azı, müəyyən qədər möhkəm olmalıdır. Ancaq onu əvəz edəcək başqa bir strukturun işlənib hazırlanması qəti seçimlər doğurdu.

«... daha mükəmməl ittifaq formalaşdırmaq»

Ştatların hamısı 11 il əvvəl İngiltərədən ayrıldıqdan sonra təcrübədən keçirdikləri öz suverenliklərinə qarşı çox həssas idi. Ştatların hüquqlarını mərkəzi dövlət ehtiyacları ilə tarazlaşdırmaq o qədər də asan iş deyildi. Konstitusiyanı işləyib hazırlayanlar öz vətəndaşlarının gündəlik həyatını tənzimləmək üçün lazım olan bütün səlahiyyətləri ştatların ixtiyarında saxlamaqla və həmin səlahiyyətlərin vahid bir qurum kimi ölkənin ehtiyacları və rifahı ilə ziddiyyətə girməməsini təmin etməklə bu işin öhdəsindən gəldilər. Səlahiyyətlərin federalizm termini ilə ifadə edilən bu cür bölgüsü bu gün də o dövrdə olduğu dərəcədə qüvvədədir. Hər bir ştatın təhsil, ictimai sağlamlıq, biznes işinin təşkili, iş şəraiti, evlənmə və boşanma, yerli vergilər və adi polis qüvvələri kimi yerli məsələlər üzərində tam səlahiyyətə malik olması bütöv şəkildə qəbul edilir və adətən birbirinə qonşu olan iki ştatda eyni məsələ ilə bağlı tamamilə fərqli qanunların meydana çıxması heç bir etiraz doğurmur.

Konstitusional razılaşmalar nə qədər açıq və səmimi olsa da, ştatların hüquqları ilə bağlı mübahisələr getdikcə ifrat şəkil almağa başladı və təxminən yetmiş ildən sonra, 1861-ci ildə şimal ştatları ilə cənub ştatları arasında dördillik müharibə baş verdi. Vətəndaş müharibəsi və yaxud Ştatlararası müharibə kimi tanınan bu müharibənin başlamasının başlıca səbəbi federal dövlətin ittifaqa yeni daxil olmuş ştatlarda köləliyi tənzimləməsi hüququ ilə bağlı idi. Şimallılar federal hökumətin belə bir hüquqa malik olduğunda israrlı idilər, cənublular isə köləliyin hər bir ştatın özü bildiyi kimi qərar verəcəyi bir məsələ olduğunu bildirirdilər. Cənub ştatlarının bir qrupu ittifaqın tərkibindən çıxmağa cəhd göstərərkən müharibə başladı və o, respublikanın qorunub saxlanılması prinsipi uğrunda mübarizəyə çevrildi. Cənub ştatlarının məğlubiyyəti və onların ittifaqın tərkibinə təkrar daxil olması ilə federal dövlətin üstünlüyü yenidən öz təsdiqini tapdı və köləlik ləğv edildi.

«... ədaləti bərqərar etmək»

Amerika demokratiyasının mahiyyəti İstiqlal Bəyannaməsində, onun gurultulu «Bütün insanlar bərabər yaradılmışdır» çağırışında və onun ardınca gələn «Yaradanları tərəfindən onlara müəyyən alınmaz hüquqlar bəxş edilmişdir ki, yaşamaq, azad olmaq və xoşbəxtliyə can atmaq hüququ da onların arasındadır» kimi sonrakı bəyanatlarında öz əksini tapmışdır.

Konstitusiya varına və statusuna görə fərdlərə heç bir fərq qoymur, qanunu pozarkən onlar bərabər qaydada mühakimə edilməli və cəzalandırılmalıdır. Əmlak, qanuni sövdələşmələr və biznes müqavilələri ilə bağlı mülki mübahisələr üçün də bu prinsip keçərlidir. Açıq şəkildə məhkəmələrə yol tapmaq hüququ Hüquqlar haqqında Billdə öz ifadəsini tapmış ən mühüm zəmanətlərdən biridir.

davamı səhifə 28

HÜQUQLAR HAQQINDA BİLL

I ƏLAVƏ – Konqres hər hansı bir dinin təşəkkül tapması ilə bağlı və yaxud hər hansı bir dinə sərbəst etiqad edilməsini qadağan edən, söz və ya mətbuat azadlığını və yaxud insanların dinc şəkildə bir yerə toplaşmaq və narazılıqların aradan qaldırılması üçün hökumətə kollektiv qaydada müraciət etmək hüququnu məhdudlaşdıran heç bir qanun qəbul etməməlidir.

II ƏLAVƏ – Azad dövlətin təhlükəsizliyi üçün yaxşı təşkil edilmiş milis qüvvələri zəruri olduğu üçün insanların silah saxlamaq və gəzdirmək hüququna məhdudiyyət qoyulmamalıdır.

III ƏLAVƏ – Heç bir əsgər dinc vaxtlarda ev sahibinin icazəsi olmadan heç bir şəxsi evdə yerləşdirilməməlidir; müharibə dövründə isə buna qanunla müəyyən edilmiş qaydada yol verilir.

IV ƏLAVƏ – Xalqın öz şəxsiyyətinin, evinin, sənədinin və əmlakının əsassız axtarışlardan, həbslərdən qorunması hüququ pozulmamalıdır, and və yaxud təntənəli vədlə təsdiq edilən kifayət qədər əsas olmadan axtarış və ya həbs üçün order verilməməlidir. Bu cür orderlər axtarış yerinin, habelə həbs edilməli şəxsin və yaxud əmlakın müfəssəl təsvirinə malik olmalıdır.

V ƏLAVƏ – Hərbi quru və ya dəniz qüvvələrində, yaxud müharibə və ya cəmiyyəti təhdid edən təhlükə dövründə həqiqi xidmətdə olan milis dəstələrində meydana çıxan hallar istisna edilməklə, heç bir şəxs məhkəmənin qərarı və yaxud hökmü olmadan cinayət əməlinə, yaxud digər biabırçı əmələ görə cinayət məsuliyyətinə cəlb olunmamalıdır; heç bir şəxs eyni cinayət əməlinə görə həyatı və ya fiziki toxunulmazlığı bahasına iki dəfə cəzalandırılmamalıdır; heç bir şəxs istənilən cinayət işində özünə qarşı ifadə verməyə məcbur edilməməlidir; heç bir şəxs qanunla müəyyən edilmiş qaydadan kənar öz həyatından, azadlığından və yaxud əmlakından məhrum edilməməlidir; heç bir şəxsi əmlak əvəzi ədalətli qaydada ödənilmədən ictimai istifadə üçün götürülməməlidir.

VI ƏLAVƏ – Bütün cinayət təqibi hallarında ittiham olunan şəxsin cinayətin baş verdiyi ştatın və dairənin – özü də bu dairə əvvəlcədən qanunla müəyyən edilməlidir – qərəzsiz və ədalətli məhkəməsi tərəfindən tezliklə və açıq şəkildə mühakimə olunmaq hüququ vardır və o, ittihamın xarakteri və motivləri barədə məlumatlandırılmasını, əleyhinə ifadə verən şahidlərlə şəxsən üzləşdirilməsini tələb etmək hüququna malikdir; müttəhim öz şahidlərinin məcburi qaydada məhkəməyə gətirilməsini tələb edə və öz müdafiəsi üçün vəkil yardımından istifadə edə bilər.

VII ƏLAVƏ – Ümumi hüquqa əsaslanan və iddia dəyəri iyirmi dollardan artıq olan i şlərin məhkəmə tərəfindən araşdırılması hüququ saxlanılır və məhkəmə tərəfindən təsdiq edilən fakt ümumi hüququn qaydalarına uyğun olmadan Birləşmiş Ştatların heç bir məhkəməsində təkrar nəzərdən keçirilə bilməz.

VIII ƏLAVƏ – Həddən artıq dərəcədə böyük məbləğdə girov haqqı tələb olunmamalı, həddən artıq cərimələr tutulmamalı, həddən artıq ağır və qeyri-adi cəzalar kəsilməməlidir.

IX ƏLAVƏ – Konstitusiyada sadalanan müəyyən hüquqlar xalqın özündə saxladığı digər hüquqların inkar edilməsi və ya onların əhəmiyyətinin azaldılması kimi şərh edilməməlidir.

X ƏLAVƏ – Konstitusiya ilə Birləşmiş Ştatlara həvalə edilməyən və ştatlar üçün qadağan edilməyən səlahiyyətlər ştatların və yaxud xalqın ixtiyarında qalır.

Vaşinqton şəhərindəki Milli Arxiv İdarəsində Vətəndaş müharibəsi iştirakçılarını canlandıran əsgərlər prezident Avraam Linkolnun 1863-cü ildə imzaladığı, köləliyi ləğv edən İstiqlal Bəyannaməsinin keşiyini çəkirlər.

KÖLƏLİKLƏ BAĞLI MÜBAHİSƏLƏR

ABŞ Konstitusiyasında «kölәlik» sözünə rast gəlinmir, ancaq bu sənəd dolayısı ilə həmin institut barədə sanksiya vermişdir. Konstitusiya Konventinin nümayəndələri hər bir ştatın Nümayəndələr Palatasına seçəcəyi konqresmenlərin sayının müəyyənləşdirilməsində kölələrin beşdə üçünün hesaba alınmasını təmin etmişdilər. Sonra Konstitusiya ştat hüdudlarını keçən qaçaq kölələrin (qulluqçu və işçi kimi saxlanılan fərdlərin) öz sahiblərinə qaytarılmasını tələb etmişdir. Və onun müəyyən etdiyi konkret tarixdən – 1808-ci ildən sonra Konqresə kölə ticarətinə («indi mövcud olan ştatların hər hansı birinin belə insanların miqrasiyasını və daşınmasını lazımlı hesab etdiyi təqdirdə») son qoymağı qadağan etmirdi.

Bu müddəaların hər biri Konventdə qızğın mübahisələr doğurmuşdu və hər biri sonda kompromis xatirinə qəbul edilmişdi. Hətta köləliyə qarşı çıxan şimal cəmiyyətlərinin Aleksandr Hamilton kimi üzvləri belə kölәlik məsələsinin qaldırılmasının əleyhinə idilər və hesab edirdilər ki, belə bir cəhd ştatların qəti şəkildə bölünməsinə səbəb olacaq və ümummilli dövlətin möhkəmləndirilməsi kimi təxirəsalınmaz məqsədin həyata keçirilməsinə ciddi təhlükə törədəcəkdir. Corc Vaşinqton və Ceyms Medison kimi köləliyə nifrət edən məşhur cənublular da kompromisdə israrlı idilər, amma ittifaq möhkəmləndikdən sonra onun aradan qalxacağına inanırdılar.

Buna baxmayaraq, bu mənəvi məsələ Konventdə bir neçə dəfə ehtiraslı şəkildə ortaya atılmışdı. Pensilvaniyalı Qouverner Morris köləliyi «murdar bir institut, onun üstünlük təşkil etdiyi ştatlara göylərin lənəti» kimi ifşa etmişdi. O, azad regionların gur inkişafını və insani ləyaqətliyini köləliyə rəvac verilən ştatların «məşəqqət və yoxsulluğuna» qarşı qoymuşdu.

İronik də olsa, Konventdə kölәlik üzərinə ən kəskin və cəsarətli hücum Ceffersonun «öz nəslinin ən ağıllı adamı» adlandırdığı virciniyalı Ceyms Medisona məxsusdur. «Kölәlik, – Medison demişdir, – insanların davranışına dəhşətli pis təsir göstərir. Hər bir kölə sahibi anadan miskin bir tiran kimi doğulur... Kölәlik peşə və manufakturaların inkişafına zərər vurur. Kasıblar bu işlərin kölələr tərəfindən yerinə yetirildiyini görəndə onlara nifrət edirlər... Mən bunu vacib hesab edirəm ki... ümumi dövlət köləliyin artmasının qarşısını almaq səlahiyyətinə malik olmalıdır».

Sonrakı illərdə ləğv tərəfdarları hərəkatı eyni arqumentlərdən istifadə edəcək və eyni mənəvi ikrah duyğusunu daşıyacaqdılar; ancaq Konventin keçirildiyi dövrdə həm sözlü, həm də mənəvi təhdid doğuracağından çəkinilərək, kölәlik məsələsinin müzakirəsindən vaz keçildi. Bu məsələ son nəticədə Vətəndaş müharibəsi (1861–1865) kimi faciəvi yanğına aparıb çıxaracaq, yalnız bundan sonra Birləşmiş Ştatlarda insan köləliyinə son qoyulacaq, ölkə çətin və mürəkkəb irqi bərabərlik yolu ilə irəliləməyə başlayacaqdı.

«...daxili dincliyi təmin etmək»

Birləşmiş Ştatların qasırğalı doğuşu və Amerikanın qərb sərhədlərindəki qarmaqarışıq vəziyyət amerikalılara yeni dövlətin böyüməsi və çiçəklənməsi üçün daxili stabilliyin nə qədər vacib olduğunu yaxşı dərk etdirmişdi. Konstitusiyanın yaratdığı federal dövlət ştatları xarici müdaxilələrdən, daxili münaqişələrdən və çaxnaşmalardan qorumaq üçün kifayət qədər möhkəm olmalı idi. Birləşmiş Ştatların kontinental ərazisinin heç bir hissəsi 1815-ci ildən bəri heç bir xarici dövlətin işğalına məruz qalmamışdır. Ştat hökumətləri öz hüdudları daxilində asayişi qoruyub saxlamaq üçün ümumən kifayət qədər güclü olmuşlar. Ancaq Konstitusiya tərəfindən sülhü qoruyub saxlamaq üçün zəruri addımlar atmaq səlahiyyəti verilən federal dövlətin əzəmətli qüdrəti həmişə onların arxasında olmuşdur.

«...ümumi müdafiəni təmin etmək»

Hətta müstəqillik təmin olunduqdan sonra belə yeni dövlət 18-ci əsrin axırlarında bir çox tərəfdən real təhlükə ilə üzləşmişdi. Qərb sərhədlərində məskunlaşmış insanlar onlara düşmən münasibət bəsləyən hindu tayfaları tərəfindən daim təhdid altındaydı. Ondan şimalda britaniyalılar hələ də Kanadanı əllərində saxlayırdılar və onun şərq əyalətləri Vətəndaş müharibəsi dövründə Britaniya taxt-tacına loyal münasibət bəsləməkdə davam edən intiqamçı Amerika torilərıylə müəyyən əlaqələrə girmişdi. Fransa orta qərbdə geniş Luiziana ərazilərinə sahib idi. Cənubda İspaniya Floridanı, Texası və Meksikanı öz əlində saxlayırdı. Avropanın bu üç böyük dövlətinin hər biri Karib dənizində, Amerikanın sahillərinə zərbə endirə biləcək qədər yaxın məsafədə koloniyalara malik idi. Bundan əlavə, Avropa dövlətləri arasında silsilə müharibələr başlamışdı və onların qığılcımları Yeni Dünyaya da sıçramışdı.

İlk dövrlərdə Konstitusiyanın «ümumi müdafiə»nin təmin olunması prinsipinin həyata keçirilməsində əsas diqqət Appalaçi dağlarının o tayındakı ərazilərin dərhal mənimsənilməsinə və bu ərazidə yaşayan yerli Amerika tayfaları ilə sülh danışıqları aparılmasına yönəldilmişdi. Ancaq qısa bir müddətdən sonra, 1812-ci ildə İngiltərə ilə müharibəyə başlanılması, Floriadada İspaniya ilə kiçikmiqyaslı toqquşmalar və 1846-cı ildə Meksika ilə müharibə hərbi qüdrətin əhəmiyyətini artırdı.

Amerikanın iqtisadi və siyasi gücü artdıqca onun müdafiə qüdrəti də böyüyürdü. Konstitusiya müdafiə məsuliyyətini qanunverici və icraedici qanadlar arasında bölüşdürür. Yalnız Konqres müharibə elan etmək və müdafiə məqsədləri üçün fondlar ayırmaq səlahiyyətinə malikdir; bununla belə, ölkə prezidenti silahlı qüvvələrin baş komandanıdır və ölkənin müdafiəsi üçün başlıca məsuliyyəti o daşıyır.

«... ümumi rifahı gücləndirmək»

İnqilab başa çatanda Birləşmiş Ştatlar çox mürəkkəb iqtisadi vəziyyətdə idi. Onun resursları tükənmişdi, etibarı xeyli zədələnmişdi və kağız pulları bütün dəyərini itirmişdi. Ticarətin və sənayenin fəaliyyəti faktiki olaraq dayanmışdı və həm ştatlar, həm də konfederasiya hökuməti dərin borca düşmüşdü. İnsanlar aclıq təhlükəsi qarşısında qalmasalar da, iqtisadi inkişaf perspektivləri xeyli zəifləmişdi.

Yeni ümummilli dövlətin qarşılaşdığı ilk vəzifələrdən biri iqtisadiyyatı sağlam bünövrə üzərinə oturtmaq oldu. Konstitusiyanın ilk maddəsində deyilir: «Konqres borcları ödəmək və... Birləşmiş Ştatların ümumi rifahını... təmin etmək üçün vergilər qoymaq və onları toplamaq... səlahiyyətinə malikdir».

Vergi səlahiyyəti dövlətə öz müharibə borclarını ödəmək və ölkə valyutasını möhkəm özül üzərinə qoymaq imkanı verdi. Ölkənin maliyyə məsələlərinə nəzarət etmək üçün xəzinədarlıq katibi (naziri – *red.*), xarici ölkələrlə əlaqələri idarə etmək üçün isə dövlət katibi (xarici işlər naziri – *red.*) təyin edildi. Həmçinin ölkənin hərbi təhlükəsizliyi üçün məsuliyyət daşıyan hərbiyyə katibi (naziri – *red.*) və federal dövlətin baş hüquq məmuru kimi fəaliyyət göstərmək üçün ədliyyə katbi (naziri – *red.*) vəzifələri təsis olundu. Sonralar ölkə genişləndikcə və iqtisadiyyat daha mürəkkəbləşdikcə xalqın firavan yaşayışının təmin edilməsi əlavə icra orqanlarının yaradılmasını zəruriləşdirdi.

«... azadlığın bizim özümüzə və gələcək nəsillərimizə bəxş etdiklərini qoruyub saxlamaq»

Fərdi azadlığın yüksək qiymətləndirilməsi yeni Amerika Respublikasının ən əlamətdar xüsusiyyətlərindən biri oldu. Əksəriyyəti siyasi və dini təqib və təzyiqlərin mövcud olduğu mühitdən çıxmış olan amerikalılar Yeni Dünyada azadlığın qorunub saxlanılmasına xüsusi önəm verirdilər. Konstitusiya müddəaları federal dövlətə səlahiyyətlər verərkən həm milli, həm də ştat hökumətlərinin səlahiyyətlərini məhdudlaşdırmaqla bütün fərdlərin hüquqlarının qorunmasına xüsusi diqqətlə yanaşmışdır. Bunun da nəticəsi olaraq amerikalılar bir yerdən başqa yerə hərəkət etməkdə, işləri, dilləri və siyasi inancları barədə hər bir qərarı özləri verməkdə və bu hüquqlarının pozulduğunu hiss etdikləri anda ədalətin bərpa olunması və öz hüquqlarının qorunması üçün məhkəmələrə müraciət etməkdə tam sərbəstdirlər. ❑



ABŞ Konstitusiyasının qəbul edilməsi ilə bağlı Nyu Yorkda keçirilən bayram paradında «dövlət gəmisi»ni simvolizə edən «Hamilton» adlı gəminin maketi düzəldilmişdi. «Federalist məqalələr»in müəlliflərindən Aleksandr Hamilton Nyu Yorkda Konstitusiyanın ən əsas müdafiəçisi olmuşdur.

FƏSİL
2

KONSTİTUSİYANIN ŞƏRHİ

FEDERALİST MƏQALƏLƏR

«Elə dövlət də öz-özlüyündə insan təbiətinə qarşı bütün reflekslərin ən böyüyü deyilsə, bəs nədir?».
– Ceyms Medison, «Federalist Məqalələr», 1787–88

Amerikanın Qurucu Atalarından biri və sonralar yeni ölkənin üçüncü prezidenti seçilmiş Tomas Ceffersona görə, «Federalist məqalələr» «dövlətçilik prinsipləri haqqında... indiyəcən yazılmış ən yaxşı şərh» olmuşdur. 19-cu əsrdə yaşamış britaniyalı filosof Con Stüart Millə görə, «Federalist məqalələr» adlandırılan 85 qısa esse toplusu «bizim federal dövlət haqqında əlimizdə olan ən instruktiv traktatdır». Görkəmli fransız siyasi şərhçisi Aleksis de Tokvil 1835-ci ildəki yazısında onu «bütün ölkələrin dövlət xadimlərinin hökmən tanış olması gərəkən gözəl kitab» adlandırmışdı.

Müasir tarixçilər, hüquqşünaslar və siyasət alimləri ümumən bu fikirdədirlər ki, «Federalist məqalələr» Birləşmiş Ştatlar tarixində siyasi fəlsəfə və praqmatik dövlət haqqında yazılmış ən əhəmiyyətli əsərdir. Bu əsər Platonun «Respublika», Aristotelin «Politika» və Tomas Hobbsun «Leviafan» əsərləri ilə müqayisə edilir. Latın Amerikası, Asiya və Afrikanın bir çox yeni dövlətlərinin liderləri öz ölkələrinin konstitusiyalarını hazırlayarkən bu kitabdan yararlanmışlar.

1787-ci il oktyabrın 17-də Filadelfiyada ABŞ Konstitusiyası layihəsinin altına imza atan nümayəndələr belə şərtləşmişdilər ki, bu Konstitusiya yalnız 13 ştatdan 9-nun ratifikasiya Konventində bəyənildikdən sonra qüvvəyə minəcəkdir. Ancaq onlar iki başlıca ştatın – Nyu York və Virciniya ştatlarının daha böyük və güclü olduqlarına görə Konstitusiyanın lehinə səs verməmələri təqdirdə bu təşəbbüsün iflasa uğraya biləcəyini nəzərə almamışdılar. Həm nyu-yorklu, həm də virciniyalı nümayəndələrin Konstitusiya ilə bağlı fikirləri kəskin surətdə haçalanmışdı və Nyu York qubernatoru Corc Klinton artıq öz fikrini aydın şəkildə bildirmişdi.

Elə təsəvvür edilə bilər ki, «Federalist məqalələr» kimi çox yüksək qiymətləndirilən və bu qədər təsir gücünə malik olan bir əsər uzunmüddətli elmi və dövlətçilik təcrübəsinin yetkin bəhrəsi kimi meydana çıxmışdır. Əslində isə bu əsər əsasən iki gəncin – 32 yaşlı nyu-yorklu Aleksandr Hamiltonun və 36 yaşlı virciniyalı Ceyms Medisonun düşüncəsinin məhsuludur, onlar həmin kitabı böyük tələskənlik içində – bəzən həftədə dörd esse yazıblar. Kitaba daxil edilən essenin beşini daha yaşlı alim, sonralar Ali Məhkəmənin sədri təyin edilən Con Cey yazmışdır.

İnqilab dövründə Corc Vaşinqtonun adyutantı olmuş Hamilton Medisondan və Ceydən bu həlledici layihəni gerçəkləşdirməkdə ona qoşulmalarını xahiş etmişdir. Onların məqsədi Nyu York Konventini yenicə tərtib olunmuş Konstitusiyanı ratifikasiya etməyə inandırmaq olmuşdur. Onlar müstəqil şəkildə, amma hər üçü eyni «Publius» təxəllüsü ilə Nyu York qəzetlərinə silsilə məqalələr yazaraq Konstitusiyanın müddəalarını şərh və müdafiə edəcəkdilər.

Ceyms Medison

Layihənin təşəbbüçüsü, müzakirə ediləcək mövzuların hansı ardıcıllıqla verilməsini müəyyənləşdirən və daha böyük həvəslə bu məktubların əksəriyyətini – 51-ni yazan Hamilton olmuşdur. Ancaq Medisonun 29 məktubu açıqlığı və səmimiliyi, tarazlığı və məna gücü etibarı ilə daha yaddaqalandır. 1787-ci ilin oktyabrı ilə 1788-ci ilin mayı arasında yazılan «Federalist məqalələr»in Nyu Yorkun Konstitusiyanı ratifikasiya etməsinə həlledici təsir göstərib-göstərmədiyi dəqiq məlum deyil. Ancaq, heç şübhəsiz, bu esselər ABŞ Konstitusiyası haqqında ən etibarlı şərhlərə çevrilmiş və bu şəkildə də qalmaqdadır.

YENİ FEDERALİZM NÖVÜ

«Federalist məqalələr»də istifadə edilən ilk və ən aydın metod federalizmə yeni tərif verilməsi olmuşdur. Əzici monarxiya üsul-idarəsinə qarşı inqilabdan yenicə qələbə ilə çıxan sabiq Amerika koloniştləri onu başqa bir mərkəzləşdirilmiş, qeyri-məhdud rejimlə əvəz etmək həvəsində deyildilər. Digər tərəfdən, «Konfederasiya maddələri» dövründə ayrı-ayrı ştatlar arasındakı qısqanclıq və rəqabətin doğurduğu qeyri-stabillik və qarmaqarışıqlıq təcrübəsi onları daha güclü ümummilli dövlət sistemi yaratmaq barədə düşünməyə məcbur edirdi. «Federalist məqalələr»dəki bir sıra yazılar, o vaxta qədər heç yerdə əldə edilməmiş yeni bir tarazlıq növünün tapılmasının mümkün olduğunu irəli sürürdü. Əslində «Məqalələr»in özü də liman şəhəri Nyu Yorkun kommersiya maraqlarını əks etdirən Hamiltonun mərkəziyyətçi meylliyi ilə Virciniya fermerlərinin uzaqdakı hakimiyyətə böyük şübhə ilə yanaşmalarını paylaşan Medisonun ehtiyatlılığı arasındakı tarazlığın bir nümunəsi idi.

Medison «Konfederasiya maddələri» dövründəki kimi, hər bir ştata tam suverenlik


Aleksandr Hamilton

verilməsi əvəzinə ümummilli miqyasda müdaxilə tələb etməyən bütün sahələrdə onların «qalan suverenliklərini» özlərində saxlamalarını təklif edirdi. «Konstitusiyanın ratifikasiya edilməsi prosesinin özü», – o yazırdı, – «mərkəziyyətçi dövlətçilikdən daha çox federalizm konsepsiyasını simvolizə edir». O deyirdi: «Bu cür razılaşma və ratifikasiya ixtiyarı xalqa bütöv bir dövlət quran fərdlər kimi deyil, müvafiq olaraq mənsub olduqları fərqli və fərdi ştatlar quran fərdlər kimi verilir... Buna görə də Konstitusiyanın təsis edilməsi ümummilli deyil, federal bir akt olacaqdır».

Hamilton ümummilli və ştat hakimiyyətləri arasında «səlahiyyətlərin qovuşması» adlandırdığı şeyi tövsiyə edirdi. Ancaq onun planetlərin Günəş ətrafında fırlanmaqla bərabər öz separat statuslarını saxlaması ilə bağlı analogiyası mərkəzi hakimiyyətə daha böyük ağırlıq verirdi.

Hamilton və Cey (o da Nyu Yorkdan idi) Qədim Yunanıstanda və müasir Avropada mövcud olan, həmişə böhranlı dövrlərdə parçalanan ittifaqlardan misal gətirirdilər. Ancaq fərqli baxışlara malik olmalarına baxmayaraq, «Federalist məqalələr»in müəllifləri üçün çıxarılan dərs aydın idi: rahat bir xalq kimi yaşaya bilmək məhdudlaşdırılmış qaydada da olsa, vacib səlahiyyətlərin mərkəzi hakimiyyətə həvalə olunmasını tələb edir. Onlar bu işin hər bir ştа-

tın fərdiliyinə və avtonomluğuna zərər vurmadan görülə biləcəyinə inanırdılar.

PƏRSƏNG DAŞI VƏ TARAZLAŞDIRMA

«Federalist məqalələr» həmçinin hakimiyyət səlahiyyətlərinin məhdudlaşdırılması və onlardan sui-istifadənin qarşısının alınması vasitəsi kimi siyasi ədəbiyyatda ilk dəfə rast gəlinən «pərsəng daşı və tarazlaşdırma» ideyasına xüsusi diqqət yetirmişdir. Bu sözlər, əsasən, Hamiltonla Medisonun hakimiyyətin ən güclü qanadı hesab etdikləri ikipalatalı qanunverici orqanla münasibətdə işlənmişdir. Orijinal şəkildə düşünüldüyü kimi, çox güman ki, xalq tərəfindən tələm-tələsik seçiləcək Nümayəndələr Palatası üçün ştat qanunvericilərinin seçdikləri daha mühafizəkar Senat (Konstitusiyaya 1813-cü ildə edilən On yeddinci Əlavə bu müddəanı dəyişdirmiş, senatorların xalq tərəfindən seçilməsini mandatlaşdırmışdır) pərsəng daşı rolunu oynayacaq və onu tarazlaşdıracaqdı.

Ancaq bir yerdə Medison daha ümumi şəkildə «idarənin idarəyə pərsəng daşı olacağı» fikrini müdafiə etmiş, Hamilton isə «demokratik məclisin demokratik Senat tərəfindən, onların hər ikisinin isə baş hakim tərəfindən tarazlaşdırılmasının gərəkliyi»ni qeyd etmişdir.

Özünün ən parlaq essesində (78 saylı) Hamilton Ali Məhkəmənin ümummilli və ştat qanunvericilərinin qəbul etdikləri qanunların Konstitusiyaya uyğun olub-olmamasını müəyyənləşdirmək hüququnu müdafiə etmişdir. Onun fikrincə, bu tarixi həlledici «məhkəmə tədqiqi» səlahiyyəti, çox güman ki, «fikir ixtilaflarının murdar nəfəsinin ədalət fəvvarələrini zəhərləyə biləcəyi» qanunverici orqan üzərində ən münasib nəzarət olacaqdır. Hamilton parlamentə xoşagəlməz hesab etdiyi istənilən məhkəmə qərarını səs çoxluğu ilə ləğv etmək ixtiyarı verən Britaniya sistemini qəti şəkildə rədd edirdi. Əksinə, «ədalət məhkəmələri qanunverici orqanın təcavüzlərinə qarşı məhdud Konstitusiyanın istehkamları hesab olunmalıdır». Yalnız Konstitusiyanın daha da təkmilləşdirilməsiylə bağlı çox ciddi və ağır proseslər və yaxud Ali Məhkəmə üzvlərinin tədricən öz fikirlərini dəyişdirmələri həmin məhkəmənin Konstitusiyanın müddəaları haqda təfsirlərini ləğv edə bilər.

İNSAN TƏBİƏTİ, DÖVLƏT VƏ FƏRDİ HÜQUQLAR

Pərsəng daşı və tarazlaşdırma anlayışlarının arxasında insan təbiətinə son dərəcə gerçəkçi bir baxış dayanır. Medisonla Hamilton insanların yaxşı halda ağıllı, intizamlı və ədalətli olduqlarına inansalar da, onların ehtirasa, dözümsüzlüyə və hərisliyə də düşkün olduqlarını qəbul edirdilər. Məşhur bir abzasda azadlığın qorunub saxlanılması üçün hansı tədbirlərin lazım olduğunu şərh etdikdən sonra Medison yazırdı: «Dövlətin sui-istifadələrinə göz qoymaq üçün bu vasitələrin zəruri hesab edilməsi bəlkə də insan təbiətinə qarşı bir refleksdir. Elə dövlət də öz-özlüyündə insan təbiətinə qarşı bütün reflekslərin ən böyüyü deyilsə, bəs nədir? Əgər insanlar mələk olsaydılar, onda heç bir dövlətə lüzum qalmazdı. Əgər mələklər idarə etsəydilər, onda dövlət üzərində nə xarici, nə də daxili nəzarətə ehtiyac olardı. Dövlət yaradılarkən – bu isə insanların insanları idarə etməsi deməkdir – ən böyük çətinlik bundan ibarətdir: siz əvvəlcə dövlətin idarə olunanlara nəzarət edə bilməsini təmin etməlisiniz və bundan sonra onu öz-özünə nəzarətə məcbur etməlisiniz».

«Federalist məqalələr»in ən maraqlı və orijinal esselərinin birində (10 saylı) Medison bu ikiqat təhlükəyə müraciət etmişdir. Onun əsas, başlıca narahatlığı «qruplaşmaların zorakılığına son qoymaq və ona nəzarət etmək»lə bağlı idi; bununla o, xalq hakimiyyəti üçün ən böyük təhlükə hesab etdiyi siyasi partiyaları nəzərdə tuturdu: «Mən bir sıra vətəndaşların... digər vətəndaşların hüquqlarına və ictimaiyyətin permanent və toplu maraqlarına ziyan vurmaq üçün müəyyən ümumi ehtiraslar və ya maraqlar ətrafında birləşərək hərəkət edəcəklərini başa düşürəm».

Başqalarının hüquqlarına təhlükə törədən bu ehtiraslar və maraqlar dini, siyasi və yaxud daha çox halda iqtisadi ola bilər. Qruplaşmalar nəyəsə malik olanlarla olmayanlar, borc verənlərlə borclu olanlar arasında və yaxud insanların malik olduqları əmlak növləri üzrə bölücülük yarada bilər. Medison yazırdı: «Torpaq marağı, manufaktura marağı, ticarət marağı, pul marağı bir çox digər az əhəmiyyətli maraqlarla birlikdə böyüyərək sivil xalqların zəruri ehtiyacına çevrilmiş və onları müxtəlif duyğular və baxışlarla hərəkət edən müxtəlif siniflərə bölmüşdür. Bu bir-birindən fərqli və bir-birini əngəlləyən maraqların tənzimlənməsi müasir qanunvericilik orqanının əsas vəzifəsini təşkil edir...»

Ədalətli, rasional və azad insanlar öz aralarından çıxmış bu qədər ziddiyyətli iddialarla və yaxud qruplarla necə əməkdaşlıq edə bilərlər? Şəxsi ehtiras və maraqların kökünü kəsmək mümkün olmadığından yaxşı dövlət forması hər bir qruplaşmanın – istər azlıq, istərsə də çoxluq qruplaşması olsun – öz iradəsini ümumi xeyrin əleyhinə çevirməsinin qarşısını ala biləcək gücdə olmalıdır. Medison deyirdi ki, qruplaşma hökmranlığından müdafiə növlərindən biri respublika formasıdır, bu cür dövlət quruluşu «ictimai baxışları vətəndaşlar tərəfindən seçilən orqanın içindən keçirməklə təmizləyir və genişləndirməyə» meyl göstərir.

Ancaq Medisona görə ən vacibi, yeni Konstitusiyanın məqsədi olan ümummilli dövlət daxilində baş verəcəyi kimi, respublikanın coğrafi və əhali bazisini genişləndirməkdir. O yazırdı: «Hər bir nümayəndə kiçik respublikada olduğundan daha çox sayda vətəndaşlar tərəfindən seçiləcəyi təqdirdə, seçkilərdə adətən tez-tez baş verdiyi kimi, ləyaqətsiz namizədlər üçün çirkin üsullarla qələbə qazanmaq praktikasını həyata keçirmək daha çətin olacaqdır... Qrup liderlərinin nüfuzu öz ştatları daxilində alovlanıb şölə saça bilər, ancaq o, digər ştatlara da yayılaraq ümumi yanğına çevrilə bilməyəcək».

Burada diqqətə çatdırılması istənilən şey plüralizm prinsipidir; bu prinsip fərdi fərqliliklərin və azadlığın təsdiqi kimi həm öz-özlüyündə, həm də xüsusilə bir-biri ilə daha qəti şəkildə ziddiyyətdə olan ehtirasların və maraqların neytrallaşdırılmasına müsbət təsir göstərdiyinə görə rəngarəngliyi alqışlayır. Birləşmiş Ştatlarda fərqli dini inancların çoxluğu vahid bir kilsə iyerarxiyasının bərqərar olmasını xoş qarşılamadığı kimi, çoxlu müxtəlif regionlara və maraqlara malik fərqli ştatların mövcudluğu da qızışmış və potensial zorakı qruplaşmanın və ya partiyanın ümumölkə səviyyəsində qələbəsini qeyri-mümkün edir.

Medisonun bu arqumentinin təsdiqini Amerikanın ən iri partiyalarının təkamülündə tapmaq olar; həmin partiyalar daim təmkinli və ideologiyadan kənar olmağa meyl göstərirlər, çünki onların hər biri bu cür fərqli sahə və iqtisadi maraqları özündə cəmləşdirir.

SƏLAHİYYƏTLƏRİN BÖLÜŞDÜRÜLMƏSİ

Bir əldə cəmləşmiş gücün hökmranlığına yol verməmək üçün səlahiyyətlərin dövlətin müxtəlif qanadları arasında bölüşdürülməsi ideyası pərsəngləmə və tarazlaşdırmanın daha geniş kateqoriyasına daxildir. Ancaq «Federalist məqalələr» səlahiyyətlərin bölüşdürülməsində başqa bir faydalı cəhət görür, daha dəqiq desək, ona dövlətin işgüzarlığının və effektivliyinin artırılması kimi baxır. Müəyyən ixtisas funksiyalarını yerinə yetirməklə məhdudlaşdırılan müxtəlif hakimiyyət qanadları öz fəaliyyətlərini həm səriştəlilik, həm də qürur duyğusu baxımından inkişaf etdirirlər, bu, heç də onların öz faəliyyətlərini birləşdirmələrinə və yaxud bu fəaliyyətlərin hər hansı bir dərəcədə üst-üstə düşməsinə əngəl törətmir.

Bir funksiyanın yerinə yetirilməsində həlledici olan keyfiyyətlər, başqa bir funksiya üçün yararsız ola bilər. Belə ki, Hamilton ölkənin xarici hücumlardan müdafiə olunması, qanunların ədalətlə həyata keçirilməsi, əmlak və fərdi azadlıqların qorunması üçün xas olan keyfiyyətləri – bütün bunların hamısına o, bir-birinə yaxın və əlaqəli hüquqlar kimi baxırdı – «icra enerjililiyi» adlandırmışdı. Ancaq insanların etimadını qazanmalı və onların bir-birinə zidd maraqlarını barışdırmalı olan qanunverici üçün enerjililik deyil, «düşüncəlilik və müdriklik» ən yaxşı keyfiyyətlər hesab olunmalıdır.

Tələb olunan keyfiyyətlərin bu cür fərqli olması həm də icraçı qanadın səlahiyyətlərinin nə üçün məhz bir insanın, prezidentin əlində cəmləşməli olduğunun səbəbini izah edir, çünki icra qanadında plüralizm onu iflic vəziyyətinə sala və «dövlətin üzləşdiyi böhranlı fövqəladə vəziyyətlərdə hökumətin bir çox tədbirlərini puça çıxara» bilər. Yəni, qanunverici orqan xalqın iradəsini ifadə edərək bir qanunu ciddi şəkildə araşdırmalar və müzakirələr nəticəsində bir dəfə qəbul etdikdən sonra icra orqanı həmin qanunu favoritizmə, heç bir şəxsi maraq xarakterli xahiş əsasında istisnaya yol vermədən olduğu kimi icra etməlidir. Xarici dövlət ölkəyə hücum etdiyi məqamda icra qanadı dərhal və qəti şəkildə ona cavab verə bilmək üçün gücə və enerjiyə malik olmalıdır. Məhkəmə qanadı üçün tələb olunan keyfiyyətlər də o cür xüsusi xarakterlidir; bu qanad üçün nə icraçıların enerjililiyi və cəldliyi, nə də qanunvericilərin xalqın istəyinə qarşı məsuliyyətliliyi və yaxud kompromis yarada bilmək qabiliyyəti deyil, «düzgünlük və təmkinlilik» kimi keyfiyyətlər tələb olunur.

ƏBƏDİ SİYASƏT MƏSƏLƏLƏRİ

«Federalist məqalələr»dəki dövlət, cəmiyyət, azadlıq, tiraniya və siyasətçi insanın təbiəti haqqında unudulmaz qeydlərin yerini müəyyənləşdirmək o qədər də asan deyil. Bu məqalələrin çoxu köhnəlmiş, təkrarlarla dolu və yaxud arxaik üslubdadır. Müəlliflərin öz düşüncələrini müəyyən bir qaydaya salmağa və müfəssəl, hərtərəfli şəkildə işləməyə nə vaxtları, nə də həvəsləri olmuşdur. Buna baxmayaraq, «Federalist məqalələr» Hamiltonla Medisonun qaldırdıqları əbədi siyasət nəzəriyyəsi və praktikası məsələləriylə ciddi maraqlanan hər kəs üçün əvəzedilməz mənbə olaraq qalır. «Amerikalı qələmi tərəfindən heç vaxt bundan bəlağətli, bu qədər dərin məzmunlu və praktik bir şey yazılmayıb», – görkəmli siyasət tarixçisi Klinton Rossitor 20-ci əsrdə yazırdı. «Federalist»in bir abzasında deyilir: «Azadlıqsız heç bir xoşbəxtlik, özünüidarəsiz heç bir azadlıq, konstitusiyaçılıqsız heç bir özünüidarə, mənəviyyatsız heç bir konstitusiyaçılıq, bütün bu böyük nemətlərin heç biri olmadığı halda isə heç bir stabillik və qaydaqanun ola bilməz». ❑

Ağ ev

FƏSİL
3

İCRA QANADI

PREZİDENTİN SƏLA-HİYYƏTLƏRİ

«Baş magistrat (burada: prezident – red.*) özünün bütün səlahiyyətlərini xalqdan alır...»*
– Avraam Linkoln, birinci inauqurasiya müraciətindən, 1861

Avropanın bütün iri ölkələrində monarxiya üsul-idarəsi irsi olaraq davam etdiyi bir dövrdə məhdud müddətli prezident ideyasının özü belə inqilabi bir şey idi. Ancaq 1788-ci ildə qəbul edilən Konstitusiya icra səlahiyyətlərini prezidentə həvalə etdi və bu vəziyyət bu gün də davam edir. Konstitusiya, həmçinin, vitse-prezidentin də seçilməsini tələb edir və o, prezidentin ölümü, istefası və yaxud öz vəzifələrini icra etmək qabiliyyətində olmadığı hallarda onu əvəz edir. Konstitusiya prezidentin bəzi vəzifə və səlahiyyətlərini ətraflı sadalasa da, vitse-prezidentə, 14 üzvü olan prezident kabinetinə (federal departament (nazirlik – *red.*) rəhbərlərinə) və yaxud digər federal məmurlara heç bir xüsusi icra səlahiyyəti həvalə etmir.

Güclü, unitar prezident vəzifəsinin yaradılması məsələsi Konstitusiya konventində bəzi mübahisələrə səbəb olmuşdur. Bəzi ştatlar bir neçə üzvdən ibarət icra şuraları təcrübəsinə malik idilər; onlar həmin sistemi bir neçə il xeyli uğurla tətbiq edən isveçrəlilərdən əxz etmişdilər. Nümayəndə Bencamin Franklin Birləşmiş Ştatlar üçün də buna bənzər bir sistemin qəbul olunmasını təklif edirdi. Bundan əlavə, nümayəndələrin çoxu hələ də Britaniya taxt-tacının əlindəki despotik icra hakimiyyətinin təsiri altında olduqlarından güclü prezident vəzifəsinin yaradılmasına ehtiyatla yanaşırdılar. Buna baxmayaraq, ciddi məhdudlaşdırmalar və tarazlaşdırmalar sistemi altında fəaliyyət göstərəcək vahid prezident vəzifəsinin təsis edilməsi tərəfdarları bu mübahisədən qalib çıxdılar.

Konstitusiya prezidentin ən azı 35 yaşında Amerikada doğulmuş amerikan vətəndaşı olmasını tələb edir. Prezidentliyə namizədlər hər dörd ildən bir (dördə tam bölünən illərdə) noyabr ayının ilk bazar ertəsindən sonrakı çərşənbə axşamı günündə keçirilən prezident seçkilərindən bir neçə ay qabaq siyasi partiyalar tərəfindən seçilir. 1951-ci ildə ratifikasiya edilən İyirmi ikinci Əlavə bir şəxsin yalnız iki müddətə prezident seçilməsi məhdudiyyətini qoymuşdur.

Vitse-prezident prezidentlə eyni vaxt ərzində xidmət edir. Zəruri hallarda prezidenti əvəz etmək hüququna malik olmaqdan başqa, vitse-prezident həm də Senatın sədridir. 1967-ci ildə qəbul edilən İyirmi beşinci Əlavə prezidentin vitse-prezidentlə əvəz olunması prosedurunu genişləndirmişdir. Əlavə prezidentin öz vəzifəsini icra etmək qabiliyyətində olmadığı hallarda vitse-prezidentin prezidentliyi öz üzərinə götürməli olduğu spesifik vəziyyətləri təsvir edir. O, həmçinin prezidentin sağaldıqdan sonra öz vəzifəsinə qayıdıb onu davam etdirməsini təmin edir. Bundan başqa, həmin əlavə prezidentə vitse-prezident vəzifəsi boşaldığı halda, Konqresin təsdiq etməsi şərtilə, bu vəzifəyə yeni namizəd irəli sürmək ixtiyarı verir.

Konstitusiya Konqresə vitse-prezidentdən sonra prezidenti əvəz edə biləcək şəxslərin təyini qaydalarını müəyyən etmək səlahiyyəti verir. Hazırda həm prezident, həm də vitse-prezident vəzifələri eyni vaxtda boşaldığı halda Nümayəndələr Palatasının sədri prezidentliyi qəbul edir. Onun ardınca isə Senatın seçdiyi *pro tempore* prezident (vitse-prezidentin yoxluğu halında bu orqan tərəfindən sədr seçilən senator), ondan sonra isə təyin olunmuş qaydada kabinet üzvləri gəlir.

Hökumət Vaşinqton D.C.-də, (the District of Columbia – Kolumbiya Dairəsi), şərq sahilində, Merilend və Virciniya ştatlarının arasındakı federal anklavda yerləşir. Prezidentin həm iqamətgahı, həm də ofisi sayılan Ağ ev bu şəhərdədir.

Prezidentin seçilməsi qaydası Amerika sistemində xüsusi səciyyə daşıyır. Namizədlərin adları seçki bülletenlərində göstərilsə də, əhali texniki cəhətdən prezidentə (və vitse-prezidentə) səs vermir. Bunun əvəzində onlar hər ştatın Konqresdəki senator və konqresmenlərinin sayına bərabər miqdarda prezidenti seçəcək seçicilər qrupunu seçirlər. Hər bir ştatda ən çox səs toplayan namizəd həmin ştatın bütün «seçici səslərini» qazanmış olur.

50 ştatın və Kolumbiya Dairəsinin seçiciləri – cəmi 538 nəfər seçici kollegiyası kimi tanınan qurumu təşkil edir. Konstitusiya şərtlərinə görə, seçici kollegiyası bir orqan kimi heç vaxt bir yerə toplaşmır. Bunun əvəzində seçicilər seçkilərdən qısa müddət sonra öz ştatlarının paytaxtında bir yerə yığışır və öz ştatlarının ən çox səsini toplamış namizədə səs verirlər. Prezidentliyə namizəd qalib gələ bilmək üçün mümkün 538 seçici səsindən 270-ni qazanmalıdır. Konstitusiya şərtinə görə, əgər heç bir namizəd lazımi qədər çox səs toplaya bilməzsə, son qərarı Nümayəndələr Palatası verməlidir: bu zaman hər bir ştatdan olan palata üzvləri vahid şəkildə səs verirlər. Bu halda hər bir ştatın və Kolumbiya Dairəsinin yalnız bir səsi olur.

Dördillik prezidentlik müddəti noyabr seçkilərindən sonrakı yanvarın 20-də başlanır (1933-cü ildə ratifikasiya edilən İyirminci Əlavəyə əsasən, mart ayından bu tarixə keçilmişdir). Prezident öz vəzifəsinə rəsmən, adətən ABŞ Konqresinin yerləşdiyi Kapitoliya binasının pilləkənləri önündə keçirilən inauqurasiya mərasimi ilə başlayır. Prezident, bir qayda olaraq, Ali Məhkəmənin sədri yanında öz vəzifəsinə sədaqət andı içir. Bu and Konstitusiyanın II maddəsindəki bu sözlərdən ibarətdir: «Mən təntənəli surətdə and içirəm (və yaxud söz verirəm) ki, Birləşmiş Ştatların prezidenti vəzifəsini vicdanla yerinə yetirəcək və Birləşmiş Ştatların Konstitusiyasını var gücümlə qoruyacaq, müdafiə edəcək və dəstəkləyəcəyəm». Andiçmə mərasiminin ardınca müraciət oxunur; həmin müraciətdə yeni prezident öz administrasiyasının həyata keçirəcəyi siyasət və planları ümumi şəkildə açıqlayır.

PREZİDENT VƏZİFƏSİNİN SƏLAHİYYƏTLƏRİ

Birləşmiş Ştatların prezidenti vəzifəsi dünyada ən qüdrətli vəzifələrdən biridir. Konstitusiyada deyilir ki, prezident «qanunların vicdanla icra olunmasının qayğısına qalmalıdır». Bu məsuliyyəti daşımaq üçün o, federal dövlətin icra qanadına – 1 milyon nəfərlik həqiqi hərbi xidmətdə olan personal da daxil olmaqla, 4 milyon nəfərlik böyük bir təşkilata rəhbərlik edir. Bundan əlavə, prezidentin mühüm qanunverici və məhkəmə səlahiyyətləri var.

İcra səlahiyyətləri

İcra qanadının öz daxilində prezident ümumölkə məsələləri və federal hökumət işləriylə bağlı geniş səlahiyyətlərə malikdir. Prezident federal agentliklər üçün məcburi olan, ancaq Konqres tərəfindən təsdiqinə ehtiyac duyulmayan qaydalar, tənzimləmə aktları və icra qaydaları adlanan sərəncamlar dərc edə bilər. Birləşmiş

davamı səhifə 43

PREZİDENT

Vəzifə şərtləri: seçici kollegiyası vasitəsilə xalq tərəfindən dörd il müddətinə seçilir, eyni bir şəxs yalnız iki müddətə prezident seçilə bilər.

Maaşı: 20 yanvar 2001-ci ilə görə ildə 400.000 ABŞ dolları.

İnauqurasiya: noyabrda keçirilən ümumi seçkilərdən sonrakı yanvar ayının 20-si.

Verilən tələblər: ABŞ-da doğulmuş Amerika vətəndaşı, ən azı 35 yaşında və ən azı 14 il Birləşmiş Ştatlarda yaşamış olmalıdır.

Vəzifə borcu: Konstitusiyanı qorumaq və Konqresin qəbul etdiyi qanunları həyata keçirmək.

Digər səlahiyyətləri: Konqresə qanunvericiliklər tövsiyə etmək, Konqresin xüsusi sessiyalarını çağırmaq, Konqresə təkliflər təqdim etmək, federal hakimləri təyin etmək, federal departamentlərin (nazirliklərin – red.) və agentliklərin rəhbərlərini və digər əsas federal məmurları təyin etmək, xarici ölkələrlə rəsmi iş aparmaq, silahlı qüvvələrin ali komandanı funksiyasını yerinə yetirmək, Birləşmiş Ştatlara qarşı cinayət əməllərinə görə cəzaları əfv etmək.

əvvəli səhifə 41

Prezident Corc Buş 1992-ci ildə Milli Aeronavtika və Kosmos İdarəsi qərargahında ətraf mühiti mühafizə təşəbbüsünü bəyan edərkən.

Ştatların hərbi qüvvələrinin baş komandanı kimi prezident, həmçinin, Milli Qvardiyanın ştat birliklərini federal xidmətə çağıra bilər. Müharibə və ya ümummilli təhlükə dövründə Konqres ölkənin iqtisadiyyatını idarə etmək və Birləşmiş Ştatların təhlükəsizliyini qorumaq üçün prezidentə daha geniş səlahiyyətlər verə bilər.

Bütün icra departamentləri və agentliklərinin rəhbərləri, eləcə də yüzlərlə digər yüksək rütbəli federal məmur prezidentin təqdimatı əsasında Senat tərəfindən təsdiq edilir. Ancaq federal işçilərin böyük əksəriyyəti Mülki Xidmət sistemi vasitəsilə seçilir; bu sistemdə təyinat və vəzifə böyümələri qabiliyyətə və təcrübəyə əsaslanır.

Qanunvericilik səlahiyyətləri

Konstitusiyada «bütün qanunvericilik səlahiyyətləri»nin Konqresə məxsus olduğu bəyan edilsə də, ictimai siyasəti müəyyənləşdirən ən başlıca şəxs kimi prezidentin çox böyük qanunvericilik rolu var. Prezident Konqresdən keçən istənilən qanun layihəsinə veto qoya bilər və hər bir palatada nümayəndələrin ən azı üçdə ikisinin səs çoxluğu ilə bu veto rədd edilməsə, həmin layihə qanun qüvvəsinə minmir.

Konqresin qanunvericilik fəaliyyətinin böyük bir hissəsi icraçı qanadın təşəbbüsləri ilə bağlıdır. Özünün Konqresə illik və xüsusi müraciətlərində prezident zəruri hesab etdiyi qanunların çıxarılmasını təklif edə bilər. Əgər Konqres prezidentin təkliflərinə reaksiya vermədən fasiləyə çıxarsa, prezidentin onun xüsusi sessiyasını çağırmaq səlahiyyəti vardır. Bu rəsmi səlahiyyətindən başqa, siyasi partiyanın başçısı və ABŞ dövlətinin icra qanadının ən yüksək rütbəli məmuru kimi prezident ictimai rəyə və beləliklə də Konqresin qanunvericilik fəaliyyətinə nüfuz edə biləcək bir mövqeyə malikdir.

Konqreslə işgüzar əlaqələrini daha da yaxşılaşdırmaq məqsədilə son dövrlərdə ABŞ prezidentləri Ağ evdə Konqreslə Əlaqələr Ofisi təşkil etmişlər. Prezidentin köməkçiləri qanunvericilik fəaliyyətləri barədə ən mühüm informasiyalardan xəbərdar olur və hər iki partiyadan olan senatorları və konqresmenləri onların vacibliyinə inandırmağa çalışırlar.

Prezident Bill Klinton 1998-ci ildə ABŞ Konqresi üzvlərinin əhatəsində ali təhsil haqqında qanunvericilik aktını imzalayır.

Məhkəmə səlahiyyətləri

Konstitusiya ilə prezidentə verilən səlahiyyətlərdən biri də onun ən mühüm dövlət məmurlarını təyin etməsidir. Ali Məhkəmənin üzvləri də daxil olmaqla, federal hakimlərin prezident tərəfindən təyin edilməsi onların Senatda təsdiq olunmaları ilə

Prezident Ronald Reyqan 1981-ci ildə ABŞ Ali Məhkəməsinə təyin etdiyi ilk qadın hakim Dey O'Konnorla birlikdə.

şərtləndirilmişdir. Prezidentin bu sahədə digər əlamətdar səlahiyyəti impiçment məsələsi istisna edilməklə, federal qanunları pozmaqda təqsirli bilinən istənilən şəxsi tam və ya şərti qaydada əfv edə bilməsidir. Bu əfv səlahiyyətinə həbs müddətlərini və cərimələri azaltmaq səlahiyyəti də daxildir.

Xarici siyasət səlahiyyətləri

Konstitusiyaya görə, prezident Birləşmiş Ştatların xarici ölkələrlə əlaqələri sahəsində ən başlıca məsuliyyət daşıyan federal məmurdur. Prezident səfirləri, diplomatik elçiləri və konsulları – Senatın təsdiq etməsi şərtilə – təyin, xarici səfirləri və digər dövlət rəsmilərini qəbul edir. Prezident dövlət katibi ilə birlikdə xarici dövlətlərlə bütün rəsmi əlaqələri həyata keçirir. Dövlət başçılarının birbaşa məsləhətləşmələr aparmaq üçün görüşdükləri sammitlərdə prezident şəxsən iştirak edə bilər. Belə ki, prezident Vudrou Vilson I Dünya müharibəsi başa çatdıqdan sornra Paris konfransında iştirak edən Amerika nümayəndə heyətinə başçılıq etmişdir, prezident Franklin Ruzvelt II Dünya müharibəsi illərində müttəfiqlərin dövlət başçıları ilə görüşmüşdür və o vaxtdan bu yana hər bir prezident iqtisadi və siyasi məsələləri müzakirə etmək, ikitərəfli və çoxtərəfli sazişlərə nail olmaq üçün dünya liderləri ilə görüşmüşdür.

Prezident Cimmi Karter 1980-ci ildə özünün xarici siyasət məsələləri üzrə baş müşavirləri ilə həftəlik səhər naharı görüşü keçirərkən.

Prezident Dövlət Departamenti vasitəsilə xarici ölkələrdəki amerikalıların və Birləşmiş Ştatlardakı xarici ölkə vətəndaşlarının təhlükəsizliyi üçün məsuliyyət daşıyır. Prezident yeni dövlətləri və hökumətləri tanıyıb-tanımamaq haqda qərar qəbul edir və digər dövlətlərlə sazişlər imzalayır və bu sazişlər Senatda üçdə iki səs çoxluğu isə təsdiq edildikdən sonra Birləşmiş Ştatlar üçün qüvvəyə minmiş olur. Prezident, həmçinin, xarici dövlətlərlə Senat tərəfindən təsdiq edilməsi tələb olunmayan «icra xarakterli sazişlər» bağlaya bilər.

PREZİDENT SƏLAHİYYƏTLƏRİNƏ QOYULAN MƏHDUDİYYƏTLƏR

Prezidentin ixtiyar və məsuliyyətləri xeyli geniş, onun milli və beynəlxalq arenada rolu çox böyük olduğuna görə, siyasi təhlilçilər prezident səlahiyyətlərinin həddən artıq olduğunu vurğulamağa meyl göstərirlər. Bəziləri hətta Franklin D. Ruzveltin öz prezidentliyi dövründə prezident vəzifəsinin səlahiyyətlərini həddən artıq genişləndirdiyinə işarə vuraraq «imperial prezidentlik»dən bəhs edirlər.

Hər bir yeni prezidentin vəzifə başına keçdikdən sonra üzləşdiyi ilk ayıldıcı reallıq irsən davam edən mövcud bürokratik strukturdur; bu nəhəng strukturu idarə etmək çox çətin ola və onun yönünü dəyişdirmə prosesi çox ləng gedə bilər. Prezidentin təyinat səlahiyyəti təxminən 3 milyon nəfərlik mülki dövlət işçisinin təqribən 3000 nəfərini əhatə edir.

Yeni prezidentlərə məlum olur ki, dövlət maşını adətən prezident müdaxiləsindən asılı olmadan fəaliyyət göstərir; əvvəlki administrasiyaların dövründə də belə olub və gələcəkdə də belə olacaqdır. Onlar, hər şeydən öncə, əvvəlki administrasiyasının yığılıb qalmış problemləriylə üz-üzə qalırlar. Onlara özlərindən xeyli əvvəl müəyyən edilən və qanun qüvvəsinə mindirilən büdcə və eləcə də qanun mandatı almış bir çox başlıca xərc proqramları (veteranlara verilən müavinətlər, sosial təminat ödənişləri və qocalar üçün tibbi sağlamlıq sığortası kimi) miras qalır. Xarici siyasət məsələlərində prezidentlər öz sələflərinin bağladıqları sazişlərə və qeyri-rəsmi müqavilələrə uyğunlaşmalıdırlar.

Seçkilərdən sonrakı «bal ayı»nın doğurduğu xoş eyforiya səngidikdən sonra yeni prezidentə aydın olur ki, Konqres onunla əməkdaşlığa daha az həvəs göstərir və media ona daha kəskin tənqidi münasibət

bəsləyir. Prezident çox müxtəlif, bir çox hallarda isə hətta bir-birinə zidd olan iqtisadi, coğrafi, etnik və ideoloji maraqların ən azı müvəqqəti uzlaşmasını təşkil etmək məcburiyyətində qalır. Əgər hər hansı bir qanunvericilik aktı qəbul edilməlidirsə, Konqreslə kompromisə getmək lazım gəlir. «Qanun aktının Konqresdən keçməməsinə nail olmaq çox asandır, – prezident Con F. Kennedi şikayətlənirdi, – ən çətin iş onu Konqresdən keçirməkdir».

Bütün bu məhdudiyyətlərə baxmayaraq, hər bir prezident son nəticədə özünün bəzi qanunvericilik məqsədlərinin həyata keçməsinə nail ola bilir və veto qoymaq hüququndan istifadə etməklə ölkənin maraqlarına cavab vermədiyinə inandığı digər qanunların qüvvəyə minməsinin qarşısını alır. Müharibə və sülhün idarə olunmasında, eləcə də müqavilələrin bağlanmasında prezidentin səlahiyyətləri həlledici əhəmiyyətə malikdir. Bundan əlavə, prezident öz ideyalarını dəqiq ifadə etmək və öz siyasətlərini təbliğ etmək üçün unikal mövqeyindən yararlana bilər; bu səbəbdən prezidentin ideya və siyasətləri ictimai şüura daxil olmaq üçün onun siyasi rəqiblərininkindən daha əlverişli şansa malikdir. Prezident Teodor Ruzvelt prezidentliyin bu aspektini «talançı tribuna» adlandırmışdır, çünki prezidentin qaldırdığı hər hansı məsələ, hökmən ictimai müzakirə obyektinə çevrilir. Prezidentin səlahiyyətləri və nüfuzu məhdudlaşdırıla bilər, ancaq onlar yenə də vəzifədə olan və olmayan istənilən amerikalınınkından çox olaraq qalacaqdır.

İCRA DEPARTAMENTLƏRİ

Federal qanunların gündəlik icrası və onların həyata keçirilməsi Konqresin milli və beynəlxalq məsələlərin spesifik sahələrinə uyğun olaraq yaratdığı müxtəlif departamentlərin (nazirlik və idarələrin – *red.*) əlindədir. Prezident tərəfindən seçilən və Senatın təsdiqlədiyi 14 departament rəhbəri, bir qayda olaraq, «prezident kabineti» kimi tanınan müşavirlər şurasını təşkil edir. Departamentlərlə yanaşı, Prezidentin İcra Aparatı ətrafında qruplaşan bir sıra strukturlar da mövcuddur. Buraya Ağ evin heyəti, Milli Təhlükəsizlik Şurası, İdarəçilik və Büdcə Ofisi, İqtisadi Müşavirlər Şurası, ABŞ Ticarət Nümayəndələri Ofisi, həmçinin Elmi və Texnoloji Siyasət Ofisi daxildir.

Konstitusiyada prezident kabineti ilə bağlı heç bir müddəa yoxdur. Konstitusiyada prezidentin hər bir icra bölməsinin rəhbər məmurundan həmin bölmənin məsuliyyət daşıdığı sahə üzrə istənilən məsələ barədə yazılı rəy verməsini xahiş edə bilməsi göstərilir, ancaq departamentlərin (nazirlik və idarələrin) adları və onların vəzifələri sadalanmır. Həmçinin kabinet üzvü ola bilmək üçün heç bir xüsusi konstitusional keyfiyyətlər göstərilmir.

Kabinet Konstitusiyadan kənar olaraq, hətta ölkənin ilk prezidenti Corc Vaşinqton dövründən praktik zərurət kimi formalaşmağa başlamışdır, çünki prezidentin hər hansı bir məsləhət və yardım olmadan öz vəzifəsini yerinə yetirə bilməsi qeyri-mümkün idi. Kabinetə hər bir prezidentin öz münasibəti olub. Bəzi prezidentlər öz praktikalarında onların məsləhətlərinə daha çox, bəziləri isə daha az əsaslanıblar: bir qismi isə, ümumiyyətlə onların varlığını inkar edib. Kabinet üzvləri məsləhətçi kimi fəaliyyət göstərib-göstərməmələrindən asılı olmayaraq, hökumətin spesifik sahələrdə müvafiq fəaliyyətlərini yönləndirmək məsuliyyətinə malikdirlər.

Hər bir departamentin bütün ölkə ərazisinə səpələnmiş ofislərində, eləcə də Vaşinqtonda minlərlə işçisi vardır. Departamentlər hər birinin öz vəzifəsi olan bölmələrə, bürolara, ofislərə və servislərə bölünmüşdür.

Kənd Təsərrüfatı Departamenti

Kənd Təsərrüfatı Departamenti (USDA) istehsalçılar və istehlakçılar üçün əlverişli qiymətlər və stabil bazarların təmin edilməsi məqsədilə kənd təsərrüfatı məhsullarının istehsalını himayə edir, fermer təsərrüfatı gəlirlərinin artırılmasına və bu artımın qorunub saxlanılmasına çalışır və kənd təsərrüfatı məhsulları xarici bazarlarının inkişafına və genişləndirilməsinə kömək edir. Departament ərzaq yarlıqları buraxmaqla, qidalanma haqda təhsil proqramlarına sponsorluq etməklə və başlıca olaraq uşaqlar, ehtiyacı olan analar və qocalar üçün digər ərzaq yardımı proqramlarını həyata keçirməklə yoxsulluğu, aclığı və doyunca qidalanmamanı aradan qaldırmağa çalışır. O, torpağı, suyu, meşələri və

ABŞ Kənd Təsərrüfatı Departamentinin Aydaho ştatı, Dubone yaxınlığındakı qoyunçuluq təcrübə məntəqəsində qoyun sürüləri sayılmaq və çəkilmək üçün güzə salınır.

davamı səhifə 50

KABİNET

Ədliyyə Departamenti istisna edilməklə, bütün departamentlərə katib (nazir – red.) başçılıq edir. Ədliyyə Departamentinə isə baş atorni (ədliyyə naziri – red.) başçılıq edir.

Kənd Təsərrüfatı Departamenti: 1862-ci ildə yaradılıb.

Ticarət Departamenti: 1903-cü ildə yaradılıb. Ticarət və Əmək Departamenti 1913-cü ildə iki müstəqil departamentə bölünüb.

Müdafiə Departamenti: 1947-ci ildə birləşdirilib. Müharibə Departamenti (1789-cu ildə təsis olunub), Hərbi Dəniz Qüvvələri Departamenti (1798-ci ildə təsis olunub) və Hərbi Hava Qüvvələri Departamentinin (1947-ci ildə təsis olunub) birləşdirilməsi nəticəsində Müdafiə Departamenti təsis edilib. Müdafiə Departamentinin katibi kabinetin üzvü olsa da, quru, dəniz və hava qüvvələrinin katibləri kabinetə üzv deyillər.

Təhsil Departamenti: 1979-cu ildə yaradılıb. Əvvəllər Səhiyyə, Təhsil və Rifah Departamentinin tərkib hissəsi kimi mövcud olub.

Energetika Departamenti: 1977-ci ildə yaradılıb.

Səhiyyə və Humanitar Xidmətlər Departamenti: 1979-cu ildə Səhiyyə, Təhsil və Rifah Departamenti (1953-cü ildə yaradılmışdı) iki müstəqil departamentə bölünərkən yaradılıb.

Mənzil və Urbanizasiyanın İnkişafı Departamenti: 1965-ci ildə yaradılıb.

Daxili İşlər Departamenti: 1849-cu ildə yaradılıb.

Ədliyyə Departamenti: 1870-ci ildə yaradılıb. 1789-cu və 1870-ci illər arasında baş atorni kabinetin üzvü olsa da, departamentin rəhbəri olmayıb.

Əmək Departamenti: 1913-cü ildə yaradılıb.

Dövlət Departamenti: 1789-cu ildə yaradılıb.
Nəqliyyat Departamenti: 1966-cı ildə yaradılıb.

Xəzinədarlıq Departamenti: 1789-cu ildə yaradılıb.

Veteran Məsələləri Departamenti: 1989-cu ildə Veteranlar İdarəsi kabinet səviyyəsinə yüksəldilərkən yaradılıb.

digər təbii ehtiyatları qorumaqda torpaq sahiblərinə köməklik göstərməklə istehsal həcmini himayə edir.

ABŞ Kənd Təsərrüfatı Departamenti milli məhsul artımı siyasətini həyata keçirmək məqsədilə planlaşdırılan kənd yerləri üçün inkişaf, kredit və konservasiya proqramlarını gerçəkləşdirir və bütün kənd təsərrüfatı sahələrinə dair elmi və texnoloji araşdırmalar aparır. Yoxlamalar və qiymətləndirmə xidmətlərini həyata keçirməklə ABŞ Kənd Təsərrüfatı Departamenti satışa çıxarılan qida məhsullarının keyfiyyət normalarını təmin edir. Departamentin Kənd Təsərrüfatı Araşdırmaları Xidməti yüksək milli prioritetə malik kənd təsərrüfatı problemlərinin həlli yollarını inkişaf etdirməyə çalışır və tədqiqatçı alimlərdən tutmuş adi insanlara qədər geniş oxucu kütləsini zəruri informasiyalarla təchiz edə bilmək üçün Milli Kənd Təsərrüfatı Kitabxanasını idarə edir.

Departamentin Xarici Kənd Təsərrüfatı Xidməti bölməsi ABŞ-ın kənd təsərrüfatı üçün ixrac xidməti agentliyi kimi fəaliyyət göstərir; o, xarici ölkələrdə müvafiq mütəxəssislər çalışdırır və onlar ABŞ-ın fermer və biznes maraqları üçün xarici ölkələrin kənd təsərrüfatı barədə araşdırmalar aparır, hesabatlar hazırlayırlar. Departamentin digər bir bölməsi – ABŞ Meşəçilik Xidməti isə ölkənin geniş meşələrlə zəngin olan və toxunulmamış təbii ərazilər şəbəkəsini idarə edir.

Ticarət Departamenti

Ticarət Departamenti ölkənin beynəlxalq ticarətini, iqtisadi yüksəlişini və texnoloji üstünlüyünü inkişaf etdirməyə çalışır. O, ABŞ-ın dünya bazarında rəqabət gücünü artırmaq üçün yardım və informasiyalar təklif edir, yeni iş yerlərinin açılması və kiçik biznes müəssisələrinin inkişafının gücləndirilməsi üçün proqramlar həyata keçirir, biznes müəssisələri və dövlət planlaşdırıcılarını statistik, iqtisadi və demoqrafik informasiyalarla təmin edir.

Atom saatı ixtiraçılarından – biri Deyv Qleyz Ticarət Departamentinin Kolorado ştatı, Boulderdəki Milli Standartlar və Texnologiyalar İnstitutunda həmin mexanizmi sınaqdan keçirir. Bu saat atom vibrasiyalarını dəqiq hesablamaqla vaxtı müəyyənləşdirir.

Departamentin tərkibinə bir sıra müxtəlif agentliklər daxildir. Məsələn, Milli Standartlar və Texnologiyalar İnstitutu yeni texnologiya, ölçü və standartların inkişafı və tətbiqi sahəsində sənaye sektoru ilə birlikdə çalışaraq iqtisadi yüksəlişin inkişafını sürətləndirir. Milli Hava Xidmətinin də daxil olduğu Milli Okean və Atmosfer İdarəsi Yer kürəsinin mühafizəsi problemlərinin anlaşılması və ölkənin sahilyanı və dəniz ehtiyatlarının konservləşdirilməsinə xidmət edir. Patent və Ticarət Nişanları Ofisi müəlliflərin və ixtiracıların öz əsər və ixtiralarına müstəsna hüquqlarını təmin etməklə elm və faydalı sənətlərin tərəqqisini sürətləndirir. Milli Telekommunikasiya və İnformasiya İdarəsi prezidentə telekommunikasiya siyasəti barədə tövsiyələr verir, yenilikləri stimullaşdırmağa, rəqabəti gücləndirməyə, iş yerləri açmağa çalışır və istehlakçıları ən aşağı qiymətə daha keyfiyyətli telekommunikasiya xidmətləriylə təmin edir.

Müdafiə Departamenti

Baş qərargahı Pentaqonda, dünyanın ən böyük idarə binalarından birində yerləşən Müdafiə Departamenti (DOD) ölkənin hərbi təhlükəsizliyilə bağlı bütün məsələlər üçün məsuliyyət daşıyır. Departament Birləşmiş Ştatları həqiqi hərbi xidmətdə olan təxminən 1 miylon kişi və qadından ibarət hərbi qüvvə ilə təmin edir. Ölkənin təhlükəsizliyi ilə bağlı fövqəladə hallarda Milli Qvardiya adlanan 1,5 milyon nəfərlik ştat ehtiyat hissələri həmin hərbi qüvvəyə dəstək verir. Bundan əlavə, Müdafiə

Departamentində araşdırma, kəşfiyyat kommunikasiyası, kartoqrafiya və beynəlxalq təhlükəsizlik məsələləri kimi bir sıra sahələr üzrə 730.000 mülki işçi çalışır.

Dövrünün müdafiə katibi Uilyam C. Perri 1976-cı ildə Nyu Yorkdakı ABŞ Vest Poynt Hərbi Akademiyasında məzunlara diplom təqdim edir.

ABŞ-ın dövlət fəaliyyətinin himayə edilməsi məqsədilə yüksək səviyyədə ixtisaslaşmış kəşfiyyat işini əlaqələndirən, idarə və icra edən Milli Təhlükəsizlik Agentliyi də müdafiə katibinin tabeliyindədir.

Departament müstəqil təşkil olunmuş hərbi quru, dəniz, dənizaltı və hava qüvvələri departamentlərinə, eləcə də dörd hərbi xidmət akademiyasına və Milli Müharibə Kollecinə, Birləşmiş Qərargah Rəhbərliyinə və bir neçə xüsusi döyüş komandasına rəhbərlik edir. Müdafiə Departamenti müqavilə öhdəliklərini yerinə yetirmək, ölkənin uzaqda yerləşən ərazilərini və ticarətini qorumaq, hava döyüşləri aparmaq və hərbi qüvvələri yardımla təmin etmək məqsədilə xarici ölkələrdə hərbi qüvvələr saxlayır. Departamentin qeyri-hərbi öhdəliklərinə daşqınlara nəzarət etmək, okeanoqrafik ehtiyatları inkişaf etdirmək və neft rezervuarlarını idarə etmək daxildir.

Təhsil Departamenti

ABŞ sistemində məktəblər başlıca olaraq yerli məsuliyyət xarakteri daşıdığından, Təhsil Departamenti Amerika təhsil sistemində ən vacib məsələlərlə məşğul olan milli lider kimi fəaliyyət göstərir, ştat və yerli təhsil işçilərinə öz məktəblərini yaxşılaşdırmaqda köməklik göstərmək üçün informasiyalar üzrə hesablama palatası rolunu oynayır. Departament təhsil siyasətini müəyyənləşdirir, təhsil alanlara kredit proqramları, imkansız və fiziki cəhətdən qüsurlu şagird və tələbələr üçün proqramlar və tətil proqramları da daxil olmaqla, federal təhsilə yardım proqramlarını həyata keçirir.

Nyu York Sitidə dövlət məktəbində uşaqlar sinif çalışmasını yerinə yetirirlər.

1990-cı illərdə Təhsil Departamenti öz fəaliyyətini əsasən bu məsələlər üzərində cəmləşdirmişdi: bütün tələbələr üçün standartların yüksəldilməsi, təlimin yaxşılaşdırılması, valideynlərin və ailələrin uşaqların təhsilinə cəlb edilməsi, məktəblərin təhlükəsiz, intizamlı və narkotik maddələrdən uzaq hala gətirilməsi, məktəblə iş arasında əlaqələrin möhkəmləndirilməsi, kolleclərdə oxuya və treninq keçə bilmələri üçün tələbələrin maliyyə yardımı alma imkanlarının artırılması və texnoloji cəhətdən savadlı ola bilmələri üçün bütün uşaqlara köməklik göstərilməsi.

Energetika Departamenti

1970-ci illərdə ölkədə enerji problemləriylə bağlı narahatlığın artması Konqresin Energetika Departamenti (DOE) yaratmasına səbəb oldu. Yeni departament energetika sahəsində fəaliyyət göstərən bir neçə dövlət agentliyinin funksiyalarını öz üzərinə götürdü. Energetika Departamentinə daxil olan idarələr energetika texnologiyalarının tədqiqi, inkişafı və tətbiqi; enerji konservasiyası, atom enerjisindən mülki və hərbi məqsədlə istifadə, enerji istehsalı və onlardan istifadənin tənzimlənməsi, neft məhsullarına qiymət qoyulması və onların bölüşdürülməsi, mərkəzi energetika məlumat bazası və təhlil proqramı üçün məsuliyyət daşıyır.

Energetika Departamenti enerji məhsulları istehsalının zərərli təsirini minimum həddə endirmək üçün normalar təyin etməklə ölkədə ətraf mühitin qorunması ilə də məşğul olur. Məsələn, Energetika Departamenti enerji çirkləndiriciləri və onların bioloji sistemlərə təsiriylə bağlı araşdırmalar kimi ətraf mühit və sağlamlıq tədqiqatları da həyata keçirir.

Səhiyyə və Humanitar Xidmətlər Departamenti

Təxminən 300 proqrama nəzarət edən Səhiyyə və Humanitar Xidmətlər Departamenti (HHS) bəlkə də amerikalıların həyatına digər federal idarələrdən daha çox birbaşa təsir göstərir. Onun ən böyük tərkib hissəsi olan Sağlamlığa Qayğının Maliyyələşdirilməsi İdarəsi, hər beş amerikalıdan birinin sağlamlıq qayğısı xərclərinin ödənilməsini təmin edən tibbi sığorta və tibbi qayğı proqramlarını gerçəkləşdirir. Tibbi sığorta proqramı 30 milyon yaşlı və əlil amerikalını sağlamlıq sığortası ilə təmin edir. Birgə federal-ştat proqramı olan «Tibbi qayğı» proqramı isə 15 milyonu uşaq olmaqla, 31 milyon azgəlirli insanın sağlamlıq xərclərinin ödənilməsini təmin edir.

Qocalıq problemləri üzrə mütəxəssis, doktor Tereza Fam Kaliforniya ştatı, Los Anceles şəhərindəki reabilitasiya mərkəzində xəstə ilə söhbət edir.

Səhiyyə və Humanitar Xidmətlər Departamenti həmçinin dünyanın ilk tibbi araşdırma təşkilatı olan Milli Sağlamlıq İnstitutuna rəhbərlik edir; bu mərkəz xərçəng, alzeymer, şəkər, artrid, ürək qüsuru və QİÇS kimi xəstəliklər sahəsində təxminən 30.000 araşdırma proqramını dəstəkləyir. Səhiyyə Departamentinin digər agentlikləri ölkənin qida və dərman ehtiyatlarının təhlükəsizliyinə və effektivliyinə zəmanət verir, yoluxucu xəstəliklərin yayılmasının qarşısını alır, Amerika hindularına və Alyaska əhalisinə tibbi xidmət göstərir, sui-istifadələrə qarşı təsirli mübarizə, əlavə müalicə və ruhi sağlamlıq xidmətlərinin keyfiyyətcə yaxşılaşdırılmasına və onlara yol tapılmasına kömək edir.

Mənzil və Urbanizasiyanın İnkişafı Departamenti

Mənzil və Urbanizasiyanın İnkişafı Departamenti (HUD) ictimai inkişafa yardım proqramlarını idarə edir, əhalinin mümkün qədər mənzillə təmin olunmasına köməklik göstərir. Bu departamentin idarə etdiyi ədalətli mənzil qanunları ayrı-ayrı fərdlərin və ailələrin heç bir ayrı-seçkiliyə məruz qalmadan ev satın ala bilmələrinin təmin edilməsi məqsədini güdür. Departament, həmçinin, ailələrə ev sahibi olmaqda kömək edən girov sığortası proqramlarını və başqa yolla münasib ev ala bilmək iqtidarında olmayan azgəlirli ailələr üçün icarə subsidiyası proqramını yönləndirir. Bundan əlavə, o, qonşuluq əlaqələrinin inkişafına yardım edən, urbanizasiya mərkəzlərini zərərverici həşəratlardan qoruyan və yeni icmaları inkişafa cəsarətləndirən proqramları həyata keçirir. Mənzil və Urbanizasiyanın İnkişafı Departamenti, həmçinin, ev alıcılarını bazarlarda müdafiə edir və mənzil tikintisini stimullaşdırmaq üçün müvafiq proqramları inkişaf etdirir.

Daxili İşlər Departamenti

Ölkənin ən başlıca konservasiya idarəsi kimi Daxili İşlər Departamenti Birləşmiş Ştatlarda federal dövlət torpaqları və təbii ehtiyatların əksəriyyəti üçün məsuliyyət daşıyır. ABŞ Balıqçılıq və Yabanı Təbiət Xidməti 500 yabanı təbiət qoruğuna, 37 subtropik idarəçilik dairəsinə, 65 milli balıqyetişdirmə məntəqəsinə və yabanı təbiətlə bağlı qanunların icrasını həyata keçirən agentliklər şəbəkəsinə rəhbərlik edir. Milli Park Xidməti isə 370-dən çox

milli park və abidəni, mənzərəli şosse və çay yollarını, dəniz sahillərini, tarixi yerləri idarə edir və bu yolla Amerikanın təbii və mədəni irsini qoruyub saxlamağa çalışır.

Torpaq İdarəçiliyi Bürosu vasitəsilə departament torpaq ehtiyatlarına və təbii ehtiyatlara – əkin və istirahət ərazilərindən tutmuş ağac materialları və neft istehsalına kimi, başlıca olaraq ölkənin qərb hissəsində yerləşən milyonlarla hektar dövlət mülkiyyətində olan torpaq sahələrinə nəzarət edir. Meliorasiya Bürosu yarımquraq qərb ştatlarındakı çox qıt olan su ehtiyatlarını idarə edir. Daxili İşlər Departamenti Birləşmiş Ştatlarda mədən işlərini tənzimləyir, mineral ehtiyatları qiymətləndirir, Amerika hinduları və yerli Alyaska tayfalarının ona etibar edilən resurslarının qorunması və konservasiyası üçün məsuliyyət daşıyır. Beynəlxalq aləmdə departament ABŞ-ın Virciniya adalarındakı, Quam, Amerika Samoası və Şimali Mariana adalarındakı ərazilərində federal siyasəti əlaqələndirir və Marşall adalarında, Mikroneziya Federativ Ştatlarında və Palauda inkişafın fondlaşmasına nəzarət edir.

Narkotik Maddələrə qarşı Mübarizə İdarəsinin sahə agentləri bu qurumun Kaliforniya ştatı, San Fransisko şəhərindəki şöbəsinin xüsusi agenti Mişel Leonhartla görüşürlər.

Ədliyyə Departamenti

Ədliyyə Departamenti ABŞ dövlətini hüquqi məsələlərdə və məhkəmələrdə təmsil edir və tələb əsasında prezidentə və icra departamentlərinə hüquqi məsləhət və rəylər verir. Ədliyyə Departamentinə federal dövlətin qanunların tətbiqi ilə məşğul olan əsas məmuru, Birləşmiş Ştatların baş atornisi (ədliyyə naziri – red.) başçılıq edir. Departamentin Federal Təhqiqat Bürosu (FBİ) federal cinayətlərə qarşı qanunların tətbiqi ilə məşğul olan əsas orqandır və onun İmmiqrasiya və Naturalizasiya Xidməti immiqrasiya qanunlarını idarə edir. Departament daxilindəki ən böyük idarə Narkotik Maddələrə Qarşı Mübarizə İdarəsidir (DEA); bu idarə narkotik maddələrdən istifadə olunmasına qarşı mübarizə aparır, qanunların vəziyyətinə nəzarət edir və narkotik maddələrin daşınması ilə məşğul olan iri qeyri-qanuni təşkilatları izləyib üzə çıxarır.

Ədliyyə Departamenti, həmçinin, yerli polis qüvvələrinə kömək göstərir. Bundan əlavə, departament ölkənin hər yerində rayon atornilərinə və polis rəislərinə rəhbərlik edir, federal məhkəmələr və digər cəza institutlarına nəzarət edir, zaminəgötürülmə və əfvolunma haqqında müraciətləri araşdırır və onlar barədə prezidentə məlumat verir. Ədliyyə Departamenti, həmçinin, 176 üzv ölkənin polis təşkilatları arasında qarşılıqlı yardımın genişləndirilməsi məqsədilə təsis edilmiş olan Cinayət Məsələləri üzrə Beynəlxalq Polis Təşkilatı – İNTERPOLa bağlıdır.

Əmək Departamenti

Əmək Departamenti Birləşmiş Ştatlarda əməkhaqqı qazananların rifahını yaxşılaşdırır, iş şəraitinin yaxşılaşdırılmasına kömək edir və işçilərlə menecerlər arasında mehriban əlaqələri genişləndirməyə çalışır. Departament Məşğulluğun Təhlükəsizliyi və Sağlamlığı İdarəsi, Məşğulluq Standartları İdarəsi və Mədən İşlərinin Təhlükəsizliyi və Sağlamlığı İdarəsi kimi agentliklər vasitəsilə federal əmək qanunlarını idarə edir. Bu qanunlar işçilərə təhlükəsiz və sağlam iş şəraiti, saathesabı əməkhaqqı və əlavə iş saatları üçün ödənişlər, işə götürülərkən ayrı-seçkiliyə məruz qalmamaq azadlığı, işsizlik sığortası və iş başında zədələnmələrə görə kompensasiya üçün zəmanət verir. Departament, həmçinin, işçilərin pensiya hüququnu qoruyur, iş treninqi proqramlarına sponsorluq edir və işçilərə iş tapmaqda köməklik göstərir. Onun Əmək Statistikaları Bürosu məşğulluq, qiymətlər və digər milli iqtisadi tədbirləri müşahidə edir və onlarda baş verən dəyişikliklər barədə məlumat verir. İş axtaranlarla bağlı departament yaşlılara, cavanlara, azlıq nümayəndələrinə, qadınlara və fiziki cəhətdən qüsurlu olanlara iş tapmaqda kömək edə bilmək üçün xüsusi səy göstərir.

Dövlət Departamenti

Dövlət Departamenti Birləşmiş Ştatların xarici siyasətinin formalaşdırılması və icrası ilə bağlı bütün məsuliyyətləri öz üzərində daşıyan prezidentə məsləhətlər verir. Departament Amerikanın xarici maraqlarını dəyərləndirir, cari siyasət və gələcək fəaliyyət barədə tövsiyələr verir, müəyyən olunmuş siyasət planlarının həyata keçirilməsi üçün zəruri addımlar atır. O, Birləşmiş Ştatlarla xarici ölkələr arasındakı əlaqə və münasibətləri gerçəkləşdirir, yeni xarici dövlətləri və hökumətləri tanımaq barədə prezidentə məsləhətlər verir, xarici ölkələrlə saziş və müqavilələr bağlayır, BMT-də və digər iri beynəlxalq təşkilatlarda Birləşmiş Ştatlar adından çıxış edir. Departamentin bütün dünyada 250 diplomatik və konsulluq məntəqəsi var. 1999-cu ildə Dövlət Departamenti ABŞ Silahlara Nəzarət və Tərksilah Agentliyini və ABŞ İnformasiya Agentliyini öz strukturu və missiyası tərkibinə daxil etmişdir.

Nəqliyyat Departamenti

Nəqliyyat Departamenti (DOT) magistral şosse yollarının planlaşdırılması, inkişafı və konstruksiyası, yaşayış yerlərindən keçən tranzit yolların, dəmir yolları, mülki aviasiya və su yollarının, limanlar və magistral şosse yollarının, neft və qaz kəmərlərinin təhlükəsizliyi məsələlərini əhatə edən 10 əməliyyat vahidi vasitəsilə ölkənin bütün nəqliyyat siyasətini müəyyənləşdirir.

Məsələn, Federal Aviasiya İdarəsi ölkənin hər yerində hava limanı qüllələrini, hava yollarına nəzarət mərkəzlərini və uçuş xidməti stansiyalarını işlədir. Federal Şosse Yolları İdarəsi ştatlararası şosse yolları sisteminin, şəhər və kənd yerləri yollarının və körpülərin yaxşılaşdırılması üçün ştatlara maliyyə yardımı göstərir. Milli Şosse Yolları Nəqliyyatının Təhlükəsizliyi İdarəsi avtomobillər və avtomobil hissələri üçün təhlükəsiz istismar standartları müəyyənləşdirir, Dənizçilik İdarəsi ABŞ ticarət donanmalarını idarə edir. Ölkənin dənizdə başlıca qanun keşikçisi və icazə agentliyi olan ABŞ Sahilyanı Keşik Xidməti dənizdə axtarış və xilasetmə missiyasını həyata keçirir, narkotik maddə qaçaqmalçılığına

Federal Aviasiya İdarəsinin hava yolu nəzarətçilərindən biri bu qurumun Vaşinqton ştatı, Sietl şəhərindəki regional mərkəzində radar ekranını müşahidə edir.

qarşı mübarizə aparır, suya neft axıdılması və okean çirklənmələri hallarının qarşısını almağa çalışır.

Xəzinədarlıq Departamenti

Xəzinədarlıq Departamenti ölkənin maliyyə və pul ehtiyaclarının ödənilməsi üçün məsuliyyət daşıyır. Departament dörd əsas funksiyanı yerinə yetirir: maliyyə, vergi və fiskal (xəzinə – red.) siyasətləri formalaşdırır; ABŞ hökumətinin maliyyə agenti kimi fəaliyyət göstərir; xüsusi qanunların tətbiq olunmasını təmin edir; sikkə və əskinaslar buraxır. Xəzinədarlıq Departamenti dövlətin və milli iqtisadiyyatın maliyyə durumu haqda Konqresə və prezidentə məlumat verir. O, ştatlararası və xarici ticarətdə spirtli içkilər, tütün və odlu silah satışını tənzimləyir, ABŞ Poçt Xidməti üçün marka buraxılışına nəzarət edir; prezidentin, vitse-prezidentin, onların ailələrinin və ölkədə səfərdə olan yüksək rütbəli şəxslərin və dövlət başçılarının həyatlarını mühafizə edən Məxfi Xidmət İdarəsini idarə, saxta pul və qiymətli kağız buraxılışını qadağan edir və ölkəyə daxil olan malları tənzimləyən və onlara vergi qoyan Gömrük Xidməti İdarəsinə rəhbərlik edir.

Departamentin tərkibinə təxminən 2900 milli bankın idarə olunması ilə bağlı qanunların icrasını həyata keçirən xəzinədarlıq məmurunun – Pul Tədavülü Nəzaratçisinin İdarəsi daxildir. Daxili Gəlir Xidməti (İRS) əksər federal dövlət gəlirlərinin mənbəyi olan vergilərin müəyyən edilməsi, qiymətləndirilməsi və toplanması üçün məsuliyyət daşıyır.

Veteran İşləri Departamenti

1930-cu ildə müstəqil agentlik kimi təsis edilən və 1989-cu ildə kabinet səviyyəsinə yüksəldilən Veteran İşləri Departamenti

Məxfi Xidmət İdarəsinin əməkdaşları 1993-cü ildə Vaşinqtonda inauqurasiya paradında prezident Bill Klintonun maşınını müşayiət edir.

(VA) ABŞ-ın ehtiyac duyan hərbi xidmət veteranlarına və onların himayəsində olanlara müavinətlər və qulluq yardımları təmin edir. Veteranların Sağlamlığı İdarəsi 173 tibbi mərkəz, 40 qocalar evi, 600 klinika, 133 pansionat və Birləşmiş Ştatların özündə, Puerto-Rikada və Filippində yerləşən 206 Vyetnam veteranları mərkəzi vasitəsilə xəstəxana və pansionat qayğısı, tibbi və stomatoloji ambulator xidməti göstərir. O, həmçinin yaşlanma, qadın sağlamlığı məsələləri, QİÇS və posttravmatik stress pozğunluqları kimi sahələrdə tibbi araşdırmalar həyata keçirir.

Veteran Müavinətləri İdarəsi əlillik müavinətləri, pensiyalar, xüsusi uyğunlaşdırılmış mənzillərlə təmin olunma ilə bağlı müraciətlərə baxır. Veteran Müavinətləri İdarəsi, həmçinin, veteranlar üçün təhsil proqramlarını həyata keçirir və ehtiyacı olan veteranlara və həqiqi hərbi xidmətdə olan xidmət personalına ev almaq üçün kredit yardımı göstərir. Veteran Müavinətləri İdarəsinin Milli Məzarlıq Sistemi Birləşmiş Ştatların müxtəlif yerlərində yerləşən 116 məzarlıq daxilində veteranları və onların ehtiyacı olan ailə üzvlərini dəfn xidmətləri, başdaşları və sinədaşları ilə təmin edir.

MÜSTƏQİL AGENTLİKLƏR

İcra departamentləri federal dövlətin ən başlıca əməliyyat vahidləridir, amma bununla yanaşı bir çox digər agentliklər də onun fəalliyyəti və iqtisadiyyatın rahat işləməsi üçün mühüm əhəmiyyət kəsb edir. Onlar icra departamentlərinin tərkib hissələri olmadıqları üçün adətən müstəqil agentliklər adlandırılır.

Bu agentliklərin strukturu və məqsədi birbirindən xeyli fərqlidir. Onların bəziləri iqtisadiyyatın müəyyən sektorlarına nəzarət etmək səlahiyyətinə malik tənzimləmə qruplarıdır. Digərləri dövlət və yaxud da xalq üçün xüsusi xidmətlər təmin edir. Əksər hallarda bu agentliklər Konqres tərəfindən, ümumi qanunvericiliyin fəaliyyət dairəsi üçün həddən artıq mürəkkəb olan məsələlərlə məşğul olmaq məqsədilə yaradılıb. Məsələn, 1970-ci ildə Konqres ətraf mühiti mühafizə etmək məqsədilə dövlət fəaliyyətini əlaqələndirmək üçün Ətraf Mühiti Mühafizə Agentliyini təsis edib. Ən mühüm müstəqil agentliklər aşağıdakılardır:

Mərkəzi Kəşfiyyat İdarəsi (CİA) müəyyən dövlət departamentləri və agentliklərinin kəşfiyyat fəaliyyətlərini əlaqələndirir, milli təhlükəsizliklə bağlı informasiyaları toplayır, təhlil edir, dəyərləndirir və Prezident Aparatı tərkibindəki Milli Təhlükəsizlik Şurasına müvafiq tövsiyələr verir.

Ətraf Mühiti Mühafizə Agentliyi (EPA) hava və su çirklənməsinə nəzarət etmək və bu çiklənmələri azaltmaq, sənaye tullantı-

ları, pestisidlər, radiasiya və toksik maddələrlə bağlı problemləri həll etmək məqsədilə ABŞ-ın hər yerində ştat və yerli hökumətlərlə birlikdə çalışır. EPA havanın və suyun keyfiyyəti üçün normalar müəyyənləşdirir və onları qanun qüvvəsinə mindirir, pestisidlərin və kimyəvi maddələrin təsirini qiymətləndirir və toksik tullantı yerlərinin təmizlənməsi üçün «Sepurfond» proqramını həyata keçirir.

Federal Kommunikasiya Komissiyasına (FCC) radio, televiziya, telefon xətti, peyk və kabel televiziyası vasitəsilə gerçəkləşdirilən ştatlararası və beynəlxalq kommunikasiyaları tənzimləmək həvalə edilib. O, radio və televiziya verilişləri stansiyalarını lisenziyalaşdırır, radiotezlikləri təyin edir və kabel normalarının müvafiqliyinin təmin edilməsi məqsədilə tərtib olunmuş tənzimləmələri həyata keçirir. FCC telefon və teleqraf şirkətləri, eləcə də telsiz telekommunikasiya xidmətləri provayderləri kimi ümumi daşıyıcıların işini tənzimləyir.

Fövqəladə Hallar üzrə Federal İdarəçilik Agentliyi (FEMA) daşqınlar, tufanlar, zəlzələlər və digər təbii fəlakətlər zamanı federal, ştat və yerli agentliklərin işini əlaqələndirir. FEMA şəxsi evlərin, biznes və dövlət binalarının yenidən bərpa edilməsində fərdlərə və yerli hökumətlərə maliyyə yardımı göstərir, yanğınsöndürənlər və fövqəladə hallar üçün peşəkar tibbi xidmət personalı hazırlayır, ölkənin hər yeri ilə bağlı fövqəladə hallar üçün planlaşdırmaları fondlaşdırır.

Federal Ehtiyatlar İdarəsi Federal Ehtiyatlar Sisteminin idarəedici orqanı, Birləşmiş Ştatların mərkəzi bankıdır. O, dövriyyədə olan kreditlərin və pulun həcminə təsir göstərməklə ölkənin pul siyasətini həyata keçirir. Federal Ehtiyatlar özəl bankların işini tənzimləyir, maliyyə bazarlarında sistematik risklərə yol verilməməsinə çalışır və Birləşmiş Ştatlar hökumətinə, ictimai və maliyyə institutlarına müəyyən maliyyə xidmətləri göstərir.

Balıqçı öz tilovunu Ohayo ştatındakı Böyük Mayami çayına atır: bu çay Ətraf Mühiti Mühafizə Agentliyinin qoyduğu normalara uyğun olaraq təmizlənmişdir.

Fövqəladə Hallar üzrə Federal İdarəçilik Agentliyi 1999-cu ildə Şimali Karolina, Roki Mountda baş vermiş Floyd qasırğasından zərər çəkənləri treyler tipli evlərlə təmin etmişdir.

Federal Ticarət Komissiyası (FTC) istehlakçılar, biznes müəssisələri tərəfindən irəli sürülən iddialar, Konqresin tələbləri və mətbuatdakı xəbərlər əsasında meydana çıxan şikayətləri tədqiq etməklə inhisarçılıq əleyhinə və istehlakçıların qorunması ilə bağlı federal qanunların tətbiqini həyata keçirir. Komissiya ədalətsiz və saxta praktikaları aradan qaldırmaqla ölkə bazarlarının sağlam rəqabət içərisində fəaliyyət göstərə bilməsinin təmin olunmasına çalışır.

Ümumi Xidmətlər İdarəsi (GSA) federal əmlakın, binaların və avadanlıqların tədarükü, təchizi, istismarı, saxlanılması və eləcə də artıq şeylərin satılması üçün məsuliyyət daşıyır. GSA, həmçinin, federal avtomobil parklarını idarə edir, telekommunikasiya mərkəzlərinə və uşaqlara qayğı mərkəzlərinə nəzarəti həyata keçirir.

Milli Aeronavtika və Kosmos İdarəsi (NASA) 1958-ci ildə ABŞ-ın kosmos proqramına rəhbərlik etmək üçün təsis edilib. O, Amerikanın ilk peyklərini və astronavtlarını orbitə çıxarıb, 1969-cu ildə Aya insan çıxaran «Apollon» kosmik gəmisini kosmosa buraxıb. Bu gün NASA Yer kürəsi orbitindən kənardakı peyklər və planetlərarası avtomatik elmi-tədqiqat stansiyaları vasitəsilə araşdırmalar aparır, aerokosmos texnologiyasının yeni konsepsiyalarının tədqiqi üzərində çalışır və ABŞ-ın kosmosa insan çıxaran şatl tipli kosmik gəmilərinin uçuşlarını idarə edir.

Milli Arxiv və Məlumatlar İdarəsi (NARA) bütün federal məlumatların idarə olunmasına nəzarət etməklə ölkənin tarixini qoruyub saxlayır. Milli Arxivin eksponatlarına orijinal mətn materialları, kinofilmlər, səsli və görüntülü məlumatlar, xəritələr, səssiz filmlər və kompüter məlumat bazaları daxildir. İstiqlal Bəyannaməsi, ABŞ Konstitusiyası və Hüquqlar haqqında Bill Milli Arxiv İdarəsinin Vaşinqtondakı binasında qorunub saxlanılır və nümayiş etdirilir.

Astronavt Fred V. Lesli 1995-ci ildə şatl tipli «Kolumbiya» kosmik gəmisində kosmosa uçmuşdur: bu uçuş zamanı o, atmosferin və qaza bənzər mühitin dinamikasını tədqiq etmişdir.

Milli Əmək Münasibətləri İdarəsi (NLRB) ABŞ-ın əsas əmək qanununu – Milli Əmək Münasibətləri Aktını idarə edir. İdarə ədalətsiz iş praktikalarının qarşısını almaq və onlara görə kompensasiya

ödətdirmək və həmkarlar ittifaqının mövcud olub-olmamasından asılı olmayaraq işçilərin təşkilatlanmaq və sövdələşmək üçün öz nümayəndələrini seçki yolu ilə müəyyənləşdirmək hüququnu qorumaq səlahiyyətinə malikdir.

Milli Elm Fondu (NSF) universitetlərə, kolleclərə, gəlir güdməyən təşkilatlara və kiçik biznes institutlarına ayrılan qrantlar, kontraktlar və digər müqavilələr vasitəsilə Birləşmiş Ştatlarda elm və texnika sahəsində əsas elmi axtarışları və təhsili himayə edir. NSF universitetlər, sənaye müəssisələri və hökumət arasında əməkdaşlığı təşviq edir, elm və texnika sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsinə çalışır.

Personal İdarəçiliyi Ofisi (OPM) federal hökumətin insan ehtiyatları agentliyidir. O, ölkənin mülki xidmət sisteminin siyasi təsirlərdən azad olaraq qalmasına, federal işçilərin ədalətli şəkildə və ləyaqətlərinə görə seçilməsinə və onlara həmin qaydada münasibət bəslənilməsinə zəmanət verir. OPM personal xidmət və siyasət liderliyi ilə məşğul olan agentlikləri himayə edir və federal qocalıq sistemini və sağlamlıq sığortası proqramını yönləndirir.

Sülh korpusları 1961-ci ildə təsis olunub, xarici ölkələrdə iki il müddətinə işləmək üçün könüllülərə təlim keçir və onları həmin ölkələrdə yerləşdirir. Sülh korpusları könüllüləri hazırda təxminən 80 ölkədə çalışır, kənd təsərrüfatı və kənd yerlərinin inkişafına, kiçik biznes müəssisələrinə, sağlamlıq, təbii ehtiyatların konservasiyası və təhsil məsələlərinə yardım göstərirlər.

Qiymətli Kağızlar və Mübadilə Komissiyası (SEC) səhm və istiqrazlar alan investorları qorumaq üçün təsis olunmuşdur. Federal qanunlar öz qiymətli kağızlarını satmaqla pullarını artırmaq istəyən şirkətlərdən öz əməliyyatları barədə məlumatları SEC-ə ötürməyi və beləliklə də investorların bütün maddi informasiyalara yol tapa bilmələrinin təmin olunmasını tələb edir. Komissiya qiymətli kağızların satışında fırıldaqçılığa qarşı mübarizə aparmaq, ona görə cəza tətbiq etmək və birjaların fəaliyyətini tənzimləmək səlahiyyətlərinə malikdir.

Kiçik Biznes İdarəsi (SBA) 1953-cü ildə kiçik biznes müəssisələrinin maraqlarını müdafiə etmək, onlara məsləhətlər vermək və yardım göstərmək məqsədilə təsis olunmuşdur. SBA kiçik biznesə kreditlər təmin edir, daşqın və digər təbii fəlakət qurbanlarına yardım göstərir, azlıq nümayəndələrinin sahib olduqları firmaların genişlənməsini təşviq edir və kiçik biznesin federal hökumətə mal və xidmətlər təklif edən kontraktlarla təmin olunmasına köməklik göstərir.

Sosial Təminat İdarəsi (SSA) ölkənin qocalıq, əlillik və dolanışıq çətinliyi ilə bağlı müavinətlərdən ibarət olan sosial sığorta proqramını həyata keçirir. Bu müavinətləri ala bilmək üçün Amerika işçilərinin əksəriyyəti öz qazanclarına əsasən bu idarəyə vergi ödəyir; gələcəkdə ala biləcəkləri müavinətlər işçilərin bu sistemə ödədiklərindən asılı olur.

ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) Mərkəzi və Şərqi Avropada, keçmiş Sovet İttifaqı məkanında meydana gələn yeni müstəqil dövlətlər kimi inkişaf

Kiçik Biznes İdarəsi Kaliforniya ştatı, Pasedonqa şəhərində İnternet vasitəsilə sous satmaqla məşğul olan Perri və Monika Lopeslər kimi orijinal ideyalara malik insanlara yardım təklif edir.

etməkdə olan ölkələrdə xarici iqtisadi və humanitar yardım proqramlarını gerçəkləşdirir. Agentlik dörd sahə – əhali və sağlamlıq, geniş əsaslı iqtisadi inkişaf, ətraf mühitin mühafizəsi və demokratiya sahələri ilə bağlı proqramları himayə edir.

ABŞ Poçt Xidməti 1971-ci ildə Poçt Ofisi Departamentini əvəz edərək müstəqil ictimai şirkət kimi fəaliyyət göstərir. Poçt Xidməti gündəlik poçtun toplanması, daşınması və paylanması, eləcə də ölkədəki minlərlə yerli poçt məntəqələrinin əməliyyatları üçün məsuliyyət daşıyır. O, həmçinin, Universal Poçt İttifaqı və xarici ölkələrlə digər sazişlər vasitəsilə beynəlxalq poçt xidmətini həyata keçirir. 1971-ci ildə yaradılan Poçt Normaları Komissiyası müxtəlif poçt növləri üçün normalar müəyyənləşdirir. ❑

Vaşinqton ştatı, Sietl şəhərində ABŞ Poçt Xidməti işçiləri agentliyin əməliyyat şöbəsində poçtları seçmək üçün yüksək texniki vasitələrdən istifadə edirlər.

BİRLƏŞMİŞ ŞTATLAR DÖVLƏTİ

KONSTİTUSİYA

QANUNVERİCİ QANAD

Konqres
Senat **Nümayəndələr Palatası**

Kapitoliya Memarı
Konqresin Büdcə Ofisi
Baş Hesablama Ofisi
Dövlət Nəşr Ofisi
Konqres Kitabxanası
Texnoloji Qiymətləndirmə Ofisi
Stennis İctimai Xidmət Mərkəzi

İCRAÇI QANAD

Prezident **Vitse-Prezident**
Prezidentin İcra Aparatı

İqtisadi Müşavirlər Şurası
Ətraf Mühitə Nəzarət Şurası
Milli İqtisadiyyat Şurası
Milli Təhlükəsizlik Şurası
İdarəçilik və Büdcə Ofisi
Milli QİÇS Siyasəti Ofisi
Narkotik Maddələrə Milli Nəzarət Siyasəti Ofisi
Elm və Texnologiya Siyasəti Ofisi
Prezidentin Xarici Kəşfiyyat üzrə Məsləhət Şurası
ABŞ Ticarət Təmsilçiliyi
Ağ ev Qadın Təşəbbüsləri və Təklifləri Ofisi

MƏHKƏMƏ QANADI

Ali Məhkəmə

ABŞ apellyasiya məhkəmələri
ABŞ Federal dairə məhkəmələri üçün Apellyasiya Məhkəməsi
ABŞ dairə məhkəmələri
ABŞ Federal İddialar Məhkəməsi
ABŞ Beynəlxalq Ticarət Məhkəməsi
ABŞ Vergi Məhkəməsi
ABŞ Silahlı Qüvvələr üçün Apellyasiya Məhkəməsi
ABŞ Veteranlar üçün Apellyasiya Məhkəməsi
ABŞ Məhkəmələrinin İnzibati Ofisi
Federal Hüquq Mərkəzi

- Kənd Təsərrüfatı Departamenti
- Ticarət Departamenti
- Müdafiə Departamenti
- Təhsil Departamenti
- Energetika Departamenti
- Səhiyyə və Humanitar Xidmət Departamenti
- Mənzil və Urbanizasiyanın İnkişafı Departamenti
- Daxili İşlər Departamenti
- Ədliyyə Departamenti
- Əmək Departamenti
- Dövlət Departamenti
- Nəqliyyat Departamenti
- Xəzinədarlıq Departamenti
- Veteran İşləri Departamenti

Müstəqil qurumlar, dövlət korporasiyaları və qeyri-rəsmi agentliklər

Tarixin qorunub saxlanılması üzrə Məsləhət Şurası
Mərkəzi Kəşfiyyat İdarəsi
İnsan Hüquqları Komissiyası
Mal Müqavilələri Ticarəti Komissiyası
İstehlak Mallarının Təhlükəsizliyi Komissiyası
Milli Xidmət Korporasiyası
Ətraf Mühiti Mühafizə Agentliyi
Bərabər Məşğulluq İmkanları Komissiyası
Birləşmiş Ştatların İdxal-İxrac Bankı
Fermer Kreditləri İdarəsi
Federal Kommunikasiyalar Komissiyası
Federal Depozit Sığortası Şirkəti
Federal Seçki Komissiyası
Fövqəladə Hallar üzrə Federal İdarəçilik Agentliyi
Federal Əmək Münasibətləri Müdiriyyəti
Federal Dənizçilik Komissiyası
Federal Ehtiyatlar Sistemi
Pensiya Yığımlarının İnvestisiyalaşdırılması üzrə Federal İdarə
Federal Ticarət Komissiyası
Ümumi Xidmətlər İdarəsi
Ləyaqət Sistemlərinin Qorunması İdarəsi
Milli Aeronavtika və Kosmos İdarəsi
Milli Arxiv və Məlumatlar İdarəsi
Sənət və Humanitar Elmlər üzrə Milli Fond
Milli Əmək Münasibətləri İdarəsi
Milli Dəmiryol Sərnişin Şirkəti
Milli İcraçılıq İcmalı
Milli Elm Fondu
Milli Nəqliyyat Təhlükəsizliyi İdarəsi
Nüvə Tənzimləmələri Komissiyası
Məşğulluğun Təhlükəsizliyi və Sağlamlığı Komissiyası
Dövlət Etiketləri Ofisi
Personal İdarəçiliyi Ofisi
Xüsusi Şura Ofisi
Xarici Özəl İnvestisiyalaşdırma Şirkəti
Sülh korpusları
Pensiya Müavinətləri Zəmanət Şirkəti
Poçt Normaları Komissiyası
Dəmiryol Pensiya İdarəsi
Qiymətli Kağızlar və Mübadilə Komissiyası
Seçmə Servis Sistemləri
Kiçik Biznes İdarəsi
Smitson Təminat İdarəsi
Sosial Təminat İdarəsi
Tennessi Vadi Müdiriyyəti
ABŞ Beynəlxalq İnkişaf Agentliyi
ABŞ Beynəlxalq Ticarət Komissiyası
ABŞ Poçt Xidməti
ABŞ Ticarət və İnkişaf Agentliyi
«Amerikanın səsi» radiosu

ABŞ Kapitoliyası

FƏSİL
4

QANUNVERİCİ
QANAD

KONQRESİN TƏSİR DAİRƏSİ

«Dövlət qanunları yaratmaq səlahiyyətinə sahibdir»
– Aleksandr Hamilton, «Federalist Məqalələr», 1787–1788

Konstitusiyanın birinci maddəsi federal dövlətin bütün qanunvericilik səlahiyyətilərini iki palataya – Senata və Nümayəndələr Palatasına bölünən Konqresə vermişdir. Senat, Konstitusiyada nəzərdə tutulduğu kimi, hər bir ştatın iki üzvündən ibarətdir. Hazırda onun üzvlərinin sayı 100 nəfərdir. Nümayəndələr Palatasına üzvlük hər bir ştatın əhalisinin sayına əsaslanır və ona görə də bu palatanın üzvlərinin sayı Konstitusiyada konkret təsbit olunmamışdır. Hazırda onun 435 üzvü var.

Konstitusiya qəbul edildikdən sonrakı 100 il ərzində senatorlar birbaşa əhali deyil, ştat qanunvericiləri tərəfindən seçilmişdir və onlara öz doğma ştatlarının təmsilçiləri kimi baxılmışdır. Senatorların vəzifəsi bütün qanunların qəbul edilməsində öz ştatlarının mənafelərini bərabər şəkildə təmin etməkdən ibarət olmuşdur. 1913-cü ildə qəbul edilən On yeddinci Əlavə Senat üzvlərinin əhali tərəfindən birbaşa seçilməsini təmin etmişdir.

Konstitusiya konventi nümayəndələrinin düşüncəsinə görə, əgər təklif edilən hər qanun layihəsi biri ştat hökumətlərini, digəri isə əhalini təmsil edən iki müstəqil qrup tərəfindən bəyənilərək qəbul edilərsə, onda qanunların Konqresdən sürətlə və diqqətlə araşdırılaraq keçməsi üçün daha az təhlükə yaranar. Britaniya parlamentində olduğu kimi, palataların biri həmişə digərinə nəzarət edir. On yeddinci Əlavənin müddəaları bu iki palatanın səlahiyyətləri arasındakı tarazlığa elə bir ciddi dəyişiklik gətirməmişdir.

Konventdə Konqresin xarakteri və səlahiyyətləri gərgin mübahisələrə səbəb olsa da, nümayəndələrin çoxu qanunverici qanadın nisbətən daha az əhəmiyyət daşıyacağına inanırdı. Bəziləri isə Konqresin daxili məsələləri ştat və yerli hökumətlərin öhdəsinə buraxaraq daha geniş şəkildə xarici məsələlərlə məşğul olacağını güman edirdi. Ancaq bu fikirlərin hər ikisi açıq-aşkar yanlış idi. Konqres geniş səlahiyyətlərə malik olmaqla, milli əhəmiyyət daşıyan bütün məsələlərdə son dərəcə fəal olduğunu sübut etmişdir. İcra qanadı ilə üzbəüz rəqabətdə onun gücü Amerika tarixinin müxtəlif dövrlərində bəzən artıb, bəzən zəifləsə də, Konqres heç zaman prezident qərarları üçün sadəcə rezin möhür rolunu oynamamışdır.

KONQRES ÜZVLÜYÜNƏ QOYULAN TƏLƏBLƏR

Konstitusiya ABŞ senatorlarının ən azı 30 yaşa, ən azı doqquz il Birləşmiş Ştatlar vətəndaşlığına malik olmalarını və seçildikləri ştatlarda yaşamalarını tələb edir. Nümayəndələr Palatasının üzvləri isə ən azı 25 yaşa, yeddi illik vətəndaşlığa malik olmalı və seçildikləri ştatlarda yaşamalıdırlar. Ştatlar Konqresə üzv seçilmək üçün əlavə tələblər qoya bilər, ancaq Konstitusiya hər bir palataya öz üzvləri üçün lazım olan tələbləri müəyyənləşdirmək səlahiyyəti vermişdir.

Hər bir ştata iki senator yeri ayrılmışdır. Bu səbəbdən 3.156 kvadrat kilometrlik bir əraziyə malik ən kiçik ştat – Rod Aylend Senatda 1.524.640 kvadrat kilometrlik ərazisi olan Alyaska ştatı ilə eyni səviyyədə təmsil olunmuşdur. Eləcə də 480.000 nəfər əhalisi olan Vayominq ştatı Senatda 32.270.000 əhalisi olan Kaliforniya ilə bərabər təmsilçiliyə malikdir.

106-cı Konqres üzvləri 1989-cu ilin yanvarında Nümayəndələr Palatasının iclas salonunda andiçmə mərasimini yerinə yetirirlər.

Nümayəndələr Palatası üzvlərinin ümumi sayı Konqres tərəfindən müəyyənləşdirilmişdir. Buradakı nümayənldələr ştatlar arasında onların əhalisinin sayına görə bölünmüşdür. Əhalisinin sayından asılı olmayaraq, hər bir ştatın bu palatada ən azı bir nümayəndə ilə təmsil olunmaq hüququ var. Hal-hazırda yeddi ştatın – Alyaska, Delaver, Montana, Şimali və Cənubi Dakota, Vermont və Vayominqin bu palatada yalnız bir nümayəndəsi var. Altı ştat isə 20-dən çox, o cümlədən Kaliforniya 52 nümayəndəyə malikdir.

Konstitusiya hər on ildən bir ümumölkə səviyyəsində siyahıyaalma keçirilməsini və onun nəticələrinə görə Nümayəndələr Palatasında yerlərin yenidən bölüşdürülməsini təmin edir. İlkin Konstitusiya müddəasına görə, nümayəndələrin sayı hər 30.000 vətəndaşa bir üzvdən çox olmamaqla müəyyən edilmişdi. Birinci çağırış Nümayəndələr Palatasının cəmi 65 üzvü vardı və sonrakı yüz il ərzində bu rəqəm 106-ya çatmışdı. Əgər 30.000 nəfərə 1 üzv formulası olduğu kimi, toxunulmaz qalsaydı, Birləşmiş Ştatlar əhalisinin artımı nəticəsində bu gün Nümayəndələr Palatası üzvlərinin sayı təxminən 7.000 nəfərə çatmış olardı. Ancaq həmin formula bu illər ərzində mütəmadi olaraq əhalinin artımına uyğunlaşdırılmışdır və hazırda hər 600.000 nəfərə 1 üzv düşür.

Ştat qanunvericiləri ştatları Konqresə seçkilər üçün dairələrə bölür, bu dairələrdə

əhalinin sayı faktiki surətdə bərabər olmalıdır. İki ildən bir hər dairənin seçiciləri Konqresə bir üzv seçirlər.

Senatorlar ölkə miqyasında cüt illərdə keçirilən seçkilərdə seçilirlər. Altı il müddətinə seçilən senatorların üçdə biri iki ildən bir yenidən seçilir. Buna görə də həmişə senatorların üçdə ikisi ümumölkə səviyyəsində müəyyən qanunvericilik təcrübəsinə malik adamlar olur.

Nümayəndələr Palatası üzvlərinin hansı bir seçki dövründə isə tamamilə yeni, qanunvericilik təcrübəsi olmayan insanlardan təşkil olunması nəzəri cəhətdən mümkündür. Ancaq praktikada bu palata üzvlərinin əksəriyyəti bir neçə dəfə təkrar seçilir və bu səbəbdən Nümayəndələr Palatası da Senat kimi həmişə təcrübəli qanunvericilər qrupu özəyinə arxalana bilər.

Nümayəndələr Palatasının üzvləri iki il müddətinə seçildikləri üçün bir çağırış Konqresin ömrü iki il hesab olunur. ABŞ Konstitusiyasına İyirminci əlavəyə görə Konqres başqa bir tarix təyin etmədiyi halda öz müntəzəm sessiyasına hər il yanvarın 3-də başlayır. Konqres üzvləri fasilə elan edilməsinə səs verənədək – bu, adətən ilin axırında olur – o öz sessiyasının işini davam etdirir. Prezident zəruri hesab etdiyi halda Konqresin xüsusi sessiyasını çağıra bilər. Sessiyalar Vaşinqton D.C.-də Kapitoliya binasında keçirilir.

NÜMAYƏNDƏLƏR PALATASININ VƏ SENATIN SƏLAHİYYƏTLƏRİ

Konqresin hər iki palatası dövlət gəlirinin artırılmasından başqa istənilən məsələ barədə qanun layihəsini müzakirəyə çıxara bilər; dövlət gəlirlərinin artırılması ilə bağlı qanun layihəsi barədə təkliflər isə ilkin olaraq Nümayəndələr Palatasında irəli sürülməlidir. Bununla da kiçik ştatlara nisbətən iri ştatların ictimai pul kisəsi üzərində daha çox nüfuza malik olduğu üzə çıxır. Ancaq praktikada belədir ki, hər bir palata digərində müzakirədən keçmiş qanun layihəsinin əleyhinə səs verə bilər. Senat Nümayəndələr Palatasının dövlət gəlirləriylə bağlı qanun layihəsini və yaxud bu məsələyə dair istənilən layihəni rədd edə və ya onun mahiyyətini dəyişəcək əlavələr edə bilər. Hər iki halda hər iki palatanın üzvlərindən ibarət konfrans komitəsi layihə qanuna çevrilməmişdən əvvəl hər iki tərəf üçün məqbul olan kompromis işləyib hazırlamalıdır.

Senat, həmçinin, xüsusilə ona həvalə edilən müəyyən səlahiyyətlərə malikdir: buraya prezidentin yüksək rütbəli federal hökumət məmurlarının və səfirlərin təyinatı ilə bağlı qərarlarını möhkəmləndirmək kimi, eləcə də üçdə iki səs çoxluğu ilə bütün xarici müqavilələri təsdiq etmək səlahiyyətləri daxildir. Hər iki halda Senatın mənfi rəyi icra aktının öz qüvvəsini itirməsiylə nəticələnir.

Federal məmurların impiçmentiylə bağlı hallarda yalnız Nümayəndələr Palatası bu şəxslərin öz vəzifələrini yarıtmaz yerinə yetirmələri barədə impiçment məhkəməsinə aparıb çıxara biləcək ittihamlar irəli sürmək hüququna malikdir. İmpiçment məhkəmələri keçirmək və həmin məmurların günahkar olub-olmaması barədə qərar çıxarmaq səlahiyyəti isə yalnız Senata aiddir. Burada günahın təsdiq edilməsi federal dövlət məmurunun öz vəzifəsiylə vidalaşmasına aparıb çıxarır.

Konqresə verilən bütün geniş səlahiyyətlər Konstitusiyanın 1-ci maddəsində sadalanır:

- vergilər müəyyən etmək və toplamaq;
- dövlət xəzinəsi üçün borc almaq;
- ştatlar arasında və xarici dövlətlərlə ticarəti tənzimləyən qanun və qaydaları müəyyənləşdirmək;
- xarici vətəndaşların naturalizasiyası barədə eyni tipli qaydalar müəyyənləşdirmək;
- sikkə kəsmək, onun dəyərini göstərmək, saxta pul və qiymətli kağız buraxılmasına görə cəzalar təyin etmək;
- çəki və ölçü vahidlərini müəyyənləşdirmək;
- bütün ölkə üçün keçərli olan iflas qanunları çıxarmaq;
- poçt məntəqələri yaratmaq və poçt yolları salmaq;
- patent və müəlliflik hüququ ilə bağlı qanunlar çıxarmaq;
- federal məhkəmə sistemi yaratmaq;
- piratlığı cəzalandırmaq;
- müharibə elan etmək;
- ordu toplamaq və onu saxlamaq;
- donanmanı təmin etmək;
- federal qanunları həyata keçirmək, qiyamları yatırmaq və xarici hücumlara cavab vermək üçün milis qüvvələri toplamaq;
- bütün qanunları hökumətin yerləşdiyi yerdə (Vaşinqton şəhərində) qəbul etmək;
- Konstitusiyanın həyata keçirilməsi üçün zəruri olan bütün qanunları qəbul etmək.

Bu səlahiyyətlərdən cüzi bir qismi artıq köhnəlmiş olsa da, onlar indi də qüvvədə qalır. Onuncu əlavə milli dövlətə həvalə edilməyən səlahiyyətlərin ştatların və əhalinin ixtiyarında qaldığını bəyan etməklə Konqresin səlahiyyət gücünə müəyyən məhdudiyyətlər qoymuşqdur. Bundan əlavə, Konstitusiya Konqres üçün müəyyən fəaliyyətləri xüsusilə qadağan etmişdir. Konqres aşağıdakı hərəkətlərə yol verə bilməz:

- Qiyam və ya müdaxilə dövründə zəruri hallar istisna edilməklə, «habeas corpus»un – yəni cinayətdə günahlandırılanların məhkəmə önünə çıxarılması və yaxud həbs edilməzdən əvvəl məhkəmədə mühakimə olunması tələbinin fəaliyyətini dayandırmaq;
- insanları məhkəmədə mühakimə olunmadan cinayətdə və yaxud qeyri-qanuni əməllərdə günahdlandıra biləcək qanunlar qəbul etmək;
- spesifik bir əməli sonradan cinayətə çevirən hər hansı bir qanun qəbul etmək;
- əhalinin artıq keçirilmiş olan siyahıyaalınması faktı əsasında başqa hər hansı bir digər formada adambaşına vergi qoymaq;
- hər hansı bir ştatdan ixrac edilən predmetlərə vergi və ya rüsum qoymaq;
- hər hansı bir ştatın limanına və yaxud onlardan istifadə edən gəmilərə ticarətdə və ya rüsumlarda xüsusi üstünlük vermək;
- hər hansı bir zadəganlıq titulu təsis etmək.

KONQRES MƏMURLARI

Konstitusiyaya görə, vitse-prezident Senatın sədri hesab olunur. O, səsvermədə iştirak etmir, yalnız səslər tək yarıya bölündüyü hallarda onun səsi nəzərə alınır. Vitse-prezidentin yoxluğu halında Senat özünün *pro tempore* sədrini seçir. Nümayəndələr Palatası öz sədrini – palata spikerini özü

1997-ci ildə Senatda çoxluq lideri, Missisipi ştatından olan respublikaçı Trent Lott vergilərin azaldılması ilə bağlı qanun layihəsi Senatda 180 səsə qarşı 80 səslə qəbul edildikdən sonra Florida ştatından olan demokrat senator Bob Qrehemin əlini sıxır. Lott o zaman «hər bir vergi ödəyicisinin həyatın hər bir sahəsində ağır vergi yükündən xilas olunmasını təmin etdiyinə görə» Senata öz təşəkkürünü bildirmişdi.

seçir. Hər bir palatada çoxluq təşkil edən partiya üzvlərindən biri həmişə spiker və Senatın *pro tempore* sədri seçilə bilir.

Konqresin hər bir yeni çağırışının əvvəlində siyasi partiyaların üzvləri öz qrup liderlərini və təklif edilən qanun layihələrinin müzakirəsinin aparılması üçün digər rəsmilərini seçirlər. Bu rəsmilər sədrlik edənlər və komitə rəhbərləriylə birlikdə qanunların qəbul edilməsində güclü təsirə malik olurlar.

KOMİTƏ PROSESLƏRİ

Konqresin ən böyük xüsusiyyətlərindən biri onun işində komitələrin aparıcı rol oynaması ilə bağlıdır. Komitələr bugünkü səviyyələrinə tədricən inkişaf etməklə çatmışlar, çünki Konstitusiyada onların yaradılması barədə heç bir müddəa yoxdur.

Hazırda Senatın 17 daimi (və yaxud permanent) komitəsi, Nümayəndələr Palatasının isə 19 komitəsi var. Onların hər biri spesifik qanunvercilik sahələri üzrə ixtisaslaşmışdır: xarici işlər, müdafiə, bank işi, kənd təsərrüfatı, ticarət, pul ayırmaları və s. Hər iki palatada, demək olar ki, təqdim edilən bütün qanun layihələri tədqiq və tövsiyə üçün müvafiq komitələrə göndərilir. Komitə ona göndərilən hər bir layihə tədbirini bəyənə, dəyişdirə, ləğv və ya rədd edə bilər. Qanun layihəsinin, əvvəlcə komitə tərəfindən bəyənilmədən Nümayəndələr Palatasının və yaxud Senatın müzakirəsinə verilməsi, demək olar ki, mümkün deyildir. Nümayəndələr Palatasında layihənin komitədən alınıb müzakirəyə verilməsi üçün 218 üzvün, Senatda isə bütün üzvlərin yarıdan çoxunun imzası tələb olunur. Praktikada qanun layihələrinin tələb olunan bu dəstəyi dərhal almaları çox nadir hallarda mümkün olur.

Hər bir palatada çoxluğa malik olan partiya komitə proseslərinə nəzarət edir. Komitə sədrləri partiya üzvlərinin və yaxud xüsusi təşkil olunmuş qrupların gizli iclasında seçilir. Azlıqda qalan partiyalar komitələrin tərkibində hər bir palatadakı güclərinə müvafiq olaraq proporsional qaydada təmsil olunur.

Qanun layihələri müxtəlif yollarla təklif edilə bilər. Onların bəziləri daimi komitələrdə, bəziləri spesifik qanunvericilik məsələlərinin həll edilməsi məqsədilə yaradılan xüsusi komitələrdə hazırlana, bəziləri isə prezident və yaxud digər icra rəsmiləri tərəfindən təklif edilə bilər. Konqresdən kənarda vətəndaşlar və təşkilatlar qanun layihələrini Konqres üzvləri vasitəsilə təklif etmək imkanına malikdirlər; eyni zamanda Konqres üzvlərinin özləri də fərdi qaydada qanun layihəsi təşəbbüsü ilə çıxış edə bilərlər. Təqdim edildikdən sonra qanun layihələri təyin olunmuş komitələrə göndərilir, komitələr isə əksər hallarda qanun layihəsini müdafiə edən və ya onun əleyhinə çıxan insanların öz baxışlarını nümayiş etdirmələrinə imkan yaratmaq üçün açıq dinləmələr seriyası planlaşdırır və keçirir. Bir neçə həftə və yaxud bir neçə ay davam edə bilən dinləmə prosesləri geniş ictimaiyyətin qanunların qəbul edilməsi prosesində iştirakına yol açır.

Komitə sisteminin üstünlüklərindən biri odur ki, Konqres üzvlərinə və işçi heyətlərinə müxtəlif qanunvericilik sahələrində xeyli dərəcədə ixtisaslaşmaq imkanı verir. Respublikanın ilk dövrlərində, əhalinin az və federal dövlət vəzifələrinin dar çərçivədə müəyyən olunlduğu vaxtlarda bu cür təcrübənin əhəmiyyəti o qədər də böyük deyildi. Hər bir nümayəndə bütün maraq sahələri üzrə öz biliyindən yararlanırdı. Bu gün ölkə həyatının son dərəcə çoxcəhətliliyi xüsusi biliklər tələb edir, yəni seçilmiş nümayəndələrdən adətən ictimai siyasətin bir və iki sahəsində ixtisaslı olması tələb edilir.

Komitə qanun layihəsinə müsbət rəy bildirdikdən sonra təklif olunan layihə müvafiq palatanın müzakirəsinə verilir. Senatda müzakirələrə, faktiki olaraq, heç bir məhdudiyyət qoyulmur. Nümayəndələr Palatasında isə üzvlərin sayı xeyli çox olduğundan Qaydalar Komitəsi adətən müəyyən məhdudiyyətlər müəyyən edir. Müzakirələr bitdikdən sonra palata üzvləri ya layihəni bəyənir, ya onu rədd edir, ya taxçaya atır – bu isə onun bir kənara qoyulması və ya rədd edilməsinə bərabərdir – və yaxud komitəyə qaytarırlar. Palataların birindən keçən qanun layihəsi müzakirə olunmaq üçün digərinə göndərilir. Əgər layihəyə ikinci palata tərəfindən də düzəlişlər edilərsə, hər iki palata üzvlərindən ibarət konfrans komitəsi bu fərqlilikləri uzlaşdırmağa çalışır.

Hər iki palatadan keçdikdən sonra qanun layihəsi prezidentə göndərilir, çünki Konstitusiyaya görə, layihənin qanuna çevrilməsi üçün prezidentin onu imzalaması lazımdır. Prezidentin qanun layihəsini imzalamaq – bu zaman o, qanuna çevrilir – və yaxud ona veto qoymaq hüququ var. Veto qoyulan qanun layihəsi qanuna çevrilə bilmək üçün hər iki palatada üçdə iki səs çoxluğu ilə təkrar bəyənilməlidir.

Prezident, həmçinin, qanun layihəsini imzalamaya və yaxud ona veto qoymaya da bilər. Bu halda layihə prezidentə çatdığı andan 10 gün sonra (bazar günləri hesaba alınmır) qanun qüvvəsinə minir. Layihə prezidentə göndərildikdən sonra, amma 10 günlük müddət başa çatmamışdan əvvəl Konqresin fasiləyə çıxması bu qayda üçün yeganə istisna halı təşkil edir, prezidentin bu halda layihə ilə bağlı hər hansı bir addım atmaqdan imtina etməsi həmin layihənin inkar edilməsiylə – «cib vetosu» (sonraya saxlanılma) deyilən prosedurla nəticələnir.

KONQRESİN ARAŞDIRMA SƏLAHİYYƏTLƏRİ

Konqresin ən vacib qeyri-qanunverici funksiyalarından biri onun araşdırma səlahiyyətiylə bağlıdır. Bu səlahiyyət, bir qay-

davamı səhifə 74

KOMİTƏ SİSTEMİ

Konstitusiya Konqres komitələri ilə bağlı heç bir müddəa irəli sürmür. Ancaq ölkə inkişaf edib böyüdükcə qanun layihələrinin daha dərindən tədqiq edilməsi üçün onlara ehtiyac yaranmışdır.

Komitə sistemi 1789-cu ildən, Nümayəndələr Palatasının üzvləri təklif olunan qanunların uzun-uzadı müzakirəsində heç bir yerə vara bilmədiklərini hiss etdikləri dövrdən fəaliyyətə başlamışdır. İlk komitələr İnqilab müharibəsinin tələbləri, poçt yolları, ərazilər və xarici ölkələrlə ticarət məsələlərilə bağlı olmuşdur. İllər ötdükcə komitələr siyasi, sosial və iqtisadi dəyişikliklərə uyğun olaraq yaradılmış və ya buraxılmışdır. Məsələn, artıq İnqilab Müharibəsi Tələbləri Komitəsinə heç bir ehtiyac qalmayıb, amma hər iki palatada Veretan İşləri Komitəsi mövcuddur.

106-cı çağırış (1999–2000) Konqresi Nümayəndələr Palatasında 19, Senatda isə 17 daimi komitəyə, eləcə də hər iki palatanın üzvlərindən ibarət dörd birgə permanent komitəyə malik idi: Konqres kitabxanası komitəsi, çap komitəsi, vergi komitəsi və iqtisadi komitə. Bundan əlavə, hər bir palata spesifik problemlərin tədqiqi ilə bağlı xüsusi və yaxud seçmə komitə təşkil edə bilər. İşlərin həddən artıq çoxluğu səbəbindən daimi komitələr də təxminən 150 yarımkomitəyə bölünmüşdür.

Bəs bu komitələr faktiki olaraq nə ilə məşğul olurlar? Hər bir billin – Konqresə təqdim edilən qanun layihəsinin hərtərəfli öyrənilməsi və tədqiqi üçün müvafiq komitə məsuliyyət daşıyır. Komitə adətən mütəxəssislərin rəyini toplamaq üçün dinləmələr keçirir; bu mütəxəssislər sırasına komitəyə daxil olmayan Konqres üzvləri, icra qanadının məmurları, özəl sektora aid təşkilatların nümayəndələri və fərdi qaydada vətəndaşlar daxil ola bilər.

Bütün faktlar toplandıqdan sonra komitə yeni qanun layihəsinin olduğu kimi və yaxud müəyyən əlavələrlə qəbul edilməsilə bağlı tövsiyələr barədə qərar verir. Bəzən qanun layihəsi bir kənara qoyularaq sonraya saxlanılır ki, bu da onun müzakirəsinin dayandırılması anlamına gəlir. Qanun layihəsi komitənin rəyini aldıqdan və Nümayəndələr Palatası və yaxud Senatdan keçdikdən sonra, həmin qanun layihəsiylə bağlı Nümayəndələr Palatası və Senatın versiyaları arasındakı istənilən fərqlilikləri aradan qaldırmaq üçün digər bir komitə onun üzərində işə başlayır. Hər iki palatanın üzvlərindən ibarət olan bu «konfrans komitəsi» layihəni bütün üzvləri təmin edəcək hala gətirdikdən sonra son müzakirə və səsvermə üçün Nümayəndələr Palatası və Senatın müzakirəsinə göndərir. Əgər layihə onların hər ikisindən keçərsə, imzalamaq üçün prezidentə təqdim edilir.

KONQRESİN DAİMİ VƏ YAXUD PERMANENT KOMİTƏLƏRİ

NÜMAYƏNDƏLƏR PALATASI

Kənd təsərrüfatı
Vəsait ayırmaları
Silahlı qüvvələr
Bank işi və maliyyə xidmətləri
Büdcə
Ticarət
Təhsil və işçi qüvvəsi
Hökumət islahatı və nəzarət
Palata administrasiyası
Beynəlxalq əlaqələr
Məhkəmələr
Ehtiyatlar
Qaydalar
Elm
Kiçik biznes
Rəsmi davranış standartları
Nəqliyyat və infrastruktur
Veteran işləri
Üsullar və mənalar

SENAT

Kənd təsərrüfatı, ərzaq və meşəçilik
Vəsait ayırmaları
Silahlı qüvvələr
Bank işi
Büdcə
Ticarət, elm və nəqliyyat
Enerji və təbii ehtiyatlar
Ətraf mühit və ictimai işlər
Maliyyə
Xarici əlaqələr
Dövlət işləri
Səhiyyə, təhsil, əmək və pensiya
Hindu məsələləri
Məhkəmələr
Qaydalar və administrasiya
Kiçik biznes
Veteran işləri

da olaraq, komitələrə – spesifik məqsədlə təşkil edilən xüsusi komitələrə və yaxud hər iki palatanın üzvlərindən ibarət olan birgə komitələrə həvalə edilir.

Araşdırmalar gələcək qanunlar üçün ehtiyac duyulan informasiyaları toplamaq, artıq qəbul olunmuş qanunların effektivliyini yoxlamaq, digər hakimiyyət qanadları üzvlərinin və məmurlarının ixtisas və icra qabiliyyətlərini müəyyənləşdirmək, çox nadir hallarda isə impiçment proseduru üçün əsas toplamaq məqsədilə aparılır. Adətən komitələr araşdırma dinləmələri aparmaq və məsələni ətraflı tədqiq edə bilmək üçün kənar ekspertlərin yardımlarından istifadə edir.

Araşdırma səlahiyyətlərinin mühüm şaxələri var. Onlardan biri araşdırmaların və onların nəticələrinin açıqlanması səlahiyyətidir. Komitə dinləmələrinin əksəriyyəti ictimaiyyətə açıqdır və kütləvi informasiya vasitələrində onlar haqda geniş məlumatlar verilir. Beləliklə, Konqres araşdırmaları qanunvericilərə vətəndaşları məlumatlandırmaq və ümumölkə məsələlərinə ictimai maraq oyatmaq üçün vacib bir vasitə təmin edir. Konqres komitələri, həmçinin, ifadə vermək istəməyən şahidləri ifadə verməyə məcbur etmək və şahid ifadəsi verməkdən imtina edənləri Konqresə qarşı hörmətsizliyə görə, saxta ifadə verənləri isə andını pozmağa görə məhkəməyə cəlb etmək səlahiyyətinə malikdir.

KONQRESİN QEYRİ-RƏSMİ PRAKTİKALARI

Avropa parlamentar sisteminin əksinə olaraq ABŞ qanunvericilərinin seçilməsi və davranışı mərkəzi partiya intizamı ilə çox az bağlıdır. Amerikanın hər bir iri siyasi partiyası yerli və ştat təşkilatlarının koalisiyasından ibarətdir və dörd ildən bir keçirilən prezident seçkiləri zamanı bu təşkilatlar respublikaçılar və yaxud demokratlar kimi ümummilli partiyalar çərçivəsində birləşirlər. Bu səbəbdən Konqres üzvləri öz mövqelərinə görə partiya liderlərinə və yaxud Konqresdəki öz həmkarlarına deyil, yerli və yaxud ştat seçicilərinə borclu olurlar. Bunun da nəticəsi olaraq nümayəndələrin və senatorların bir qanunverici kimi davranışları daha çox fərdi və idiosinkratik olub, təmsil etdikləri elektoratın geniş müxtəlifliyini və loyal fərdi qaydada seçilmənin gətirdiyi azadlığı əks etdirir.

Beləliklə, Konqres iyerarxal deyil, kollegial bir orqandır. Səlahiyyətlər yuxarıdan-aşağıya deyil, praktik olaraq hər istiqamətə paylanır. Konqresdə mərkəzi hakimiyyət son dərəcə minimal olduğu üçün burada cəzalandırmaq və mükafatlandırmaq səlahiyyəti çox zəifdir. Konqres siyasətləri çevik və dəyişkən koalisiyalar tərəfindən müəyyənləşdirilir və bu koalisiyalar mövzudan-mövzuya müxtəlif şəkil ala bilər. Bəzən Konqresə Ağ ev tərəfindən mühüm iqtisadi və ya etnik qruplar tərəfindən münaqişəli təzyiq göstərilir, bu halda qanunvericilər bu cür təsirlərdən yan qaça bilmək üçün qərar çıxarılmasını ləngidən prosedur qaydalarından istifadə edirlər. Müvafiq komitədə kifayət dərəcədə ictimai dinləmələr aparılmadığına əsaslanaraq, məsələ təxirə salına bilər. Və yaxud Konqres onu müzakirə etməzdən əvvəl ətraflı hesabat hazırlanması üçün müvafiq agentliyə göndərir. Ya da həmin məsələ palataların biri tərəfindən bir kənara qoyula («taxçaya atıla») bilər; bu isə, əslində, mahiyyəti barədə rəy bildirilmədən onun rədd edilməsi demək olur.

Ayrı-ayrılıqda hər bir üzvün təyinatı və nüfuzunu, bir qayda olaraq, müəyyənləşdirən qeyri-rəsmi və yazılmamış normalar mövcuddur. «İç adamları» (insayderlər) – əsas diqqətlərini öz qanunverici vəzifələrinə yönəldən nümayəndələr və senatorlar, Konqres salonlarında «kənar adamlara» (autsayderlərə) – ümummilli problemlərdən danışmaqla tanınmağa can atanlara nisbətən daha güclü ola bilərlər. Öz opponentlərinin fikirlərinin nə qədər xoşagəlməz olmasından asılı olmayaraq, üzvlər həmkarlarına qarşı nəzakətli davranış nümayiş etdirməli və şəxsi hücumlardan kənar qaçmalıdırlar. Üzvlər, həmçinin, özlərini qanunvericiliyin bütün sahələrində ekspert kimi göstərməyə çalışmaq əvəzinə bir neçə siyasət sahəsində ixtisaslaşmalıdırlar. Bu qeyri-rəsmi qaydalara riayət edənlər adətən ən nüfuzlu komitələrə və yaxud ən azı öz seçicilərinin əhəmiyyətli hissəsinin maraqlarına toxunan komitələrə təyin edilmək imkanı qazanmış olurlar. ❑

KONQRESİN NƏZARƏT SƏLAHİYYƏTLƏRİ

Lüğətlər «nəzarət» («oversight») sözünü «qayğıkeş nəzər» kimi müəyyənləşdirir və bu cür yanaşma üsulu Konqresin icra qanadına təsir göstərmək üçün seçdiyi ən effektiv üsullardan biridir. Konqres nəzarəti israfçılığın və saxtakarlığın qarşısını alır, vətəndaş azadlıqlarını və fərdi hüquqları qoruyur, icranın qanunlara uyğunluğunu təmin edir, qanun çıxarmaq və ictimaiyyəti maarifləndirmək üçün məlumatlar toplayır və icra qanadının işini qiymətləndirir. Bu nəzarət kabinet departamentlərinə, icra agentliklərinə, tənzimləmə komissiyalarına və prezident idarəsinə tətbiq edilir. Konqresin nəzarət funksiyaları müxtəlif formalarda olur:

- *komitə araşdırmaları və dinləmələri;*
- *prezidentlə rəsmi məsləhətləşmələr və ondan məlumat alınması;*
- *prezident təyinatlarına və xarici müqavilələrə Senatın məsləhət və razılıq verməsi;*
- *Nümayəndələr Palatasının impiçment prosedurları və bunun ardınca Senat məhkəmələri;*
- *Prezidentin öz vəzifəsini icra etmək iqtidarında olmadığı və yaxud vitse-prezident vəzifəsi boşaldığı hallarda Nümayəndələr Palatası və Senatın İyirmi beşinci Əlavəyə uyğun olaraq həyata keçirdiyi prosedurlar;*
- *Qanunvericilərlə icraçılar arasında qeyri-rəsmi görüşlər;*
- *Konqres üzvlərinin hökumət komissiyaları tərkibində iştirakı;*
- *Konqres Komitələri tərəfindən aparılan və Konqresin büdcə, ümumi hesablama və texnoloji qiymətləndirmə ofisləri kimi yardımçı vasitələri tərəfindən dəstəklənən təhqiqatlar.*

Konqresin nəzarət səlahiyyəti rəsmi şəxslərin vəzifələrindən azad olunmasına, siyasətlərin dəyişdirilməsinə və icra qanadı üzərində qanunla təsbit edilmiş yeni nəzarət sistemlərinin təmin edilməsinə kömək edir. Məsələn, 1949-cu ildə Senatın xüsusi araşdırma yarımkomitələri Trumen administrasiyasında yüksək rütbəli şəxslər arasında korrupsiya hallarını üzə çıxarmışdı. Bu da müəyyən agentliklərin yenidən təşkili və hökumət daxilində korrupsiyanın tədqiq edilməsi üçün Ağ evdə xüsusi komissiyaların yaradılması ilə nəticələnmişdi. 1960-cı illərin sonlarında Senatın Xarici Əlaqələr Komitəsinin keçirdiyi dinləmələrin televiziya ilə translyasiyası Vyetnam müharibəsinə qarşı müxalifətin səfərbər edilməsinə kömək etmişdi.

1973-cü ildə Konqresin Uotergeyt araşdırması qeyri-qanuni yolla öz vəzifələrindən siyasi məqsədlər üçün istifadə etmiş olan Ağ ev məmurlarını üzə çıxardı və Nümayəndələr Palatası Hüquq Komitəsinin növbəti il prezident Niksona qarşı impiçment irəli sürməsi onun prezidentliyinə son qoydu. Seçmə komitənin 1975-ci və 1976-cı illərdəki təhqiqatları kəşfiyyat agentliklərinin ciddi qanun pozuntularına yol verdiyini aşkar etdi və müəyyən kəşfiyyat fəaliyyətlərinə nəzarətə dair yeni qanunvericilik təşəbbüsü ilə nəticələndi.

1983-cu ildə ABŞ Gömrük Xidməti və ABŞ İmmiqrasiya və Naturalizasiya Xidməti idarələrinin sərhəd-yoxlama əməliyyatlarının möhkəmləndirilməsi təklifiylə bağlı Konqres təhqiqatları icraçı orqanların yeni qanunvericilik olmadan belə dəyişikliklərə yol verməsi barədə məsələ qaldırdı. 1987-ci ildə nəzarət səyləri icra qanadının İrana gizli silah satmasında və bu satışdan əldə edilən gəlirin Nikaraquada kontras kimi tanınan qeyri-hökumət qüvvələrinə ötürülməsində qanun pozuntularına yol verildiyinin üstünü açdı. Konqresin bu təhqiqatları bənzər hadisələrin qarşısının alınmasına yönəldilən qanunvericilik təkliflərilə nəticələndi.

1996 və 1997-ci illərdə iki partiyanın nümayəndələrinin də tərkibinə daxil olduğu Konqres komissiyasının apardığı təhqiqatlar və onun ardınca Senat dinləmələri gəlir vergisi ödəmələrinin toplanması üçün məsul olan Daxili Gəlir Xidməti (DGX) federal agentliyində qanun pozuntusu və yararsız idarəçilik hallarının üstünü açdı. Senatın Maliyyə Komitəsinin ifadələrini dinlədliyi DGX agentləri ödənilməmiş vergi hallarının üstünü açmağın onlara çox ağır təsir göstərdiyini və bu səbəbdən vergi ödəyicilərinin bəzən onları tamam əldən saldıqlarını iddia etdilər, vətəndaşlar isə haqsız yerə günahlandırıldıqlarını və guya vergi ödəmədikləri üçün DGX tərəfindən aqressiv şəkildə təqib olunduqlarını söylədilər. 1998-ci ildə Konqres DGX-də islahatlar aparılması haqda qanun qəbul etdi; həmin qanun müstəqil nəzarət bölməsi yaratdı və vergi ödəyicilərinin müdafiəsini genişləndirdi; vergi mübahisələrində haqqını sübut etmək yükü vergi ödəyicisi üzərindən götürülüb DGX-nin üzərinə qoyuldu.

Konqresin nəzarət səlahiyyəti ayrı-ayrı vaxtlarda prezident idarəçiliyinin və ictimai siyasətin monitorinqində də əhəmiyyətli vasitələrdən biri olduğunu praktik surətdə sübuta yetirmişdir.



ABŞ Ali Məhkəməsi.

FƏSİL
5

MƏHKƏMƏ QANADI

KONSTİTUSİYA-NIN ŞƏRH OLUNMASI

«Məhkəmə sistemi bizim azadlığımızın və əmlakımızın Konstitusiya şərtləri daxilində qorunmasının təminatçısıdır».
– Çarlz Evans Hyucs, ABŞ Ali Məhkəməsinin sədri, Elmirada çıxışdan, Nyu York, 1907-ci il

Federal dövlətin üçüncü – məhkəmə qanadı ölkəni əhatə edən məhkəmələr sistemindən ibarətdir və bu sistemə ABŞ Ali Məhkəməsi başçılıq edir.

Ştat məhkəmələri sistemi Konstitusiya hazırlanmazdan əvvəl mövcud idi. Konstitusiya konventinə nümayəndələr arasında federal məhkəmə sisteminə ehtiyac olub-olmaması və onun ştat məhkəmələrini sıxışdırıb aradan çıxarıb-çıxarmayacağı barədə qızğın mübahisə getmişdi. Digər mübahisəli məsələlərdə olduğu kimi, nümayəndələr sonda belə bir kompromisə gəlmişdilər ki, ştat məhkəmələri öz yurisdiksiyalarını davam etdirsin, Konstitusiya isə federal məhkəmə sisteminə məhdud səlahiyyət mandatı versin. Konstitusiyanın I maddəsi federal məhkəmə sisteminin bazisini bu cür müəyyən edir: «Birləşmiş Ştatların məhkəmə hakimiyyəti Ali Məhkəmə və Konqresin zaman-zaman təsis etdiyi aşağı instansiyalı məhkəmələr tərəfindən həyata keçirilir».

FEDERAL MƏHKƏMƏ SİSTEMİ

Bu rəhbər müddəa əsasında ilk Konqres ölkəni dairələrə böldü və hər bir dairə üçün federal məhkəmə yaratdı. O vaxtdan başlayaraq inkişaf edən federal məhkəmə sistemi bugünkü strukturuna gəlib çatmışdır: Ali məhkəmə, 13 apellyasiya məhkəməsi, 94 dairə məhkəməsi və iki xüsusi yurisdiksiya məhkəməsi. Konqres federal məhkəmələr yaratmaq və onları ləğv etmək, eləcə də federal məhkəmə sistemində hakimlərin sayını müəyyən etmək səlahiyyətini bu gün də özündə saxlayır. Konqres təkcə Ali Məhkəməni ləğv edə bilməz.

Məhkəmə hakimiyyəti Konstitusiya, Konqresin qəbul etdiyi qanun və yaxud Birləşmiş Ştatların bağladığı xarici müqavilə şərtləri ilə bağlı meydana çıxan məsələlərə, xarici ölkələrin Birləşmiş Ştatlardakı səfirləri, elçiləri və konsulları ilə bağlı məsələlərə, ABŞ dövlətinin iştirak etdiyi mübahisələrə, ştatlar (və ya onların vətəndaşları) ilə xarici ölkələr (və ya onların vətəndaşları) arasındakı mübahisələr və iflas məsələlərinə şamil edilir. On birinci Əlavə bir ştatın vətəndaşlarının digər ştatın hökumətinə qarşı qaldırdığı iddialarla bağlı məsələləri federal yurisdiksiyadan çıxarmışdır. Bir ştat hökumətinin digər bir ştatın vətəndaşlarından şikayətçi olduğu məsələlər də federal yurisdiksiyanı narahat etmir.

Federal məhkəmələrin səlahiyyəti federal qanunlar əsasında meydana çıxan həm ziyankarlıqlar və kompensasiyalarla mülki işlərə, həm də cinayət hadisələrinə şamil edilir. Üçüncü maddə ştat məhkəmələri ilə federal məhkəmələr arasında mürəkkəb münasibətlər şəbəkəsini müəyyən etmişdir. Adətən, federal məhkəmələr fərdi ştat qanunları əsasında meydana çıxan işlərə baxmır. Bununla yanaşı, federal məhkəmələrin yurisdiksiyasına daxil olan bəzi məsələlərə ştat məhkəmələrində də baxıla və qərar çıxarıla bilər. Beləliklə, hər iki məhkəmə sistemi bəzi sahələrdə müstəsna, digərlərində isə paralel, üst-üstə düşən yurisdiksiyalara malikdir.

Konstitusiya federal hakimlərin vəzifələrini «qüsursuz davranışlarını davam etdirdikcə», yəni praktik olaraq ölənə, pensiyaya çıxana və ya istefa verənədək özlərində saxlayacaqlarını bəyan etməklə məhkəmələrin müstəqilliyinin toxunulmazlığına zəmanət verir; bununla belə, öz vəzifəsində qanunsuzluğa yol verən hakim prezident və ya digər yüksək rütbəli federal məmurlar kimi, eyni qaydada impiçmentə məruz qala bilər. ABŞ hakimləri prezident tərəfindən təyin və Senat tərəfindən təsdiq edilir. Konqres, həmçinin, hakimlərin əməkhaqqı şkalasını müəyyən edir.

ALİ MƏHKƏMƏ

Ali Məhkəmə Birləşmiş Ştatların ən yüksək rütbəli və Konstitusiya tərəfindən xüsusi olaraq yaradılmış yeganə məhkəməsidir. Ali Məhkəmənin qərarına heç bir digər məhkəmədə apellyasiya qaydasında baxıla bilməz. Konqres Ali Məhkəmə üzvlərinin (hakimlərin) sayını müəyyənləşdirə və müəyyən limit daxilində onun baxa biləcəyi işlərin növləri barədə qərar verə bilər, ancaq o, Konstitusiya tərəfindən Ali Məhkəməyə verilmiş səlahiyyətləri dəyişdirə bilməz.

Konstitusiya hakimlərə verilən tələblər barədə heç nə demir. Burada hakimlərin hüquqşünas olması ilə bağlı heç bir tələb irəli sürülmür, ancaq bütün federal hakimlər və Ali Məhkəmə üzvləri faktiki olaraq vəkillik praktikasına sahib olmuşlar.

200 il bundan əvvəl, Ali Məhkəmənin yaradıldığı gündən bəri onun üzvlərinin sayı 100-dən bir az artıq olmuşdur. İlk Ali Məhkəmənin tərkibi bir sədr və beş üzv hakimdən ibarət idi. Sonrakı 80 ildə hakimlərin sayı müxtəlif şəkildə dəyişmiş və 1869-cu ildə bir sədr və səkkiz üzv hakim formasında komplektləşdirilmişdir. Baş hakim, yəni sədr bu məhkəmənin icraçı məmurudur, ancaq qərardad çıxarılarkən digər üzvlər kimi, o da yalnız bir səsə malikdir.

Ali Məhkəmə yalnız iki növ işlərə – xarici ölkələrin yüksək rütbəli məmurlarının cəlb olunduqları və həmçinin ştatlardan birinin iştirakçı tərəf olduğu işlərə ilkin qaydada baxır. Digər bütün işlər Ali Məhkəməyə apellyasiya qaydasında aşağı instansiya məhkəmələri tərəfindən göndərilir.

Ali Məhkəmə ildə qeydiyyata alınan bir neçə min işin yalnız təxminən 150-nə baxır. Bu işlərin böyük bir qismi qanunların və yaxud Konqresdən keçməkdə olan qanun layihələrinin məzmununun şərhi ilə bağlı olur. Ancaq Ali Məhkəmənin işinin xeyli hissəsi qanunvericiliklərin və icra aktlarının Konstitusiyaya uyğun olub-olmamasını müəyyənləşdirməkdən ibarətdir. Qanunların şərhi ilə bağlı bu səlahiyyət Konstitusiyada xüsusi olaraq nəzərdə tutulmamışdır. Əslində bu, məhkəmənin Konstitusiyanı yozması və 1803-cü ildə «Merburi Medisona qarşı» məhkəmə işində çıxardığı nümunə xarakterli qərarında qəti şəkildə bəyan edilən bir doktrinadır. Həmin məhkəmə işi ilə bağlı çıxardığı qərarında Ali Məhkəmə müəyyən etmişdir ki, «Konstitusiyaya zidd olan qanunvericilik aktı qanun deyildir» və bunun ardınca qeyd etmişdir ki, «nəyin qanun olduğunu bildirmək xüsusi qaydada Ədliyyə Departamentinin səlahiyyəti və vəzifəsinə aiddir». Bu doktrina, həmçinin, ştat və yerli hökumətlərin fəaliyyətlərinə də şamil edilir.

Ali Məhkəmənin qərarlarının yekdilliklə qəbul edilməsi tələb olunmur; kvorum olduğu halda ən azı altı hakimin rəyinin bəs etdiyi adi səs çoxluğu qərarların qəbul olunmasını təmin edir. Mübahisəli qərarlarda məhkəmə çoxluğun və azlığın rəylərini və yaxud fərqli rəyləri qərarda qeyd

ABŞ Ali Məhkəməsinin hakimləri (soldan-sağa): Klarens Tomas, Antonin Skaliya, Sandra Dey O'Konnor, Antoni M. Kennedi, David H. Souter, Stiven G. Breyer, Con Pol Stivens, sədr Uilyam H. Renkuist və Rut Beyder Ginzburq.

edir və onların hər ikisi məhkəmənin gələcək qərarları üçün əsas təşkil edə bilər. Adətən hakimlər çoxluğun qeyd etdiyi səbəblərdən fərqli səbəblərə görə qərarla razılaşdıqları vaxtlarda öz fərqli görüşlərini yazılı şəkildə bildirirlər.

APELLYASİYA MƏHKƏMƏLƏRİ VƏ DAİRƏ MƏHKƏMƏLƏRİ

Federal məhkəmə sisteminin ikinci ən yüksək səviyyəsini məhkəmə işlərinə fərqli münasibətləri uzlaşdırmaq və Ali Məhkəmənin işini yüngülləşdirmək məqsədilə 1891-ci ildə yaradılan apellyasiya məhkəmələri təşkil edir. Konqres 12 zona apellyasiya məhkəməsi və bir ABŞ Federal Zona Apellyasiya Məhkəməsi təsis etmişdir. Bu məhkəmələrin hər birində hakimlərin sayı əhəmiyyətli dərəcədə bir-birindən fərqlənir (6-dan 28-ə qədər), ancaq bu məhkəmələrin əksəriyyətində hakimlərin sayı 10–15 arasında dəyişir.

Apellyasiya məhkəmələri dairə məhkəmələrinin (federal yurisdiksiyaya malik icraat məhkəmələri) qərarlarını şərh edir. Onları, həmçinin, müstəqil tənzimləmə agentliklərinin daxili şərh mexanizmləri imkanlarının tükəndiyi və qanun məsələləriylə bağlı fikir müxtəlifliyi qalmaqda davam etdiyi hallarda həmin agentliklərin müəyyən etdikləri qaydaları şərh etmək səlahiyyətinə malikdir. Bundan əlavə, Federal Zona Apellyasiya Məhkəməsi patent qanunları ilə bağlı işlərə və xüsusi yurisdiksiyaya malik məhkəmələrin, Beynəlxalq Ticarət Məhkəməsi və Federal İddialar Məhkəməsinin baxdığı işlər kimi xüsusi işlərlə əlaqədar apellyasiyalara ölkə miqyasında baxmaq yurisdiksiyasına malikdir.

Apellyasiya məhkəmələrindən aşağıda dairə məhkəmələri durur. 50 ştat və digər ABŞ əraziləri 94 dairəyə elə bölünüb ki, məhkəmələk işi olan hər bir şəxs ona daha rahat gedib-gəlmək imkanı əldə edir. Hər bir dairə məhkəməsində ən azı iki – əksəriyyətində bir neçə – hakim var, əhalisi çox olan dairələrdə isə hakimlərin sayı hətta 20-dən çoxdur. İş həddən artıq çox olduğu hallarda bir dairə məhkəməsinin hakimi müvəqqəti olaraq digər dairə məhkəməsinin işində çalışa bilər. Konqres dairələrin hüdudlarını əhalinin sayına, miqyasına və işin həcminə uyğun olaraq təsbit edir.

Kiçik ştatların bəziləri bütövlükdə bir dairə təşkil edir, Nyu-York, Kaliforniya və Texas kimi iri ştatların isə hər birində dörd dairə mövcuddur.

Kolumbiya Dairəsindən başqa, digər yerlərdə hakimlər daimi xidmət etdikləri dairənin sakinləri olmalıdırlar. Dairə məhkəmələri öz sessiyalarını dairənin müxtəlif şəhərlərində müəyyən intervallar daxilində keçirirlər.

Bu məhkəmələrdə baxılan işlər və mübahisələr poçtlarda sui-istifadə, federal əmlakın oğurlanması kimi qanun pozuntuları və dürüstlük, bank işi və saxtakarlığa qarşı qanunların pozulması kimi federal cinayətlərlə bağlı olur. Bunlar yeganə federal məhkəmələrdir ki, onlarda «böyük» məhkəmə jürisi cinayətdə ittiham olunanlara qarşı hökm çıxarır, «kiçik» jürilər isə mübahisəli məsələləri həll edir.

Hər bir məhkəmə dairəsinə, həmçinin, ABŞ iflas məhkəməsi də daxildir, çünki

Bu rəsm əsəri Terri Nikolsun (sağdan ikinci) Kolorado ştatı, Denver şəhərində ABŞ Dairə Məhkəməsində mühakiməsini təsvir edir. Nikols 1995-ci ildə Oklahoma ştatının Oklahoma Siti şəhərində federal idarə binasına bomba qoyulmasında ittiham edilmiş və təqsirkar bilinmişdir.

Konqresin müəyyən etdiyinə görə iflas məsələlərinə ştat məhkəmələrindən daha çox federal məhkəmələrdə baxılmalıdır. Öz kreditorlarına borclarını artıq ödəyə bilməyən fərdlər və biznes müəssisələri iflas prosesləri vasitəsilə ya öz aktivlərinin məhkəmə nəzarəti aktında ləğv edilməsi və yaxud öz maliyyə işlərini yenidən təşkil etməklə və öz borclarını ödəyə bilmək üçün plan işləyib hazırlamaqla qurtula bilərlər.

XÜSUSİ MƏHKƏMƏLƏR

Ümumi yurisdiksiya üzrə federal məhkəmələrdən başqa, zaman-zaman xüsusi məqsədli məhkəmələrin də yaradılmasına ehtiyac duyulmuşdur. Belə *məhkəmələr qanunvericilik* məhkəməsi kimi tanınır, çünki onlar Konqresin iradəsiylə yaradılır. Bu məhkəmələrdəki hakimlər də digər federal məhkəmələrdəki həmkarları kimi, prezident tərəfindən ömürlük təyin edilir və Senat tərəfindən təsdiq olunurlar.

Hazırda ölkə miqyaslı yurisdiksiyaya malik müəyyən tip işlərə baxan iki xüsusi icraat məhkəməsi mövcuddur. Beynəlxalq Ticarət Məhkəməsi beynəlxalq ticarət və gömrük məsələləriylə bağlı işlərlə məşğul olur. Federal İddialar Məhkəməsinin yurisdiksiyasına Birləşmiş Ştatlara qarşı pul ziyankarlığı, federal müqavilələrlə əlaqədar mübahisələr, federal hökumət tərəfindən şəxsi əmlakın qeyri-qanuni müsadirəsi ilə bağlı iddialar və Birləşmiş Ştatlar əleyhinə digər müxtəlif iddialar daxildir. ❑



Bu tabloda prezident Con Adamsın (sağda) Ağ evdəki son gecəsində dövlət vəzifələrini qəbul etmələri üçün öz partiyasından olan adamların – federalistlərin təyinatını imzalaması təsvir olunur. Adamsın təyin etdiyi hakimlərdən biri – Uilyam Merburi öz sənədlərini vaxtında ala bilmədiyindən yeni administrasiyanın kabinet üzvü Ceyms Medisona qarşı iddia qaldırmışdı. Ali Məhkəmənin «Merburi Medisona qarşı» işi ilə bağlı çıxardığı qərar məhkəmə şərhi prinsipinin əsasını qoymuşdur.

FƏSİL

6

ALİ MƏHKƏMƏNİN NÜMUNƏ XARAKTERLİ QƏRARLARI

«Məhkəmə təcrübədə qazanılan dərslər və daha məntiqli mühakimə qarşısında baş əyir və faydalı olan sınaq və səhvlər prosesinin məhkəmə fəaliyyəti üçün də münasib olacağını qəbul edir».
– Luis Brandeys, ABŞ Ali Məhkəməsinin üzvü, «Barnet, Koronado Neft və Qaz Şirkətinə qarşı», 1932.

ABŞ Ali Məhkəməsi 1790-cı ildəki ilk iclasından bu yana dövlətin səlahiyyətlərindən tutmuş vətəndaş hüquqları və mətbuat azadlığına qədər hər şey barədə minlərlə rəy vermişdir. Bu qərarların əksəriyyətinin çox az tanınmasına, geniş ictimaiyyətdə az maraq doğurmasına baxmayaraq, onların bəziləri Amerika tarixinə güclü təsir göstərməsiylə xeyli məşhurdur. Ən əlamətdar məhkəmə işlərindən bir neçəsi qısa şəkildə təsvir edilir.

MERBURİ MEDİSONA QARŞI (1803)

Adətən Ali Məhkəmə tarixində ən mühüm qərar adlandırılan *«Merburi Medisona qarşı»* məhkəmə işində çıxarılan qərar məhkəmə şərhi prinsipini, Ali Məhkəmənin qanunvericilik və icra aktlarının Konstitusiyaya uyğun olub-olmamasını müəyyənləşdirmək səlahiyyətini müəyyən etmişdir.

Bu məhkəmə işinə 1800-cü ildə keçirilən prezident seçkilərindən sonra meydana çıxan siyasi mübahisə səbəb olmuşdu: həmin seçkilərdə demokrat-respublikaçı Tomas Cefferson mövcud prezident, federalist Con Adamsa qalib gəlmişdi. Adams administrasiyasının son günlərində federalistlərin çoxluq təşkil etdiyi Konqres bir sıra hakim vəzifəsi, o cümlədən Kolumbiya Dairəsi üçün 42 barışdırıcı hakim vəzifəsi təsis etdi. Senat bu vəzifələrə təyinatları təsdiq etdi və prezident onları imzaladı; bu təyinat sənədlərini möhürləmək və sahiblərinə təqdim etmək dövlət katibinin işi idi. Son günlərin tələm-tələsik işlərinin çoxluğundan vəzifədən ayrılmaqda olan dövlət katibi dörd barışdırıcı hakimə, o cümlədən Uilyam Merburiyə təyinat sənədlərini təqdim etməyə vaxt tapmadı.

Prezident Cefferson administrasiyasının yeni dövlət katibi Ceyms Medison həmin sənədləri sahiblərinə təqdim etməkdən boyun qaçırdı, çünki yeni hökumət federalistlərin məhkəmə sistemində öz partiya mənsublarının yerini möhkəmləndirmələrindən xoşlanmamışdı. Merburi Medisondan təyinat sənədlərini almaq üçün Ali Məhkəməyə müraciət etdi.

Əgər məhkəmə Merburinin tərəfini saxlasaydı, Medison yenə də həmin sənədləri təqdim etməkdən boyun qaçıra bilərdi, çünki məhkəmənin onu bu işə zorlamağa heç bir imkanı yox idi. Yox, əgər məhkəmə Merburi əleyhinə qərar çıxarsaydı, onda Cefferson tərəfdarlarına qanuni yolla təyin olunduğu vəzifəni Merburiyə verməkdən imtina etmələrinə şərait yaratmaqla məhkəmə hakimiyyətinin onlar qarşısında təslim olması riskinə yol açmış olardı. Sədr Con Marşall bu dilemmanı Ali Məhkəmənin bu məsələ ilə bağlı rəy bildirmək səlahiyyətinə malik olmadığı barədə qərar çıxarmaqla həll etdi. Marşall bəyan etdi ki, Məhkəmə Aktının Ali Məhkəməyə bu səlahiyyəti verən 13-cü bölməsi Konstitusiyaya uyğun deyildir, çünki o, məhkəmənin yurisdiksiyasını Konstitusiyada təsbit olunmuş yurisdiksiyayla müqayisədə genişləndirmişdir. Bu məsələdə rəy bildirməmək barədə qərar çıxarmaqla Ali Məhkəmə qanunun son arbitri kimi öz mövqeyinin təhlükəsizliyini təmin etdi.

GİBBONS OQDENƏ QARŞI (1824)

«Konfederasiya maddələri»nə əsasən fəaliyyət göstərən ilk ABŞ hökuməti qismən də ona görə zəif idi ki, yeni ölkənin iqtisadiyyatını, o cümlədən ştatlararası ticarət məsələlərini tənzimləmək səlahiyyətinə malik deyildi. Konstitusiya ABŞ Konqresinə «... bir neçə ştat arasında... ticarəti tənzimləmək» səlahiyyəti vermiş olsa da, iqtisadi məsələlər üzərində nəzarəti öz əllərində saxlamaq istəyən ştatlar tərəfindən bu səlahiyyət tez-tez şübhə altına alınırdı.



1800-cü illərdə Nyu York limanı «Gibbons Oqdenə qarşı» məhkəmə işinə səbəb olmuşdu; Ali Məhkəmə həmin işlə bağlı qərarında Konqresin ştatlararası ticarəti tənzimləmək səlahiyyətini təsdiq etmişdir.

1800-cü ilin əvvəllərində Nyu York ştatı Nyu Yorkla Nyu Cersi arasında səfərlər edən buxar gəmiləri operatorlarının Nyu Yorkdan lisenziya almalarını tələb edən qanun qəbul etdi. Aaron Oqdenin belə bir lisenziyası vardı, Tomas Gibbonsun isə yox. Oqden Gibbonsun onunla rəqabət apardığını və özü də Nyu Yorkun icazəsi olmadan bu işlə məşğul olduğunu öyrənəndə Gibbonsun fəaliyyətini dayandırmaq üçün onu məhkəməyə verdi.

Gibbonsun 1793-cü ildə qəbul edilən sahilyanı aktına əsasən, sahilyanı sularda naviqasiya ilə məşğul olmaq üçün federal lisenziyası vardı, lakin Nyu York məhkəmələri Oqdenlə razılaşaraq Nyu York ştatından lisenziyası olmadığı üçün Gibbonsun qanunu pozduğunu bildirdilər. Ancaq Gibbons ona qarşı bu ittihamla bağlı Ali Məhkəməyə müraciət edəndə hakimlər Nyu York qanununu Konstitusiyaya zidd hesab etdilər, çünki o, ABŞ Konqresinin ticarəti tənzimləmək səlahiyyətini pozmuşdu. Məhkəmə qərarında deyilirdi ki, «öz təbiəti etibarı ilə «tənzimləmək» sözü tənzimlənən hər şey üzərində tam səlahiyyət anlamını özündə əks etdirir». Buna görə də «o, lazım gəldikdə, eyni şey üzərində eyni əməliyyatı icra edən bütün digər kəslərin hərəkətinə yol vermir».

DRED SKOT SANDFORDA QARŞI (1857)

Dred Skot kölə idi və köləliyə icazə verilən Missuri ştatından olan sahibi Con Emerson onu İllinoysa, köləliyin qadağan edildiyi ştata gətirmişdi. Bir neçə ildən sonra Skot Emersonla birlikdə Missuriyə qayıtdı. Bir neçə il azad ştatda yaşadığına görə Skot artıq kölə hesab edilməyəcəyinə inanırdı.

Emerson 1843-cü ildə vəfat etdi və üç il sonra Skot Emersonun dul qalmış arvadını

Kölə Dred Skot bir müddət azad ştatda yaşadığı üçün azad insan olduğunu iddia edirdi. 1857-ci ildə Ali Məhkəmənin onun əleyhinə çıxardığı qərar hər yanda geniş tənqidə məruz qalmış və sonralar ləğv edilmişdir.

öz azadlığı ilə bağlı məhkəməyə verdi. Skot 1850-ci ildə Missuri məhkəməsində qalib gəldi, ancaq 1852-ci ildə ştatın ali məhkəməsi aşağı instansiya məhkəməsinin qərarının əksinə qərar çıxardı. Bu arada missis Emerson yenidən ərə getmiş, Skot isə onun qardaşı Con Sanfordun (məhkəmə məlumatlarında yanlış olaraq Sandford kimi qeydə alınmışdır) qanuni əmlakına çevrilmişdi. Skot öz azadlığı ilə bağlı federal məhkəmədə Sandforda qarşı iddia qaldırdı və məhkəmə 1854-cü ildə Skotun əleyhinə qərar çıxardı.

Bu iş Ali Məhkəməyə göndəriləndə hakimlər belə bir qərar çıxardılar ki, Skot yalnız azad ştatda bir müddət yaşadığına görə azad insana çevrilə bilməz və bir qaradərili adam kimi vətəndaş hesab edilmədiyi üçün onun qanun məhkəməsində iddia qaldırmaq ixtiyarı yoxdur. Bu qərar geniş tənqid olundu, köləliyə qarşı çıxan Avraam Linkolnun 1860-cı ildə prezident seçilməsinə yardım etdi və 1861-ci ildə Vətəndaş müharibəsinin başlanmasını sürətləndirdi. «Dred Skot Sandforda qarşı» işi ilə əlaqədar çıxarılan qərar 1865-ci ildə köləliyi ləğv edən On üçüncü əlavə və 1868-ci ildə sabiq kölələrin vətəndaşlığını təmin edən On dördüncü Əlavə ilə ləğv edildi.

MİLLİ ƏMƏK MÜNASİBƏTLƏRİ İDARƏSİ (NLRB) «CON VƏ LAFLİN POLAD KORPORASİYASI»NA QARŞI (1937)

«Gibbons Oqdenə qarşı» məhkəmə işi ştatlararası ticarətin tənzimlənməsində Konqresin ən üstün səlahiyyətə malik olduğunu təsbit etdiyi kimi, *«Milli Əmək Münasibətləri İdarəsi «Con və Laflin»ə qarşı»* məhkəmə işi də Konqresin ticarəti tənzimləmə səlahiyyətini ştatlararası ticarətlə məşğul olan sənaye müəssisələrinin biznes praktikalarını tənzimləmə səlahiyyətinə qədər genişləndirdi.

Ölkənin ən böyük polad istehsalçılarından olan «Con və Laflin» şirkəti həmkarlar ittifaqları fəaliyyətinə qoşulduqları üçün 10 fəhləni işdən qovmaqla Milli Əmək Münasibətləri haqqında 1935-ci il Aktını pozmuşdu. Bu akt müxtəlif ədalətsiz iş praktikalarını qadağan edir və işçilərin həmkarlar ittifaqı yaratmaq və kollektiv halda sövdələşmələr aparmaq hüququnu müdafiə edirdi. Şirkət Milli Əmək Münasibətləri İdarəsinin işçilərin öz işinə qaytarılması barədə tələbini yerinə yetirməkdən imtina etdi. Dairə Apellyasiya Məhkəməsi bu idarənin tələbini həyata keçirməkdən boyun qaçırdı və məsələyə Ali Məhkəmədə yenidən baxıldı.

Fəhlələr 1946-cı ildə «Con və Laflin Polad Korporasiyası»nın Pensilvaniya ştatı, Pitsburq şəhərindəki zavodunun önündə toplaşıblar. 10 il əvvəl Ali Məhkəmə fəhlələrin həmkarlar ittifaqları qurmaq və kollektiv şəkildə sövdələşmək hüququnu tanımaqdan imtina edən «Con və Laflin»in əleyhinə qərar çıxarmışdı.

Bu işlə əlaqədar baxılan məsələ Konqresin ştatlararası ticarətlə məşğul olan şirkətlərin «yerli» fəaliyyətlərini tənzimləmək səlahiyyətinə malik olub-olmaması ilə bağlı idi, çünki bu fəaliyyətlər bir ştatın hüdudları daxilində həyata keçirilirdi. Şirkət isə buna razı olmayaraq sübut etməyə çalışırdı ki, onun zavodu ilə bağlı şərtlər ştatlararası ticarətə heç bir təsir göstərmir və buna görə də Konqresin tənzimləmə səlahiyyəti ona şamil edilə bilməz. Ali Məhkəmə bununla razılaşmayaraq bəyan etdi ki, «(istehsal) əməliyyatlarının sənaye mübahisələri ucbatından bu cür dayandırılmasının ştatlararası ticarətə çox ciddi təsiri var... Çoxsaylı təcrübələr göstəriri ki, işçilərin təşkilatlanmaq və kollektiv sövdələşmə aparmaq məqsədilə öz aralarından nümayəndələr seçmək hüququnun tanınması çox vaxt sənaye müəssisələrində dinc münasibətlərin ən əhəmiyyətli şərtini təşkil edir». Milli Əmək Münasibətləri Aktının Konstitusiyaya uyğun olduğunu müdafiə etməklə Ali Məhkəmə mütəşəkkil işçi qüvvələrinin qələbəsini təmin etdi və sənaye sahələrinin federal hökumət tərəfindən daha dərindən tənzimlənməsində yeni mərhələnin başlanğıcını qoydu.

BRAUN TƏHSİL ŞÖBƏSİNƏ QARŞI (1954)

Bu tarixi məhkəmə işinədək ştatların çoxunda və Kolumbiya Dairəsində Ali Məhkəmənin *«Plessi Ferqüsona qarşı»* məhkəmə işində bərabər imkanlar təmin olunduğu təqdirdə seqreqasiyaya icazə verən 1896-cı il qərarı əsas tutularaq, irqi seqreqasiya tərkibli məktəblər mövcud idi. 1951-ci ildə Kanzas ştatının Topeka şəhərindən olan Oliver Braun səkkiz yaşlı qızı adından şəhər məktəb şöbəsinə qarşı məhkəmə iddiası qaldırmaqla bu «ayrı, amma bərabər» doktrinasına meydan oxudu. Braun öz qızını evindən 12 məhəllə aralı olan qaradərililər üçün məktəbə deyil, beş məhəllə aralı olan ağdərililər üçün məktəbə qoymaq istəyirdi. Hər iki məktəbin bərabər şərtlərə malik olduğunu bildirən federal məhkəmə Braunun əleyhinə qərar çıxardı.

Bu arada Cənubi Karolinada, Virciniyada və Delaverdə digər qaradərili valideynlər də bənzər məhkəmə proseslərinə baş vurdular. Delaver məhkəməsi qaradərili uşaqlar üçün məktəbin ağdərili uşaqlar üçün məktəbə nisbətən pis vəziyyətdə olduğunu təsbit edərək qaradərili uşaqların ağdərili

1954-cü ildə Ali Məhkəmə «Braun təhsil şöbəsinə qarşı» məhkəmə işində ictimai məktəblərin inteqrasiyası barədə qərar çıxardıqdan sonra qara və ağ dərili uşaqlar bir yerdə təlim keçirlər.

uşaqlar üçün olan məktəbə köçürülməsini tələb etdi, ancaq məktəb rəsmiləri bu qərarla bağlı Ali Məhkəməyə şikayət etdilər.

Ali Məhkəmə bu işlərin hamısı ilə bağlı arqumentləri eyni vaxtda dinlədi. Qaradərili şikayətçilərin topladıqları qovluqlar seqreqasiyanın nəyə görə qaradərili uşaqlar üçün zərərli olduğunu düşündüklərini izah edən psixoloqlar və sosiologiya elmi mütəxəsislərinin məlumatları və ifadələri ilə dolu idi. 1954-cü ildə Ali Məhkəmə yekdilliklə «təhsil sahəsində ‹ayrı, amma bərabər› doktrinasına heç bir yer olmadığını» təsbit etdi və ictimai məktəblərdə seqreqasiyanın qara dərili uşaqların «On dördüncü Əlavədə təmin olunan qanunla bərabər qaydada qorunmaq hüququnu» inkar etdiyi barədə qərar çıxardı.

GİDEON UEYNRAYTA QARŞI (1963) MİRANDA ARİZONAYA QARŞI (1966)

Ali Məhkəmənin 1960-cı illərdə çıxardığı iki qərar cinayət törətməkdə günahlandırılan insanların hüquqlarını himayə edir.

Klarens Örl Gideon 1961-ci ildə Floridada oyun otağına zərər vurmaqda günahlandırılaraq həbs edilmişdi. O, məhkəmədən onu müdafiə etmək üçün vəkil təyin olunmasını tələb edəndə hakim ştat qanunlarının yalnız ağır işlərdə – insan ölümü və yaxud ölüm cəzası ilə bağlı işlərdə məhkəmə

Klarens Örl Gideon öz işini Ali Məhkəmədə müdafiə edə bilmək üçün hazırlaşdığı həbsxana kitabxanasına bənzər bir hüquqi ədəbiyyat kitabxanasında kitab oxuyur. 1963-cü ildə Ali Məhkəmə Gideonun xeyrinə qərar çıxarmış və Amerika məhkəmələrindən özü vəkil tuta bilmək iqtidarında olmayan müttəhimlər üçün vəkil təmin etmələrini tələb etmişdir.

tərəfindən vəkil təyin olunmasını tələb etdiyini söyləyərək onun bu müraciətini qəbul etməmişdi. Gideon öz-özünü müdafiə etmiş və təqsirli bilinmişdi. Həbsxanada olarkən Gideon gününü kitabxanada qanun kitablarını oxumaqla və onun işinə baxılması üçün Ali Məhkəməyə müraciətlər yazmaqla keçirmişdi. Ali Məhkəmə Gideona ədalətli mühakimə olunmaq imkanı verilmədiyini təsbit etmiş, cinayətdə günahlandırılan və özünə vəkil tutmaq imkanı olmayan insanlar üçün hər bir ştatın vəkil təyin etməsi barədə qərar çıxarmışdı. Gideon vəkil yardımı ilə təmin edildikdən sonra məhkəmədə bəraət almışdı.

Bu hadisədən cəmi üç il sonra Ali Məhkəmə günahlandırılanların məhkəməyə çıxarılmazdan xeyli əvvəl vəkillə təmin olunmaq hüququna malik olmaları barədə qərar çıxarmışdır.

Ernesto Miranda Arizonada ştat məhkəməsi tərəfindən uşaq oğurlamaq və zorlamaqda günahlandırılmışdı. Mirandanın günahkarlığı vəkilinin iştirakı ilə dindirilmək hüququna malik olduğu ona bəyan edilmədən aparılan iki saatlıq dindirmə nəticəsində polis zabitlərinə verdiyi ifadələr əsasında müəyyənləşdirilmişdi. Bu məsələ ilə bağlı qərarında Ali Məhkəmə tələb etmişdi ki, polis zabitləri hər hansı bir şəxsi həbs edərkən ona indi *Miranda xəbərdarlıqları* kimi tanınan bərdarlıqlar etməlidirlər, yəni şübhələnilən şəxslərin susmaq, söyləyəcəkləri hər şeyin onların əleyhinə olacağını bilmək, öz vəkilinin iştirakı ilə dindirilmək, özü tutmaq iqtidarında olmayanda vəkillə təmin edilmək hüququna malik olduqlarını onlara elan etməlidirlər.

«Miranda Arizonaya qarşı» məhkəmə işində çıxarılan qərar Amerika filmlərində və televiziya proqramlarında təkrar-təkrar istifadə olunan *Miranda xəbərdarlıqları* kimi Ali Məhkəmənin ən məşhur qərarlarından biridir. Buna baxmayaraq, federal apellasiya məhkəmələrindən biri 1999-cu ildə *«Dikkerson Birləşmiş Ştatlara qarşı»* məhkəmə işində bu qərarı pozmuşdur; bank oğurluğunda günahlandırılan şəxs hüquqlarının ona tam şəkildə oxunulmadığını iddia etmişdir. 2000-ci ilin iyununda Ali Məhkəmə 2 səsə qarşı 7 səslə *«Dikkerson işi»* ilə bağlı qərarı ləğv edərək *«Miranda»* qərarının qanuniliyini möhkəmləndirmişdir.

«NYU YORK TAYMS» ŞİRKƏTİ SALLİVANA QARŞI (1964)

ABŞ Konstitusiyasına Birinci Əlavə mətbuat azadlığına zəmanət verir, ancaq Ali Məhkəmə uzun illər böhtanla – şəxsiyyətin nüfuzuna xələl gətirən yalan informasiyaların dərci ilə bağlı məhkəmə proseslərində medianı müdafiə məqsədilə Birinci Əlavədən yararlanmaqdan vaz keçmişdi. Ali Məhkəmənin *«Nyu York Tayms Sallivana qarşı»* məhkəmə işində çıxardığı qərar Birləşmiş Ştatlarda böhtan haqqında qanuna köklü dəyişikliklər etmişdir: belə ki, Ali Məhkəmə ictimai məmurların təkcə dərc olunmuş informasiyanın yalan olduğunu sübut etməklə məhkəmə prosesində uğur qazana biləcəklərinin mümkün olmadığına qərar vermişdir. Məhkəmə müəyyən etmişdir ki, şikayətçilər, həmçinin müxbirlərin və ya redaktorların həqiqətən «qərəzli niyyətlə» hərəkət etdiklərini və informasiyanı «yalan və ya doğru olub-olmamasına tamamilə etinasızlıq göstərərək» dərc etdiklərini sübut etməlidirlər.

Bu məhkəmə işinə 1960-cı ildə Alabamada həbs edilən vətəndaş hüquqları lideri Martin Lüter Kinqin qanuni müdafiəsi üçün vəsait toplamaq məqsədilə Cənubi Xristian Liderləri Konfransının *«Nyu York Tayms»da* yerləşdirdiyi tam səhifəlik elan səbəb olmuşdu. Alabama ştatının Montqomeri şəhərinin polis departamenti üçün məsuliyyət daşıyan komissar L.B. Sallivan şəhər polis qüvvələrinin fəaliyyətini yanlış təsvir etməklə elanla ona böhtan atıldığını iddia etmişdi. Sallivan bu elanı qəzetdə yerləşdirdiyinə görə dörd keşişi və onun səhihliyini yoxlamadığına görə *«Nyu York Tayms»ı* məhkəməyə vermişdi.

Martin Lüter Kinq (sağda) 1960-cı ildə Corciya ştatının Alabama şəhərində həbs olunarkən. Alabamanın Montqomeri şəhərində Kinqin həbsi həmin ildə «Nyu York Tayms» Sallivana qarşı» məhkəmə işini sürətləndirmişdir; bu işlə bağlı qərarında Ali Məhkəmə ictimai məmurların, materialların «qərəzli niyyətlə» və «yalan və ya doğru olmasına tamamilə etinasızlıq göstərilərək» dərc olunduğunu sübut etmədən mətbuatın onlara böhtan atdığını iddia edə bilməyəcəklərini müəyyənləşdirmişdir.

Elanda bir neçə yanlışlığa yol verilməsi səbəbindən məhkəmə jürisi Sallivana 500.000 dollar cərimə ödənilməsinə qərar verdi. Qəzet və vətəndaş hüquqları liderləri məhkəmənin bu qərarı barədə Ali Məhkəməyə apellyasiya verdilər və o bu məsələni yekdilliklə onların xeyrinə həll etdi. Məhkəmə qərara aldı ki, böhtan haqqında qanunlardan «ictimai məmurların rəsmi fəaliyyətlərini tənqid edən ifadələrə sanksiya vermək» üçün istifadə oluna bilməz və tənqid edənlərdən öz qeydlərinin dəqiqliyinə zəmanət vermələrinin tələb edilməsi özünüsenzuraya aparıb çıxaracaqdır. Məhkəmə *«Nyu York Tayms»* qəzetinin və yaxud keşişlərin elanın dərci ilə bağlı hərəkətlərində heç bir qərəzli niyyət aşkar etmədi. ❑

Texas ştatının Nümayəndələr Palatasının qanunvericiləri Austindəki ştat Kapitoliyası binasında yığışmışlar.

FƏSİL
7

ÇOXLU DÖVLƏTLƏR ÖLKƏSİ

«Bu Konstitusiya ilə Birləşmiş Ştatlara həvalə edilməyən və ayrı-ayrı ştatlar tərəfindən istifadəsi qadağan olunmayan səlahiyyətlər ştatların və xalqın ixtiyarında qalır».
– Amerika Birləşmiş Ştatlarının Konstitusiyası, X Əlavə, 1789

Konstitusiya tərəfindən yaradılan federal mahiyyət Amerika dövlət sisteminin ən dominant xüsusiyyətidir. Ancaq bu sistemin özü əslində mütəşəkkil bloklardan yaradılan bir bina kimi minlərlə kiçik vahiddən təşkil olunmuş mozaik bir sistemdir. Ölkədə 50 ştat, bir xüsusi dairə (Kolumbiya Dairəsi) dövləti, onlardan aşağı səviyyədə isə qraflıq, şəhər, qəsəbə və kəndləri idarə edən kiçik dövlət vahidləri mövcuddur.

Dövlət vahidlərinin çoxluğu Birləşmiş Ştatların inkişafı prizmasından daha yaxşı başa düşülür. Göründüyü kimi, federal sistem inkişaf prosesində sonuncu addım olmuşdur. Konstitusiyadan əvvəl burada müstəqil koloniyaların (sonra isə ştatların) dövlət qurumları, onlardan əvvəl isə qraflıqların hakimiyyət qurumları və digər kiçik hakimiyyət vahidləri mövcud idi. İngiltərədən gəlmiş ilk məskunların birinci vəzifəsi Atlantik okeanının sahilləri boyu saldıqları kiçik yaşayış məntəqələrində idarəçilik orqanları yaratmaq olmuşdur. Zəvvarlar, hətta 1620-ci ildə öz gəmilərini tərk etməzdən qabaq Amerikanın ilk yazılı konstitusiyasını – «Meyflover müqaviləsi»ni tərtib etmişdilər. Və yeni yaranmaqda olan xalq qərbə doğru irəlilədikcə hər bir sərhəd yaşayış məntəqəsi öz işlərini idarə etmək üçün öz hakimiyyət orqanlarını yaratmışdı.

ABŞ Konstitusiyasını tərtib edənlər bu çoxqatlı idarəçilik sisteminə toxunmayıblar. Onlar ümummilli strukturu ən üstün mövqeyə qaldırsalar da, xalqla birbaşa təmasda olan və onların ehtiyaclarını daha yaxından duyan yerli hakimiyyətlər silsiləsinin lazımlı olduğunu ağıllı şəkildə qəbul ediblər. Yəni, müdafiə məsələləri, pulun tənzimlənməsi və xarici əlaqələr kimi məəyyən funksiyalar yalnız güclü, mərkəzləşdirilmiş dövlət tərəfindən idarə olunmalıdır. Sanitariya, təhsil və yerli nəqliyyat kimi digər funksiyalar isə yerli yurisdiksiya tərəfindən daha yaxşı yerinə yetirilə bilər.

ŞTAT HAKİMİYYƏTİ

Müstəqillik əldə etməmişdən əvvəl koloniyalar ayrı-ayrılıqda Britaniya taxt-tacı tərəfindən idarə olunurdu. Respublikanın ilk dövrlərində, Konstitusiya qəbul edilməmişdən qabaq isə hər bir ştat, faktiki olaraq muxtar bir qurum idi. Konstitusiya Konventinin nümayəndələri daha möhkəm, daha davamlı federal ittifaq yaratmağa çalışırdılar, amma bununla belə, ştatların hüquqlarını da qoruyub saxlamaq niyyətindəydilər.

Ümumiyyətlə, tamamilə ştat hüdudlarında qalan məsələlər müstəsna olaraq ştat hakimiyyət orqanlarının səlahiyyətlərinə aiddir. Buraya daxili kommunikasiya, əmlakla bağlı tənzimləmələr, sənaye, biznes və ictimai istifadə müəssisələri, ştatın cinayət məcəlləsi və ştat daxilində iş şəraitləri daxildir. Bu kontekst çərçivəsində federal dövlət ştat hakimiyyət orqanlarından formaca demokratik olmağı, federal Konstitusiyaya və yaxud Birləşmiş Ştatların qanunlarına və xarici müqavilələrinə zidd olan və onları pozan qanunlar qəbul etməməyi tələb edir.

Əlbəttə ki, bir çox sahələrdə ştatla federal dövlətin yurisdiksiyaları qismən üst-üstə düşür. Xüsusilə də son illərdə federal dövlət səhiyyə, təhsil, rifah, nəqliyyat, mənzil və urbanizasiyanın inkişafı kimi bir çox məsələlərlə bağlı bir sıra məsuliyyəti öz üzərinə götürmüşdür. Ancaq federal dövlət bu məsuliyyətlərini ştatlarda gerçəkləşdirərkən həmin işlərlə bağlı proqramlar adətən yuxarıdan verilən göstəriş kimi deyil, iki hakimiyyət səviyyəsi arasında əməkdaşlıq əsasında qəbul edilir.

Kaliforniya qubernatoru Qrey Devis məktəblilərin və təhsil işçilərinin gözü önündə ştatın ictimai məktəblərinin inkişafına dair qanunvericilik aktını imzalayır.

Milli dövlət kimi, ştat hakimiyyətinin də üç – icra, qanunverici və məhkəmə qanadı var, bunlar ştat səviyyəsində eynilə federal hakimiyyət qanadlarının funksiya və səlahiyyətlərinə oxşar funksiya və səlahiyyətləri daşıyırlar. Ştatın icra strukturuna əhali tərəfindən dörd il müddətinə (hərçənd bəzi ştatlarda bu müddət iki ilə bərabərdir) seçilən qubernator rəhbərlik edir. Birpalatalı qanunverici orqana malik Nebraska ştatı istisna olunmaqla, qalan bütün ştatlar ikipalatalı qanunvericilik orqanına malikdir; bir qayda olaraq yuxarı palata Senat, aşağı palata isə Təmsilçilər Palatası, Nümayəndələr Palatası və yaxud Baş Məclis adlanır. Ştatların çoxnda senatorlar dörd il, aşağı palata üzvləri isə iki il müddətinə xidmət edirlər.

Müxtəlif ştatların konstitusiyaları müəyyən detalları ilə bir-birindən fərqlənsə də, insanların hüquq bəyannaməsi və hakimiyyətin təşkili planı da daxil olmaqla, ümumən federal Konstitusiyada nəzərdə tutulan müddəalara bənzər maddələrdən ibarətdir. Biznesin idarə olunması, bank işi, ictimai istifadə müəssisələri və xeyriyyə institutları məsələlərində ştat konstitusiyaları federal Konstitusiyaya nisbətən daha təfərrüatlı və daha dəqiqdir. Hər bir ştat konstitusiyası son səlahiyyətin xalqa məxsus olduğunu bəyan edir və dövlətin əsasını təşkil edən müəyyən standartları və prinsipləri müəyyənləşdirir.

ŞƏHƏR HAKİMİYYƏTİ

Bir vaxtlar kənd yerlərinin böyük üstünlük təşkil etdiyi Birləmiş Ştatlar bu gün ən yüksək urbanizasiya səviyyəsinə malik bir ölkədir və onun əhalisinin təxminən 80 faizi qəsəbələrdə, şəhərlərdə və şəhərətrafı rayonlarda yaşayır. Bu statistik göstəricilər

şəhər hakimiyyətlərinin ümumi amerikan dövləti sistemində son dərəcə vacib əhəmiyyət kəsb etdiyini göstərir. Federal dövlətlə və ştat hakimiyyətinə nisbətən şəhər hakimiyyəti daha geniş şəkildə insanların birbaşa ehtiyaclarına xidmət edir, onları polis və yanğınsöndürmə xidmətindən tutmuş sanitariya məcəllələri, səhiyyə, təhsil, ictimai nəqliyyat və mənzil məsələlərinə qədər hər şeylə təmin edir.

Amerikanın iri şəhərlərinin idarə olunması son dərəcə mürəkkəb bir işdir. Təkcə əhalisinin sayına görə Nyu York Amerikanın 50 ştatının 41-dən böyükdür. Çox vaxt belə deyirlər ki, ölkə prezidenti vəzifəsindən sonra ölkədə ən ağır icra vəzifəsi Nyu York şəhərinin meri vəzifəsidir.

Şəhər hakimiyyət orqanları ştatlar tərəfindən təsis edilir və onarın təsis fərmanlarında bələdiyyə hakimiyyətinin məqsədləri və səlahiyyətləri təfsilatı ilə sadalanır. Bir çox münasibətlərdə şəhərlər ştatlardan asılı olmadan, müstəqil şəkildə fəaliyyət göstərir. Ancaq öz sakinlərinin ehtiyaclarını qarşılamaq məqsədilə ştat və federal səviyyəli təşkilatlarla əməkdaşlıq bir çox böyük şəhərlər üçün mühüm əhəmiyyət kəsb edir.

Ölkədəki şəhər hakimiyyəti tipləri geniş şəkildə bir-birindən fərqlənir. Buna baxmayaraq, demək olar ki, onların hamısı şəhər işlərinin idarə edilməsi üçün seçicilər tərəfindən seçilən mərkəzi şəhər şurasına və müxtəlif şöbə rəhbərlərinin yardımı ilə çalışan əsas icra məmuruna malikdir.

Ümumən üç şəhər hakimiyyəti tipi mövcuddur: mer-şura, komissiya və şəhər meneceri. Bunlar təmiz formalardır: ancaq şəhərlərin çoxunda bu formaların ikisi və ya üçünün də qarışığından ibarət formalar inkişaf etmişdir.

İllinoys ştatı, Çikaqo şəhərinin meri Riçard M. Deyli 1999-cu ildə Torpaq günü münasibətilə nitq söyləyir.

Mer-şura. Bu, Birləşmiş Ştatlarda ən yaşlı şəhər hakimiyyəti formasıdır və demək olar ki, bütün Amerika şəhərləri 20-ci əsrin əvvəlinədək ondan istifadə etmişdir. Onun strukturu ştat və milli hakimiyyət strukturlarına bənzəyir: burada da əhali tərəfindən seçilən icra qanadının başçısı kimi şəhər meri və şəhərlərarası rayonların təmsilçilərindən ibarət qanunverici qanad kimi şəhər şurası mövcuddur. Mer şəhər şöbələrinin rəhbərlərini və digər məmurları təyin edir, bəzi hallarda onların bələdiyyə şuraları tərəfindən təsdiq edilməsi tələb olunur. Merin fərman və qərarlara – şəhər qanunlarına veto qoymaq səlahiyyəti vardır və adətən şəhər büdcəsinin hazırlanmasına məsuliyyət daşıyır. Şəhər şurası şəhər qanunlarını təsdiq edr, əmlak vergisi normalarını müəyyənləşdirir və pulu müxtəlif şəhər departamentləri arasında bölüşdürür.

Komissiya. Bu forma qanunvericilik və icra funksiyalarının bir məmur qrupunun əlində cəmləşməsini nəzərdə tutur; adətən üç və ya daha çox sayda olan bu məmurlar şəhər sakinləri tərəfindən seçilir. Hər bir komissiya üzvü – komissioner bir və ya daha çox şəhər departamentinin işinə nəzarət edir. Onlardan biri bu qrupun sədri hesab olunur və adətən mer adlanır; ancaq onun səlahiyyətləri komissiya üzvlərininkinə bərabər olur.

Şəhər meneceri. Şəhər meneceri forması urbanizasiya problemlərinin daim artmaqda olan mürəkkəbliyinə cavab olaraq düşünülmüşdür; bu mürəkkəblik seçilmiş ictimai xadimlərdən çox vaxt malik olmadıqları idarəçilik təcrübəsi tələb edir. Bu səbəbdən, qanunların tətbiq edilməsi və xidmətlərin təmin olunması da daxil edilməklə bir çox icra səlahiyyətlərinin daha yüksək səviyyədə iş və peşəkarıq təcrübəsi olan şəhər menecerinə etibar edilməsi məqsədəuyğun hesab edilmişdir.

Şəhər meneceri planı getdikcə daha çox sayda şəhərlər tərəfindən qəbul edilməkdədir. Həmin plana əsasən kiçik, seçilmiş şəhər şuraları şəhər qanunlarını çıxarır və onun siyasətini müəyyənləşdirir, amma öz qərarlarını həyata keçirmək üçün şəhər meneceri adlandırılan muzdlu icraçı məmur işə götürür. Menecer şəhər büdcəsini hazırlayır və departamentlərin əksəriyyətinə nəzarət edir. Bir qayda olaraq şəhər meneceri üçün müddət qoyulmur: şəhər şurası onun işindən məmnun qaldığı müddətdə menecer öz vəzifəsini icra edir.

QRAFLIQ HAKİMİYYƏT SİSTEMİ

Qraflıq ştatın tərkib hissəsidir, adətən – ancaq həmişə yox – iki və ya daha çox şəhər rayonundan və bir neçə kənddən ibarət olur. Nyu-York şəhəri o qədər böyükdür ki, o, qraflıq statusuna malik beş müstəqil inzibati əraziyə bölünür: Bronks, Manhetten, Bruklin, Kuins və Steyten Aylend. Digər tərəfdən, Virciniyadakı Arlinqton qraflığı Vaşinqton şəhərindən Patomok çayı vasitəsilə ayrılır və bunların hər ikisi unitar qraflıq administrasiyası tərəfindən idarə edilən şəhərləşmiş və şəhərətrafı ərazilərdir.

Birləşmiş Ştatlarda qraflıqların əksəriyyətində bir şəhər və ya qəsəbə qraflığın mərkəzi təyin edilir və yerli hökumət məmurları, komissionerlər və yaxud nəzarətçilər heyəti burada oturur. Kiçik qraflıqlarda bu heyətlər yerli əhali tərəfindən bütöv halda, iri qraflıqlarda isə nəzarətçilər ayrı-ayrı rayon və qəsəbə ərazilərini təmsil edirlər. Heyət vergi qoyur, pul borc alır və ayırır, qraflıq məmurlarının maaşlarını müəyyən edir. Seçkilərə nəzarət edir, şosse yolları və körpülər salır və onlara qulluq edir, milli, ştat və qraflıq rifah proqramlarını həyata keçirir.

QƏSƏBƏ VƏ KƏND HÖKUMƏTLƏRİ

Minlərlə bələdiyyə yurisdiksiyası şəhər hakimiyyəti kimi xarakterizə edilmək üçün çox kiçikdir. Onlar qəsəbə və kəndlər kimi rəsmiləşdirilib və yollara asfalt döşənməsi və küçələrə işıq salınması kimi tamam yerli ehtiyacları ödəməklə məşğul olur, su ehtiyaclarını təmin edir, polis və yanğından mühafizə xidmətlərini həyata keçirir, yerli səhiyyə məsələlərilə bağlı tənzimləmə aktları qəbul edir, zibillərin, çirkli suların və digər tullantıların lazımi yerlərə nəql olunması işini yerinə yetirir,

Ştat senatoru Elizabet Ridi Vermont ştatının Veybric qəsəbəsində şəhər toplantısında vətəndaşlara müraciət edir.

idarəetmə əməliyyatlarını dəstəkləmək üçün vergi toplayır və ştat, qraflıq təşkilatları ilə birlikdə yerli məktəb sistemini idarə edir.

Burada hökumət, bir qayda olaraq, seçilmiş heyətə və ya şuraya həvalə edilir və o, müxtəlif cür adlana bilər: qəsəbə və yaxud kənd şurası, seçilmişlər heyəti, nəzarətçilər heyəti, komissionerlər heyəti. Heyətin baş icraçı məmur funksiyalarını yerinə yetirən rəhbəri və yaxud sədri, ya da seçilmiş meri ola bilər. Hökumət işçilərinə klerk, xəzinədar, polis və yanğınsöndürmə məmurları, səhiyyə və sosial rifah məmurları daxildir.

Yerli hökumətin ən unikal bir sistemi daha çox Birləşmiş Ştatların Yeni İngiltərə regionunda rast gəlinən *şəhər yığıncağıdır*. Qəsəbənin qeydiyyatdan keçmiş seçiciləri yerli hökumət məmurlarını seçmək, yerli problemləri müzakirə etmək və hökumətin idarə edilməsi üçün lazım olan qanunları qəbul etmək məqsədilə ildə bir dəfə – bəzən lazım gəldikdə isə daha tez-tez açıq sessiyada bir araya gəlirlər. Bir hökumət orqanı kimi onlar yolların salınması və təmiri, ictimai binaların tikintisi və avadanlıqla təchiz edilməsi, vergi normaları və qəsəbə büdcəsi barədə qrarlar çıxarırlar. İki əsrdən də artıq mövcud olan qəsəbə yığıncağı çox vaxt ən təmiz demokratiya forması kimi dəyərləndirilir, çünki belə bir sistemdə hökumət səlahiyyətləri heç kəsə həvalə edilmədən birbaşa və müntəzəm surətdə xalq tərəfindən həyata keçirilir.

DİGƏR YERLİ HÖKUMƏTLƏR

Burada haqqında bəhs edilən federal, ştat və yerli hakimiyyət sistemləri Amerikanın bütün hakimiyyət formaları spektrini heç bir vəchlə tam şəkildə əks etdirmir. ABŞ Siyahıyaalma Bürosu (Ticarət Departamentinin bir idarəsi) Birləşmiş Ştatlarda qraflıq, bələdiyyə, qəsəbə, məktəb rayonları və xüsusi rayonlar da daxil edilməklə 84955-dən çox yerli hakimiyyət vahidinin olduğunu təsbit etmişdir.

Respublikanın ilk günlərində insanların geniş miqyasda özləri gördükləri bir çox işi amerikalılar artıq öz hakimiyyət struktur-



Yanğınsöndürənlər Pensilvaniya ştatı, Montqomerivil qəsəbəsində üç evdə birdən baş verən yanğını söndürməyə çalışırlar. ABŞ-da yanğından mühafizə işi yerli hakimiyyətin səlahiyyətindədir.

larına etibar etmək qərarına gəliblər. Müstəmləkə dövründə hətta ən iri şəhərlərdə belə cəmi bir neçə polis və ya yanğınsöndürən vardı, o dövrkü hökumətlər nə küçələrə işıq salmaqla, nə də onları təmizləməklə məşğul olurdular. Əksər hallarda öz əmlaklarını özləri qoruyur və ailə ehtiyaclarının qayğısına qalırdılar.
İndi isə bu ehtiyacların qarşılanmasına hökumət vasitəsilə fəaliyyət göstərən bütöv bir icmanın vəzifəsi kimi baxılır. Hətta ən xırda şəhərlərdə belə polis, yanğından mühafizə, sosial rifah və səhiyyə departamentlərinin funksiyaları hökumət tərəfindən yerinə yetirilir. Yurisdiksiyaların adamı heyrətə salan çoxluğu və rəngarəngliyi də məhz buradan qaynaqlanır. ❑

Kaliforniya ştatının Los Anceles şəhərində insanlar səs vermək üçün qeydə alınırlar.

FƏSİL
8

XALQ DÖVLƏTİ

VƏTƏNDAŞLA-RIN ROLU

«Dövləti yanlışlıqlara yuvarlanmaqdan qorumaq vətəndaşların funksiyasıdır». – Robert H. Cekson, ABŞ Ali Məhkəməsinin üzvü, Amerika Kommunikasiya Assosiasiyası, Douds k., 1950

1787-ci ildə ABŞ Konstitusiyasını hazırlamaqla ölkənin Qurucu Ataları yeni dövlət sistemi yaratdılar. Bu sistemin özəyini təşkil edən və dövrünə görə son dərəcə inqilabi xarakter daşıyan bu ideya ilk baxışdan çox sadə və düzxətli görünə bilər. İdarəetmə səlahiyyəti irsi və yaxud silah gücünə deyil, birbaşa insanların iradəsi ilə, ABŞ vətəndaşlarının azad və açıq seçkilərdə səs verməsi yolu ilə qazanılır. Nəzəri cəhətdən bu, asan və sözün gerçək mənasında başa düşülsə də, praktikada belə bir vəziyyətdən xeyli uzaq olmuşdur. İlk başlanğıcdan hər şeyi mürəkkəbləşdirən başlıca məsələ seçmək hüququ ilə bağlı idi: kimlərə seçmək icazəsi verilməlidir, kimlərə yox.

Qurucu Atalar, əlbəttə ki, öz dövrlərinin insanlarıydı. Onlara görə öz-özlüyündə məlum idi ki, yalnız cəmiyyətdə sayılan adamlar bu cəmiyyəti kimlərin idarə edəcəyinin müəyyənləşdirilməsində səs hüququna malik olmalıdırlar. Onlar buna inanırdılar ki, dövlət əmlakı və fərdi azadlıqları qorumaq üçün quruculuğuna görə onu idarə edən hökumətin seçilməsinə cəlb olunanlar müəyyən qədər bunların hər birinə malik olmalıdırlar.

O dövrdə bu o demək idi ki, yalnız əmlak sahibi olan ağdərili protestantlar səs verə bilərlər. Nə qadınlar, nə yoxsul insanlar, nə müqavilə ilə çalışan xidmətçilər, nə katoliklər, nə yəhudilər, nə afrikalı kölələr, nə də yerli amerikalılar seçə bilərdilər. «Qadınlar öz asılılıqlarına görə kölələr və xidmətçilər kimi xarakterizə edilmişdilər», – tarixçi Maykl Şudson deyir. – «Vətəndaşlıq yalnız öz həyatlarının ağası olanlara məxsus idi». Bu məhdudiyyətlər səbəbindən yenicə yaranmış Birləşmiş Ştatların o dövrkü əhalisinin yalnız 6 faizi 1789-cu ildə Corc Vaşinqtonu ölkənin ilk prezidenti seçmişdir.

Yeni amerikalılar kral ailəsinə və zadəgan nəslinə mənsubluq faktorundan yaxa qurtardıqları ilə qürur duysalar da, ilk vaxtlar «adi insanlar»ın «nəcib silkə» daxil olmaları hələ mümkün deyildi. Buna görə də varlı və əlaqələri geniş ailələrin üzvləri, bir qayda olaraq, heç bir ciddi müxalifətə rast gəlmədən siyasi vəzifələrə yiyələnirdilər. Ancan bu vəziyyət çox da uzun davam etmədi. Demokratiya dalğası o qədər güclü təsirə malik oldu ki, bu çərçivəyə sığmadı; kasıb və geniş əlaqələrə malik olmayan insanlar da bu qənaətə gəlməyə başladılar ki, onlar da dövlətin idarə olunmasında iştirak etmək imkanı qazanmaq hüququna malik olmalıdırlar.

SƏSVERMƏ HÜQUQU DAİRƏSİNİN GENİŞLƏNMƏSİ

19-cu əsr boyu Birləşmiş Ştatlarda siyasi düşüncə ləng də olsa, davamlı surətdə daha əhatəli xarakter almağa başladı. Köhnə düşüncələr aradan çıxdı, əvvəllər yaxına buraxılmayan qruplar siyasi proseslərə cəlb olundular və tədricən, addımbaaddım daha çox adamlara səsvermə hüququ verildi. Ən əvvəl dini və əmlaka sahibolma məhdudiyyətləri aradan götürüldü və beləliklə, əsrin ortalarında artıq ağdərili kişi əhalisinin əksəriyyəti səsvermədə iştirak edə bilirdi.

Vətəndaş müharibəsi (1861–1865) köləlik məsələsi üzərində qələbə çaldıqdan sonra isə ABŞ Konstitusiyasına edlilən üç əlavə Amerika demokratiyasının əhatə dairəsini və təbiətini əhəmiyyətli dərəcədə dəyişdirdi. 1865-ci ildə ratifikasiya edilən On üçüncü Əlavə köləliyi ləğv etdi. 1868-ci ildə ratifikasiya edilən On dördüncü Əlavə Birləşmiş Ştatlarda doğulan və ya naturalizasiya edilən bütün insanların ölkənin və ya yaşadıqları ştatın vətəndaşları olduqlarını və onların yaşamaq, azadlıq, əmlak və qanunlarla bərabər şəkildə qorunmaq hüquqlarının federal dövlət tərəfindən həyata keçirildiyini bəyan etdi. 1870-ci ildə ratifikasiya edilən On beşinci Əlavə irqinə, rənginə və əvvəlki kölə vəziyyətinə görə potensial seçicilərə qarşı ayrı-seçkiliyə yol verilməsini federal və ştat hakimiyyətlərinə qadağan etdi.

Qadın Seçicilər Liqasının nəşr etdiyi bu plakatda qadınlar 1920-ci ildə Konstitusiyaya edilən On doqquzuncu Əavənin onlara verdiyi seçmək hüququndan istifadə etməyə çağırılır.

Ən vacib məsələlərdən biri – «cins» sözünün bu siyahıya salınmaması təsadüfən və ya nəzərdən qaçırıldığına görə baş verməmişdi; qadınlara seçkilərdə iştirak etmək hələ də qadağan idi. Sabiq kölələrin səsvermə hüququna malik olanların sırasına daxil edilməsi qadınların səsvermə hüququ uğrunda uzun sürən mübarizə kampaniyasına tədricən yeni həyat verdi. Bu mübarizə, nəhayət, «cinsi əlamətlərə görə» səsvermə hüququndan mərhum edilməyə yol verilməməsini təsbit edən On doqquzuncu Əlavənin 1920-ci ildə qəbul edilməsiylə qələbəylə başa çatdı.

Ancaq bu məqamda paradoksal bir vəziyyət yarandı: indi qadınlar səs verə bilərdilər, qaradərili amerikalıların çoxu isə yox. 1890-cı illərin əvvəllərindən başlayaraq cənublu ağdərilər «baba şərti» (bu, əcdadları səsvermə hüququna malik olmamış bütün vətəndaşların savad imtahanından keçməsini tələb edirdi), səsvermə vergisi qoyulması kimi tənzimləmələrə səs verməklə, daha çox hallarda isə fiziki təhdid yolu ilə sistematik şəkildə qaradərililəri seçki siyasətindən uzaqlaşdırırdılar.

Vətəndaş hüquqlarından bu cür məhrumedilmələr 20-ci əsrdə də davam etmişdir. 1950-ci illərdə başlayan vətəndaş hüquqları hərəkatı 1965-ci ildə Səsvermə Hüquqları haqqında Aktın – federal qanunun qəbul olunması ilə nəticələnmişdir: həmin qanun ədalətsiz seçki prosedurlarını qadağan etmiş və Ədliyyə Departamentindən cənub ştatlarında keçirilən seçkilərə nəzarət etməyi tələb etmişdir. 1964-cü ildə ratifikasiya edilən İyirmi dordüncü Əlavə səs verə bilmək üçün seçki vergisinin ödənilməsi tələbini ləğv etmiş və bununla da ştatların afrikalı amerikalıların və yoxsul

davamı səhifə 110

SİYASİ PARTİYALAR

Amerikanın Qurucu Atalarının əksəriyyətinin siyasi partiyalardan zəhləsi gedirdi, onlar qəti şəkildə əmin idilər ki, bir-biriylə çarpışan «fraksiyalar» ümumi məqsəd naminə çalışmaqdan daha çox bir-biriylə rəqabət aparmaqda maraqlı olacaqlar. Onlar fərdi insanların heç bir mütəşəkkil qrupun müdaxiləsi olmadan fərdi namizədlərə səs vermələrini istəyirdilər, ancaq belə ola bilməzdi.

1790-cı illərdə artıq yeni ölkənin hansı düzgün kursu seçməsiylə bağlı müxtəlif baxışlar formalaşmışdı və bu bir-birinə müxalif baxışlara malik olanlar öz həmfikirləriylə bir araya gələrək öz ideyalarına dəstək qazandırmağa çalışırdılar. Aleksandr Hamiltonun ardıcılları özlərini federalistlər adlandırırdılar: onlar ticarət və sənaye maraqlarını himayə edən möhkəm mərkəzi hökumətə üstünlük verirdilər. Tomas Ceffersonun ardıcılları isə özlərini demokratik-respublikaçı adlandırırdılar və məhdud səlahiyyətli federal hakimiyyətə malik, desentralizasiya edilmiş aqrar respublika formasını dəstəkləyirdilər. 1828-ci ildə federalistlər bir təşkilat kimi aradan çıxdı və onun yerini tutan viqlər (whigs) seçkilərdə müxalifətə yeni can verdilər və həmin il Endrü Cekson prezident seçildi. Demokratik-respublikaçılar isə demokratlara çevrildi və bu gün də davam edən ikipartiyalı sistem belə yarandı.

1850-ci illərdə, xüsusilə də ölkənin qərbdəki yeni ərazilərində kölәliyə icazə verilib-verilməməsiylə bağlı mübahisələr ucbatından kölәlik məsələsi əsas mərhələsinə qədəm qoydu. Viq Partiyası bu məsələnin əhəmiyyətini nəzərdən qaçırdı və bu da onun məhvinə səbəb oldu: 1854-cu ildə onu əvəz edən Respublikaçılar Partiyasının ilk siyasəti kölәliyin bütün əlazilərdə ləğv olunmasına həsr edilmişdi. Cəmi altı ildən sonra – 1860-cı il seçkilərində bu yeni partiya Avraam Linkolnun qələbəsi ilə prezidentliyə yiyələndi. O vaxtdan partiyalar ölkənin dominant siyasi təşkilatları kimi çox fəal rol oynamağa başladılar və partiya sədaqəti insanların əksəriyyətinin şüurunda dərin kök saldı. Partiyaya mənsubluq atadan oğula keçməyə başladı və müvafiq forma geyinmiş qrupların marşları və məşəlli paradlarla müşayiət olunan gur seçki kampaniyaları da daxil olmaqla, partiya fəaliyyətləri bir çox icmanın sosial həyatının tərkib hissəsinə çevrildi.

Ancaq 1920-ci illərdən etibarən insanların partiya fəaliyyətinə bu cür coşqusu səngiməyə başladı. Bələdiyyə islahatları, mülki xidmət islahatları, korrupsiya praktikaları barədə qanun aktları və ümummilli konvensiyalarda siyasətçilərin gücünü zəiflədən ilkin prezident seçkilərinin keçirilməsi – bütün bunlar siyasətin təmizlənməsinə və onun öz cazibədarlığını xeyli itirməsinə kömək etdi.

Nə üçün bu ölkə son nəticədə yalnız iki siyasi partiya ilə kifayətlənməli oldu? Amerikada rəsmi şəxslərin çoxu yalnız birnümayəndəli seçki dairələrindən seçilir, «birinci sonrakını üstələyir» prinsipinə əsaslanan sistemdə öz opponentlərini məğlub edir; yəni burada ən çox səs toplayan qalib gəlir və heç bir proporsional hesablamalara yol verilmir. Belə bir sistem iki cütlüyün yaranmasını təşviq edir: partiyalardan biri hakimiyyətdə olanda, digəri kənarda qalır. «Kənarda» – müxalifətdə qalan qrup, partiya «hakimiyyətdə» olanı devirmək üçün daha yaxşı şansa malik olur.

Təsadüfi hallarda üçüncü partiyalar da peyda olur, müəyyən qədər səs toplayır. Lakin onların ömrü uzun sürmür. Son vaxtlarda ən uğurlu üçüncü partiya H. Ross Peronun İslahatçılar Partiyası olmuşdur: o, 1992 və 1996-cı illərin prezident seçkilərində müəyyən uğur qazanmışdır. İslahatçılar Partiyasının ştat səviyyəsində qələbə çalan ilk namizədi 1998-ci ildə Minnesota ştatının qubernatoru seçilən Cessi Ventura olmuşdur. Bununla belə, üçüncü partiyaların yaşamaları həddən artıq çətindir, çünki böyük partityalardan biri və ya hər ikisi çox vaxt onların populyar mövzularını ələ keçirir və bu yolla da seçicilərini ələ keçirmiş olurlar.

«Amerikada eyni siasi partiyalar – demokratlar və respublikaçılar faktiki olaraq bütün ictimai vəzifələri əllərində saxlayırlar və buna görə də seçicilərin əksəriyyəti hər yerdə bu iki partiya adına səfərbər edilmişdir», – professor Nelson V. Polsbi «Federalist məqalələr: Konstitusiyanı müdafiə edən esselər» *kitabında yazır: «Ancaq demokratlar və respublikaçılar hər yerdə eyni cür deyillər. Ştatlara məxsus 50 siyasi mədəniyyət arasında mövcud olan bəzən incə, bəzən isə açıq-aşkar müxtəlifliklər demokratın və ya respublikaçının nə demək olduğu və yaxud nəyə səs verməsi baxımından böyük fərqliliklər doğurur. Bu fərqliliklər hər bir adamda ikipartiyalı amerikan sisteminə münasibətdə sanki yüzpartiyalı sistem təsəvvürü yarada bilir».*

1867-ci ilə aid olan və Vaşinqton D.C.-də səsvermə prosesini əks etdirən bu rəsmdə afroamerikalı vətəndaşların bələdiyyə seçkisində səs vermələri təsvir olunur; afroamerikalı seçki hakimi stolun başında əyləşmişdir.

insanların səsvermə hüququnu əngəlləmək üçün istifadə etməyə çalışa biləcəkləri az sayda son vasitələrdən birini də aradan qaldırmışdır.

Səsvermə hüququnun əhatəsini genişləndirmək üçün Konstitusiyaya son dövrlərdə bir dəyişiklik də edilmişdir. ABŞ-ın Vyetnam müharibəsinə cəlb olunduğu 1960-cı illərdə və 1970-ci illərin əvvəllərində ilk dəfə İnqilab müharibəsi dövründə müzakirə edilən və o vaxtdan sonra hər bir müharibə dövründə təkrar ortalığa atılan bir ideya – əlində silah tuta biləcək yaşda olan insanların həm də səs verə biləcək yaşda olması fikri yenidən gündəmə gətirildi. 1971-ci ildə ratifikasiya edilən İyirmi altıncı Əlavə səsvermə yaşını 21-dən 18-ə endirdi. Artıq Birləşmiş Ştatların 18 yaşına çatmış bütün vətəndaşları – bu ölkədə doğulan və ya naturalizasiya edilənlərin hamısı səsvermədə iştirak edə bilər. Qanuni məhdudiyyətlər yalnız bəzi keçmiş qatı cinayətkarları və əqli cəhətdən qüsurlu insanları səsvermə hüququndan məhrum edir.

BİRBAŞA DEMOKRATİYA

Hal-hazırda Birləşmiş Ştatların seçki siyasətində ən vacib məsələ hansı insanın səsvermə hüququna malik olub-olmaması deyil, səsvermə hüququna malik olanların nə qədərinin səsverməyə getmək üçün vaxt və imkan tapa bilməsiylə bağlıdır. İndi bu rəqəm prezident seçkiləri üçün təxminən əli faizə bərabərdir. 1876-cı il seçkilərində seçici iştirakı Amerika tarixində ən yüksək həddə – 81,8 faizə bərabər olmuşdur. 1880–1890-cı illərdə bu göstərici orta hesabla 80 faiz olmuş, amma bundan sonra tədricən aşağı düşmüş, 1924-cü ildə ən aşağı həddə – 48,9 faizə enmişdir. Demokratlar Partiyasının 1930-cu illərin Böyük depressiya dövründə «Yeni kurs» siyasəti seçicilərin marağının canlanmasına səbəb olmuş və onların iştirakı orta hesabla 60 faizə yüksəlmişdir. 1968-ci ildən etibarən bu maraq yenidən azalmağa başlamış, 1996-cı il seçkilərində ən aşağı həddə – 49,1 faizə düşmüşdür.

Səsvermədə iştirak etməyənlərin sayının artması faktı çoxlarını narahat edir. «İctimai rəy sorğuları və məlumatlı müşahidəçilərin narahatlıqları belə bir fikrin geniş yayıldığını nümayiş etdirir ki, Amerikanın seçki sistemi çətinliyə düşmüşdür», – siyasət alimi A. Ceyms Reyçli özünün *«Amerikasayağı seçkilər»* kitabında yazır: «Bəziləri güman edir ki, bu çətinlik o qədər də böyük deyil və onu cüzi islahatlarla aradan qaldırmaq olar, digərlərinin fikrincə, bu çətinliyin kökləri çox dərinlərə gedib çıxır və bəlkə də geniş sosial qaydaqanun baxımından təmizləyici dəyişikliklərlə müşayiət olunan əsaslı siyasi cərrahiyyə əməliyyatı tələb edir. Narahatlıqlara seçki kampaniyalarının böyük məbləğə başa gəlməsi və uzun sürməsi, namizədlərin ictimai imicinin formalaşdırılmasında medianın güclü rol oynaması və hər iki namizədə və ümumi seçkilərə «xüsusi maraq qruplarının» hədsiz dərəcədə təsir göstərməsi daxildir».

Bəzi şərhçilər bu fikirdədirlər ki, ABŞ seçki sisteminin hər şeydən daha çox təmsilçi demokratiyaya deyil, birbaşa demokratiyaya ehtiyacı var. Məsələn, seçicilərin seçilmiş rəsmilərlə və namizədlərlə birbaşa söhbət edə bildiyi, televiziya ilə nümayiş etdirilən şəhər görüşləri xalqın seçkilərə təsir gücünü artırmağın bir yolu kimi təşviq olunur. Və səsvermə təşəbbüslərindən, referendumlardan və geri çağırmaq üçün seçkilərdən istifadə sürətlə artır. Tətbiq mexanizmi ştatdan-ştata müxtəlif olsa da, bu təşəbbüslər ümumi anlamda seçicilərə təklif olunan qanunları öz qanunvericilik orqanlarından yan keçərək petisiya – kifayət qədər imza toplamaq yolu ilə qəbul etməyə, birbaşa səsvermə yolu ilə konstitusiyalara əlavələr etməyə imkan verir. Referendumlar, məsələn, istiqrazlar buraxmaqla pul vəsaitlərini çoxaltmağı nəzərdə tutan qanunlar kimi müəyyən qanunvericilik kateqoriyalarının ictimaiyyətin təqdirini ala bilməsi üçün səsə qoyulmasını tələb edir; seçicilər, həmçinin, ştat qanunvericilik orqanları tərəfindən artıq qəbul olunmuş qanunları ləğv etmək üçün də referendumlardan istifadə edə bilərlər. Geri çağırmaqla bağlı seçkilər vətəndaşlara seçkili vəzifə sahiblərinin vəzifə müddətləri başa çatmamışdan əvvəl azad edilməsinə səs vermək imkanı qazandırır.

İndi 24 ştatda icazə verilən bu təşəbbüslər qərb ştatlarında xüsusilə populyar olmuşdur, belə ki, onlardan Oreqonda 300 dəfədən çox, Kaliforniyada 250 dəfədən çox, Koloradoda təqribən 200 dəfə istifadə edilmişdir. Müxtəlif ştatlarda, demək olar ki, hər cür məsələ, o cümlədən peşə və biznesin tənzimlənməsi, siqaret çəkmək əleyhinə qanunvericilik, sığorta normalarının müəyyən edilməsi, abort hüququ, qanuni qumar oyunları və marixuanadan tibbi məqsədlə istifadə, nüvə enerjisindən istifadə və silahlara nəzarət kimi məsələlər referendum yolu ilə səsə qoyulmuşdur.

VƏTƏNDAŞLIQ MƏSULİYYƏTLƏRİ

Məlum olduğu kimi, ABŞ vətəndaşları, onlara bütün insanlar üçün qiymətli olan azadlıqlara – istədikləri kimi düşünmək, öz düşüncələrinə əsasən seçkili nümayəndələrə fərdi qaydada və yaxud kiçik və ya böyük qruplar halında səs vermək, öz seçimlərinə görə istədikləri dinə sitayiş etmək və ya ümumiyyətlə heç bir dinə sitayiş etməmək, heç bir səbəb olmadan özlərinin, evlərinin və öz şəxsi sənədlərinin axtarılmasından qorunmaq kimi çox sayda hüquqlara malikdirlər. Ancaq demokratik dövlət nəzəriyyəsi bu hüquqlarla bərabər Amerika vətəndaşları üçün qanunlara riayət etmək, qanuni şəkildə təyin edilən vergiləri ödəmək, dəvət olunduqda məhkəmə iclasçısı kimi xidmət etmək, məsələlər və namizədlər barədə məlumatlı olmaq və

«İnsanlıq üçün təbii mühit» təşkilatının könüllüləri Texas ştatının Hyuston şəhərində ev tikirlər. «Təbii Mühit» Birləşmiş Ştatlardakı minlərlə könüllü təşkilatdan biridir; vətəndaşlar bu təşkilat vasitəsilə öz icmalarının yaxşılaşmasına xidmət göstərirlər.

öz əcdadlarının min bir əzab-əziyyət hesabına əldə etdikləri səsvermə hüququnu reallaşdırmaq kimi müəyyən məsuliyyətləri də nəzərdə tutur.

Başqa bir böyük məsuliyyət ictimai qulluq məsuliyyətidir. Milyonlarla amerikalı kişi və qadın ölkə təhlükələrə məruz qaldığı dövrlərdə onun silahlı qüvvələri sıralarına daxil olur. Miyonlarla insan dinclik dövründə ölkənin hərbi gücünü qoruyub saxlamaq üçün onun ordu sıralarında xidmət edir. Həm gənc, həm də yaşlı amerikalılar ölkə daxilində və xaricdə sosial xidmətləri yerinə yetirmək üçün Sülh korpuslarına və digər könüllü təşkilatlara qoşulurlar.

Ancaq daha uzun sürən fərqliliyi yaradan məsuliyyət siyasi proseslərə cəlbolunma ilə bağlıdır. «İştirakçı demokratiya tərəfdarları belə bir fikri müdafiə edirlər ki, qərarların çıxarıldığı icmalarda və iş yerlərində vətəndaşların iştiraklarının artması yalnız insanların daha böyük bir icmanın vətəndaşları kimi öz rol və məsuliyyətlərini qəbul etdikləri halda mühüm əhəmiyyət kəsb edir», – professor Kreyq Rimmerman özünün *«Yeni vətəndaşlıq: qeyri-konvensional siyasətlər, aktivlik və xidmət»* kitabında yazır: «Məsələn, icma toplantıları vətəndaşları digər vətəndaşların ehtiyaclarına diqqət yetirmək biliyi ilə təmin edir. Həqiqi iştirakçı yaşayış məskənlərində vətəndaşlar sadəcə öz maraqlarını güdən avtonom fərdlər kimi hərəkət etmir, əksinə, qərarçıxarma, mübahisə və kompromis prosesləri vasitəsilə son nəticədə öz maraqlarını icmanın ehtiyacları ilə əlaqələndirmiş olurlar».

Ayova ştatından olan ABŞ senatoru Tom Harkin deyir ki, əvvəllər vətəndaş hüquqları, Vyetnam müharibəsi əleyhinə və ətraf mühiti mühafizə hərəkatlarını alovlandıran fəallar indi öz enerjilərini «öz evlərinə yaxın yerlərə yönəldərək qonşularını mənzillə daha yaxşı təmin olunmaq, ədalətli vergi qoyulması və toksik tullantılardan təmizlənmə kimi məsələlər uğrunda mübarizəyə ruhlandırırlar... İrqi, sinfi və coğrafi sərhədləri aşmış olan bu fəaliyyətlər milyonlarla insana ümumi maraqlarının aralarındakı fərqlilikləri nə qədər çox unutdurduğunu nümayiş etdirir. Vətəndaş fəaliyyətinin aşıladığı çağırış (onların hamısı üçün) eynidir: «Əsəbləşmə, ruhdan düşmə, təslim olma. Öz haqqını geri almaq üçün səfərbər ol və mübarizə apar».

VİRTUAL İCMALAR

Müəyyən narahatlıqları olan bəzi amerikalı seçicilər həmişə seçkili dövlət məmurları ilə, xüsusilə də prezidentlə, senatorlarla və konqresmenlərlə birbaşa təmasda olmağa çalışırlar. Onlar istər Vaşinqtonda, istər öz ştatlarında, istərsə də öz rayonlarında olsun, həmin dövlət məmuruna əvvəllər məktub yazır, teleqram göndərir, telefonla zəng vurur və yaxud şəxsən onun qəbuluna gedirdilər. Ancaq son bir neçə ildə yeni kommunikasiya mediumu səhnəyə çıxmış və seçicilərə qeyri-adi bir güc – öz dünyalarında nələr baş verdiyini dərhal öyrənmək, bu hadisələri anında dəyərləndirmək və xoşlarına gəlməyən şeyləri dəyişdirmək üçün işləmək gücü vermişdir. Bu medium İnternetdən, «World Wide Web», «Information Superhighway»dən ibarətdir. Adı nə olursa-olsun, bu medium Amerikada siyasət düşüncəsini sürətlə həmişəlik dəyişdirməkdədir.

İnternet «biz ondan bu məqsədlə istifadə etmək yolunu seçdiyimiz təqdirdə kollektiv fəaliyyət üçün çox güclü bir alət» ola bilər, siyasət fəalı Ed Şvartz özünün *«Net aktivliyi: Vətəndaşlar İnternetdən necə istifadə edir»* adlı kitabında yazır: «O, son 50 il ərzində inkişaf etdirilən siyasi mütəşəkkillik üçün ən qüdrətli və hər bir vətəndaşın istifadə edə biləcəyi bir alətə çevrilmək potensialına malikdir... İcma fəaliyyətlərinin, bir qayda olaraq, daha çox ehtiyac duyduğu şey həm dövlət idarələri, həm də spesifik proqramlar barədə, eləcə də siyasi sistemin necə işlədiyi barədə dolğun informasiyalardır». Onlar bu informasiyaları İnternetdən çox asan və praktik olaraq pulsuz əldə edə bilərlər.

Bir-birindən minlərlə kilometr aralıda yaşayan və başqa heç cür bir-birini tanımaq imkanı heç vaxt olmayan oxşar maraqlara malik kişi və qadınların «virtual icmaları» indi İnternetdə bir araya gəlir. Çox vaxt bu insanlar bir-biriylə şəxsən görüşə bilməsələr də, onları daha çox narahat edən məsələlər barədə uzun müddət apardıqları davamlı, ağıllı söhbətlər vasitəsilə bir-birini yaxşı tanıyırlar.

«EnviroLink» və «Neighborhoods Online» ABŞ-ın və dünyanın hər yerindən ümumi marağa malik insanları bir araya gətirən iki internet veb saytıdır.

Başqa bir əsaslı dəyişiklik, insanların dövlət orqanları, onların yeritdikləri siyasətlər və digər vacib məsələlər haqqında əvvəllər əldə edə bilmədikləri və yaxud çoxunun əldə etməkdə çətinlik çəkdikləri informasiyalara İnternet vasitəsilə asan və tez yol tapmaları ilə bağlıdır.

Məsələn, «EnviroLink» ətraf mühit məsələlərinə həsr olunmuş veb saytıdır. İcma təşkilatları bu saytdan istixanaların qaz emissiyaları, zərərli tullantılar və toksik kimyəvi maddələr kimi narahatlıq doğuran məsələlər barədə spesifik faktlar götürə bilərlər. Keçmişdə bu qruplar həmin məsələlər barədə yalnız ümumi şəkildə söhbət etməklə kifayətlənməli olurdular. İndi isə «EnviroLink» onlar barədə ən müfəssəl mənbə materiallarını əldə etməyə imkan verir. Sayt maraq mövzuları üzrə sadalanan təhsil resurslarına, dövlət idarələrinə, ətraf mühiti mühafizə təşkilatlarına və nəşrlərinə yol tapmaq imkanı təmin edir. «EnviroLink», həmçinin, spesifik ətraf mühiti mühafizə məsələləriylə bağlı əlaqə yaratmaq istədiyiniz müvafiq şəxslərin adlarını və e-mail ünvanlarını təmin etməklə bilavasitə necə hərəkət etmək lazım gəldiyi barədə informasiyalar və tövsiyələr təklif edir və buna istifadəçilərin müzakirələrə qoşulmaq və öz ideyalarını paylaşmaq üçün yararlana biləcəkləri «çat otaqları» da daxildir.

Yerli səviyyədə çalışan fəallar İnterneti praktik cəhətdən çox faydalı hesab edirlər. Bunlar öz qonşuluqlarında və icmalarında vəziyyəti yaxşılaşdırmaq üçün siyasətlə məşğul olan adamlardır. Onlar blok təmizliyi, tullantıların təkrar emalı, cinayətə nəzarət qrupları və yaşlıların savadlandırılması proqramları təşkil edirlər. «Onların məqsədi sadəcə icma xidmətlərini yerinə yetirmək deyil, hərçənd bu da o məqsədin

bir hissəsidir», – Ed Şvartz yazır. – «Onlar, sadəcə, buna əmindirlər ki, yalnız sakinlər öz rifahlarının yaxşılaşdırılmasına fərdi şəkildə yardım göstərdikləri halda icmanın sağlamlığına nail olmaq mümkündür».

Bu insanların İnternetdə istifadə etdikləri saytlardan biri də «Neighborhoods Online» saytıdır; Şvartz tərəfindən yaradılan bu veb saytı Birləşmiş Ştatlar miqyasında qonşuluq aktivliyini gücləndirmək üçündür. Təşkilatçılar, qeyri-hökumət təşkilatlarının ştatlı işçiləri, seçkili məmurlar, jurnalistlər, kollec müəllimləri, tələbələr və adi insanlar da daxil olmaqla, hər gün yüzlərlə adam qonşuluq problemlərini çözməyin yeni yollarını axtarmaq üçün bu sayta müraciət edirlər.

«İşin hələ lap başlanğıcından, – Şvartz deyir, – bizə məlum oldu ki, icma inkişafı məsələləriylə məşğul olan hər bir korporasiya, qonşuluq üzrə məsləhət komitəsi, yaşlıların savadlandırılması proqramı, iş treninqi agentliyi və humanitar xidmət provayderi artıq bu xəttə qoşulub və yaxud ona necə qoşulmağı aydınlaşdırmağa çalışır».

ÖZƏL MARAQ QRUPLARI

Yuxarıda haqqında söhbət açılan və onlara bənzəyən digər qruplar ictimai maraq qrupları adlanır, çünki onlar kollektiv bir fayda güdürlər və bu məqsədə çatmaq onların hər bir üzvünün şəxsi mənfəəti üçün zəruri deyildir. Bu heç də o demək deyil ki, bu qruplar tutduqları mövqeyə həmişə dəqiq qulluq edirlər, sadəcə, onlarda mənfəət və yaxud ayrı-ayrı şəxsi maraq elementi çox aşağı səviyyədədir.

Bundan fərqli olaraq, özəl maraq qrupları adətən müdafiə etdikləri siyasətlərdən iqtisadi mənfəət umurlar. Biznes təşkilatları korporativ vergilərin aşağı həddə olmasında və tətil hüquqlarının məhdudlaşdırılmasında maraqlı olur, həmkarlar ittifaqları isə minimum əməkhaqqı hədlərinin müəyyənləşdirilməsini və kollektiv şərtlər irəli sürmək hüququnun qorunmasını müdafiə edirlər. Kilsələr və etnik qruplar kimi digər özəl maraq qruplarını daha çox öz təşkilatlarına və ya inanclarına təsir göstərə biləcək daha geniş siyasət məsələləri narahat edir.

Son illərdə sayı və nüfuzu xeyli artmış olan özəl maraq qrupu tiplərindən biri siyasi aksiya komitəsi və ya PAS-dır. Bunlar tək bir məsələ və məsələlər qrupu ətrafında təşkil edilən müstəqil qruplardır, Konqres üzvü və yaxud prezident seçkilərində siyasi kampaniyalar üçün pul toplamaqla məşğul olurlar. PAS-ların federal seçkilərdə birbaşa namizədlər üçün toplaya biləcəkləri pulun məbləğinə məhdudiyyət qoyulmuşdur.

Ancaq PAS-ların hər hansı bir fikri müdafiə etmək və yaxud namizədin seçilməsinə yardım üçün müstəqil surətdə sərf edə biləcəkləri məbləğə heç bir məhdudiyyət qoyulmur. Bu gün PAS-ların üzvlərin sayı minlərlədir.

«Getdikcə Vaşinqtonda daha çox əməliyyat ofisləri, Konqresdə və federal idarələrdə birbaşa təmsilçiləri olan maraq qruplarının sayının artması siyasi partiyaları qorxuya salmışdır» – Maykl Şüdson özünün *«Yaxşı vətəndaş: Amerikanın vətəndaş həyatının tarixi»* kitabında yazır. – «Vaşinqtonda gözü olan təşkilatların çoxu adi və-

davamı səhifə 118

MEDİA

ABŞ prezidentliyinə namizədlər – Riçard Nikson (solda) və Con F. Kennedi (arxası kameraya) 1960-cı ildə özlərinin tarixi televiziya debatlarına hazırlaşırlar.

Amerikalılar öz yeni demokratiyalarının yaxşı fəaliyyət göstərə bilməsi üçün informasiya-ya asan yol tapılmasının fundamental rol oynayacağını lap əvvəldən başa düşmüşdülər. Bunsuz onlar namizədlər və siyasətlər barədə sağlam qərar çıxara bilməzdilər. Bundan başqa, daha səmərəli olması üçün bu informasiya asan əldə edilə bilməliydi və geniş yayılmalıydı.

Bu tələbi qəzetlər ödədi. Amerikanın ilk gündəlik qəzeti 1783-cü ildə Pensilvaniya ştatının Filadelfiya şəhərində işıq üzü görmüşdür. 1800-cü ildə artıq Filadelfiyada altı, Nyu York Sitidə beş, Merilend ştatının Baltimor şəhərində üç, Cənubi Karolinanın Çarlston şəhərin-də iki gündəlik qəzet, bütün ölkədə isə çoxu həftədə bir dəfə çıxan 250-yə yaxın qəzet nəşr olunurdu. 1850-ci ildə artıq ölkədə 2000 qəzet vardı və onların 200-ü gündəlik çıxırdı.

Jurnalistlərin inadkar müstəqilliyi ölkənin yarandığı ilk günlərdən onların Amerika siyasətçilərinin çoxu ilə münaqişələrinə səbəb olmuşdur. Corc Vaşinqton 1792-ci ildə yazırdı ki, «əgər hökumət və onun məmurları qəzetlərin daimi mövzusu olmalıdırsa və onlar motivləri və faktları tədqiq etməyi özlərinə rəva bilmədən bu işləri görməlidirlərsə, onda, elə bilirəm ki, hökuməti idarə etmək və yaxud bu maşının sükanını əldə möhkəm saxlamaq istənilən adam üçün mümkün olan iş deyil». Eyni zamanda siyasətçilər seçicilərin məlumatlandırılmasında medianın həlledici rol oynadığını da qəbul edirdilər. Tomas Cefferson 1787-ci ildə yazırdı ki, «əgər bizim qəzetlərsiz dövlətəmi, yoxsa dövlətsiz qəzetlərəmi sahib olmağımıza qərarı mən verəcək olaramsa, bir an belə tərəddüd etmədən sonuncuya üstünlük verərdim».

1924-cü ildə milli siyasi partiya qurultayının ilk dəfə canlı şəkildə efirə verilməsi ilə radio siyasət aləminin ən vacib ünsürlərindən birinə çevrildi. Həmin il partiyalar radio elanları üçün haqq ödəməyə başladılar – bu işə respublikaçılar 120.000, demokratlar isə 40.000 dollar sərf etdilər. Dörd il sonra hər iki partiyanın bu xərcləri milyon dolları aşdı və seçki kampaniyası məsrəfləri spiralvari şəkildə durmadan artmağa başladı, son illərdə isə bu artım daha da sürətləndi.

Corc Qallop 1934-cü ildə ən əsas dairələrdə əvvəlcə kiçik nümunələr şəklində ictimai rəy sorğuları keçirməyə başladı. O, əmin idi ki, bu sorğular «eninə və uzununa ölkənin hər yerində qanunvericilərin, pedaqoqların, ekspertlərin və jurnalistlərin, eləcə də adi vətəndaşların demokratiyanın nəbzini dəqiq ölçə biləcəkləri çox sürətli və effektiv bir metod» olacaqdır. Bu gün rəy sorğuları uzun illərin təcrübəsi nəticəsində xeyli cilalana-raq adi sorğu olmaqdan çıxmış və müasir texnologiyaların tətbiqi sayəsində ciddi təhlilə çevrilmişdir. Təsadüfi səhvlərə baxmayaraq, rəy sorğusu hamı tərəfindən ictimai rəyin nəbzini tutmaq üçün ən səmərəli üsul hesab edilir. 1940-cı ildə ilk dəfə olaraq siyasi toplantı televiziya ilə nümayiş etdirilmişdi; o zaman bunu 100.000 tamaşaçı seyr etmişdir. 1950-ci illərdə televiziya Amerika ailələrinin üçdə birinə yol tapmışdı. 1952-ci ilin seçki kampaniyasında hər iki partiya televiziya reklamlarına 3,5 milyon dollar vəsait xərcləmiş-di: respublikaçılar bu işə demokratlara nisbətən xeyli çox vəsait sərf etmişdilər. 1960-cı ildə Kennedi ilə Nikson arasında keçirilən teledebatlar müasir seçki kampaniyasında televiziyanın həlledici rola malik olduğunu əyani şəkildə sübut etmişdi.

«Televiziya amerikalıların əksəriyyəti üçün ən əhəmiyyətli informasiya mənbəyinə çevrilmişdir», – britaniyalı tarixçi Filip Con Devis «ABŞ seçkiləri» *kitabında yazır. «Əhalinin rəğbətini qazanmaq istəyən prezidentliyə namizədlər nə televiziya xəbərlərinin gücünü inkar etmək, nə də bu mediumda reklam vermək imkanından yan keçmək iqtida-rındadırlar. Bundan əlavə, ictimaiyyət də, ən azı, prezidentliyə namizədlərin televiziya ekranında görünməsini gözləməyə başlamışdır; Konqres üzvlüyünə, ştat səviyyəli və yaxud hətta yerli səviyyəli vəzifələrə namizədlər hələ də radiodan və mətbu media reklamlarından çox səmərəli şəkildə istifadə edə bilərlər. Amma televiziya materialları olmadan hər hansı bir kampaniyanın uğur qazanacağını güman etmək mümkün deyil».*

təndaşların maliyyə və mənəvi dəstəyini qazanmağa çalışır. Onların əksəriyyəti bütün diqqətlərini dar çərçivədə bir neçə, hətta tək bir məsələyə və özü də emosional ağırlığı çox olan bir məsələyə yönəltdikləri üçün onlar əslində vətəndaşların dollarları, vaxtı və ehtirasları uğrunda partiyalarla yarışa girmişlər».

Seçki kampaniyalarının qiyməti bahalaşdıqca, bu *xüsusi maraq qruplarının* sərf etdikləri pulun məbləği də durmadan artmaqda davam edir. Amerikalıların çoxunda belə bir təsəvvür yaranıb ki, bu varlı maraq qrupları – xüsusi bir fikri müdafiə etmək üçün təşkil edilən korporasiyalar, ittifaqlar və ya PAS-lar o qədər güclüdür ki, adi vətəndaşlar onların təsirini önləmək üçün çox az şey edə bilərlər.

Ancaq onlar bəzi işləri görə bilərlər. Adi vətəndaşlar özlərini məlumatlandıra və bu məlumat əsasında hərəkət edə bilərlər. Bu anlamda bəlkə də ən asan və ən səmərli üsul seçkili məmurların hər birinin fəaliyyətindən daha ətraflı xəbərdar ola bilmək üçün İnternetdən istifadə etməkdir. Bir neçə dəqiqənin içində onlar hansı *xüsusi maraq qruplarının* həmin məmura siyasi yardım göstərdiyini və bu məmurun son dövrlərdə qanunların qəbul edilməsi zamanı necə səs verdiyini aşkar edə və əldə etdikləri bu məlumatlar əsasında öz fikirlərini dəqiqləşdirə bilərlər.

Siyasi həyatın gerçəkliyi budur ki, vətəndaşların məsələlər barədə düşünməsi, informasiya toplaması, onları dostları və qonşuları ilə müzakirə etməsi artıq seçilmiş olan məmurların necə hərəkət edəcəyinə, ən vacibi isə nəyə səs verəcəyinə elə bir təsir göstərmir. Ancaq bir dəfə onları seçmiş olan vətəndaşların yenidən onları seçib-seçməyəcəyi bu məmurları çox yaxından maraqlandırır. Seçicilərdən məktublar, telefon zəngləri, fakslar və e-maillər gəlməyə başlayanda onlara böyük diqqət yetirilir. Hər biri öz seçimi ilə hər şeyi müəyyənləşdirdiyi üçün hələ də xalq, adi vətəndaşlar son qərarı vermək səlahiyyətinə malikdir.

1787-ci ildən, ABŞ Konstitusiyasının qəbul edildiyi vaxtdan başlayaraq bu günlərə qədər gəlib çıxan yol heç də həmişə düz və hamar olmamışdır. Seçicilər öz emosiyalarına uyğun hərəkət etmiş, hadisələr əvvəlcə bu, sonra digər istiqamətdə inkişaf etmişdir. Ancaq müəyyən bir nöqtədə bu cığırların hamısı geriyə qayıdıb ana yola yaxın yerdə sabitləşmişdir. Birləşmiş Ştatlar xalqının uzun illərdən bəri üzərində möhkəm, daim çiçəklənməkdə olan, azad bir ölkə – bəzən sarsılan, bəzən mükafatlandırılan, amma həmişə daha yaxşı günlərin hələ qabaqda olduğuna inanan bir ölkə qurduğu ümumi zəmin haradasa praqmatizm və idealizm, yerli və milli, dövlət və özəl, eqoizm və altruizm, ştatların hüquqları və bütövlükdə ölkənin mənafeyi arasında qərar tutmuşdur. ❑

ABŞ dövləti haqqında əlavə ədəbiyyat

Abraham, Henry J.
Justices, Presidents, and Senators: A History of the U.S. Supreme Court Appointments From Washington to Clinton. 4th ed. Lanham, Maryland: Rowman and Littlefield, 1999

Baum, Lawrence
Supreme Court. Washington, D.C.: CQ Press, 1997.

Bibby, John
Two Parties or More?: The American Party System. Boulder, Colorado: Westview Press, 1998.

Bowen, Catherine
Miracle at Philadelphia: The Story of the Constitutional Convention, May to September 1787. Boston, Massachusetts: Little Brown, 1986.

Boyte, Harry C., Heather Booth, and Steve Max
Citizen Action and the New American Populism. Philadelphia, Pennsylvania: Temple University Press, 1986.

Brinkley, Alan, Nelson W. Polsby, and Kathleen M. Sullivan
The New Federalist Papers: Essays in Defense of the Constitution. New York, New York: Norton, 1997.

Brookhiser, Richard
Alexander Hamilton, American. New York, New York: Free Press, 1999.

Carp, Robert A., and Ronald Stidham
Judicial Process in America. 4th ed. Washington, D.C.: CQ Press, 1998.

Davies, Philip
U.S. Elections Today. 2nd ed. New York, New York: Manchester University Press, 1999.

Edwards, George C.
Government in America: People, Politics, and Policy. 8th ed. New York, New York: Longman, 1999.

Fine, Toni M.
American Legal Systems: A Resource and Reference Guide. Cincinnati, Ohio: Anderson Publishing, 1997.

Fisher, Louis
Constitutional Conflicts Between Congress and the President. 4th ed. Topeka, Kansas: University Press of Kansas, 1997.

Fisher, Louis
The Politics of Shared Power: Congress and the Executive. 4th ed. College Station, Texas: Texas A & M University Press, 1998.

Friedman, Lawrence M.
American Law: An Introduction. 2nd ed. New York, New York: W.W. Norton, 1998.

Graber, Doris
Mass Media and American Politics. 5th ed. Washington, D.C.: CQ Press, 1997.

Greenstein, Fred
Leadership in the Modern Presidency. Cambridge, Massachusetts: Harvard University Press, 1988.

Hall, Kermit, ed.
The Oxford Guide to United States Supreme Court Decisions. New York, New York: Oxford University Press, 1999.

Hanson, Russell, ed.
Governing Partners: State-Local Relations in the United States. Boulder, Colorado: Westview Press, 1998.

Hedge, David
Governance and the Changing American States. Boulder, Colorado: Westview Press, 1998.

Hoffman, Daniel
Our Elusive Constitution: Silences, Paradoxes, Priorities. New York, New York: SUNY Press, 1997.

Kurian, George T.
Historical Guide to the U.S. Government. New York, New York: Oxford University Press, 1997.

Loomis, Burdett
The Contemporary Congress. 2nd ed. New York, New York: St. Martins Press, 1998.

Mason, Alpheus
American Constitutional Law: Introductory Essays and Selected Cases. 12th ed. New York, New York: Prentice Hall, 1998.

Meador, Daniel J.
American Courts. St. Paul, Minnesota: West Publishing Co., 1991.

Nelson, Michael
The Presidency and the Political System. 5th ed. Washington, D.C.: CQ Press, 1998.

Notess, Greg R.
Government Information on the Internet. 2nd ed. Lanham, Maryland: Bernan Press, 1998.

O'Brien, David M.
Storm Center: The Supreme Court in American Politics. 5th ed. New York, New York: W.W. Norton, 1999.

Perloff, Richard M.
Political Communication: Politics, Press, and Public in America. Mahwah, New Jersey: Lawrence Erlbaum Associates, 1998.

Polsby, Nelson
Presidential Elections: Strategies and Structures of American Politics. 9th ed. Chatham, New Jersey: Chatham House, 1996.

Reichley, A. James, ed.
Elections American Style. Washington, D.C.: The Brookings Institution, 1997.

Relyea, Harold C., ed.
The Executive Office of the President: A Historical, Biographical, and Bibliographical Guide. Westport, Connecticut: Greenwood Press, 1997.

Rimmerman, Craig A.
The New Citizenship: Unconventional Politics, Activism, and Service. Boulder, Colorado: Westview Press, 1997.

Ripley, Randall
Readings in American Government and Politics. 3rd ed. Boston, Massachusetts: Allyn and Bacon, 1999.

Rogers, Donald, ed.
Voting and the Spirit of American Democracy: Essays on the History of Voting and Voting Rights in America. Urbana, Illinois: University of Illinois Press, 1992.

Rossiter, Clinton, ed.
The Federalist Papers, by Alexander Hamilton, James Madison, and John Jay. New York, New York: Mentor, 1999.

Schudson, Michael
The Good Citizen: A History of American Civic Life. Cambridge, Massachusetts: Harvard University Press, 1999.

Schwartz, Ed
Net Activism: How Citizens Use the Internet. Sebastopol, California: Songline Studios, Inc., 1996.

Selnow, Gary W.
Electronic Whistle-Stops: The Impact of the Internet on American Politics. Westport, Connecticut: Praeger Press, 1998.

Van Horn, Carl
The State of the States. 3rd ed. Washington, D.C.: CQ Press, 1996.

Weisberg, Herbert, ed.
Great Theatre: The American Congress in the 1990s. Cambridge, England: Cambridge University Press, 1998.

Wilson, James
American Government: Institutions and Policies. 7th ed. Boston, Houghton Mifflin, 1998.

Woll, Peter, ed.
American Government: Readings and Cases. 13th ed. New York, New York: Longman, 1999.

Office of International Information Programs
UNITED STATES DEPARTMENT OF STATE
http://usinfo.state.gov